

# Peyğəmbərin ﷺ gündəlik sünnə əməlləri və zikrləri


Müəllif
**Dr. Abdullah ibn Həmud əl-Fureyh**

Rəyçi
**Prof. dr. Xalid ibn Əli əl-Muşeyqih**

# Peyğəmbərin >
# gündəlik sünnə
# əməlləri və zikrləri

İzzət və cəlal sahibi Allah qüdsi hədisdə
buyurur:

*“Qulum nafilə ibadətləri yerinə yetirməklə Mənə o qədər yaxınlaşar ki, Mən onu sevərəm”*

Müəllif

Dr. Abdullah ibn Həmud əl-Fureyh

Rəyçi:

Prof. dr. Xalid ibn Əli əl-Muşeyqih

Bu kitab 10-dan çox dilə tərcümə edilmişdir

Kitabın xeyriyyə və ya digər məqsədlər üçün hər hansı
bir dilə tərcümə və çap hüququ müəllifə məxsusdur

بسم الله الرحمن الرحيم

# Mündəricat

## Müqəddimə


| Mövzu | Səhifə |
|---|---|
| Ön söz | 21 |
| Giriş | 22 |
| Sünnənin mənası | 22 |
| Sələflərin sünnəyə olan hərisliyindən nümunələr | 22 |
| Sünnəyə əməl etməyin faydaları | 24 |


## Zamanla bağlı sünnə əməllər




| Mövzu | Səhifə |
|---|---|
| Birinci: Fəcr (sübh) namazı girməmişdən öncə edilən sünnə əməllər | 28 |
| Birinci qism | 28 |
| 1 Ağzı misvakla təmizləmək | 28 |
| 2 Yuxudan oyanma zikrini söyləmək | 29 |
| 3 Üzdən yuxu əlamətini silmək | 29 |

| Mövzu | Səhifə |
|---|---|
| 4 Səmaya baxmaq | 29 |
| 5 Sonra Ali İmran surəsinin son on ayəsini oxumaq | 29 |
| 6 Yuxudan qalxdıqda əlləri üç dəfə yumaq | 30 |
| 7 Ağız və burnu üç dəfə yumaq | 30 |
| 8 Dəstəmaz almaq | 30 |
| **Dəstəmazın sünnələri:** | 31 |
| 1 Misvakdan istifadə etmək | 31 |
| 2 Dəstəmaza başlayarkən *"Bəsmələ"* gətirmək. | 32 |
| 3 Əlləri üç dəfə yumaq | 32 |
| 4 Sağ əzaları soldan öncə yumaq | 32 |
| 5 Dəstəmaza *"madmada"* (ağıza su alıb yaxalamaq) və *"istinşaq"* (burna suyu çəkib çölə nəfəs verərək çıxarmaq) ilə başlamaq | 32 |
| 6 Dəstəmazda (oruclu olandan başqa) *madmada* və istinşaq edərkən suyu dərinə çəkmək | 33 |
| 7 Madmada və istinşaqı bir ovuc su ilə eyni anda etmək | 33 |
| 8 Başa məshi sünnədə varid olan formada etmək | 33 |
| 9 Əzaları üç dəfə yumaq | 34 |
| 10 Dəstəmazdan sonra dua etmək | 34 |

| Mövzu | Səhifə |
|---|---|
| ◆ **İkinci qisim: Vitr və təhəccüd (gecə) namazı ilə əlaqəli sünnə əməllər** | 36 |
| ① **Gecə namazını əfzəl vaxtı qılmaq** | 36 |
| ② **Gecə namazını on bir rükət qılmaq** | 38 |
| ③ **Gecə namazına iki qısa rükətlə başlamaq** | 38 |
| ④ **Gecə namazına varid olan *"İstiftəh"* (açılış) dualarından birini deməklə başlamaq:** | 39 |
| ⑤ **Gecə namazında qıyamı, rükunu, səcdəni eyni miqdarda uzatmaq** | 40 |
| ⑥ **Gecə namazı qiraətinə aid sünnələr** | 40 |
| ⑦ **Gecə namazlarını iki rükət-iki rükət qılmaq** | 41 |
| ⑧ **Son üç rükətdə (yəni vitrdə) müəyyən surələri oxumaq** | 41 |
| ⑨ **Vitrdə bəzən qunut tutmaq** | 42 |
| ⑩ **Gecənin son üçdə biri dua etmək** | 43 |
| ⑪ **Vitr namazını qılıb bitirdikdən sonra üç dəfə *"Subhənəl-Məlikil-Quddus"* demək və üçüncüdə səsi qaldırmaq** | 43 |
| ⑫ **Gecə namazına ev əhlini oyatmaq** | 44 |
| ⑬ **Gecə namazını özünə rahat olan şəkildə qılmaq. Çünki bu mütiliyə təsir edən amillərdəndir** | 44 |
| ⑭ **Gecə namazını qıla bilməyən onun əvəzinə səhər vaxtı cüt şəkildə namaz qılır** | 45 |

| Mövzu | Səhifə |
|---|---|
| **İkinci: Fəcr vaxtı edilən sünnə əməllər** | 46 |
| **Azan və onun sünnələri:** | 46 |
| 1 Müəzzinin dediklərini təkrar etmək | 46 |
| 2 İki şəhadətdən sonra zikr etmək | 47 |
| 3 Azandan sonra Peyğəmbərə > salavat demək | 47 |
| 4 Azandan sonra dua etmək | 48 |
| 5 Azan və iqamə arasında dua etmək | 48 |
| **Fəcri və onun sünnələri:** | 49 |
| 1 Ratibə sünnələrin evdə qılınması daha əfzəldir | 49 |
| 2 Ən üstün və davamiyyətli olan ratibə sünnə | 49 |
| **Məscidə gedərkən əməl olunan sünnə əməllər** | 51 |
| 1 Məscidə erkən getmək | 51 |
| 2 Hər atılan addıma görə savab əldə etmək üçün evdən məscidə dəstəmazlı halda çıxmaq | 51 |
| 3 Məscidə sükunət və vüqarlı şəkildə getmək | 51 |
| 4 Məscidə sağ ayaqla daxil olmaq, sol ayaqla çıxmaq | 52 |
| 5 Məscidə daxil olduqda və çıxdıqda müəyyən zikrləri oxumaq | 52 |
| 6 Məscidə daxil olduqda iki rükət salam namazı qılmaq | 52 |

| Mövzu | Səhifə |
|---|---|
| ⑦ Kişilərin ilk səfdə yer tutmağa səy göstərmələri sünnədir. Çünki ilk səf ən əfzəl səfdir. Qadınlar üçün isə ən əfzəl səf sonuncudur | 53 |
| ⑧ Camaat namazında məmumun (camaat namazında imama iqtida edənin) imama yaxın durması | 54 |
| **Namazın sünnələri:** | 55 |
| ◆ Sütrə və onun sünnələri | 55 |
| ① Namaz qılanın sütrə qoyması sünnədir | 55 |
| ② Sütrəyə yaxın durmaq | 56 |
| ③ Namaz qılanın qarşısından keçmək istəyəni itələmək | 56 |
| ④ Hər namazdan öncə misvakdan istifadə etmək | 57 |
| ◆ Qiyam vəziyyətinə aid sünnə əməllər: | 57 |
| ① *"İhram"* (namaza başlama) təkbirində əlləri qaldırmaq | 57 |
| ② Təkbir zamanı əlləri qaldırarkən barmaqları bükmədən açıq vəziyyətdə tutmaq | 58 |
| ③ Təkbir zamanı əlləri sünnədə gələn yerə qədər qaldırmaq | 58 |
| ④ *"İhram"* təkbirindən sonra sağ əli sol əlin üzərinə qoymaq | 59 |
| ⑤ Sağ əllə solu tutmaq | 59 |
| ⑥ *"İstiftəh"* (açılış) duasını oxumaq | 60 |
| ⑦ *"İstiazə"* (Şeytandan Allaha sığınmaq üçün edilən dua) | 61 |

| Mövzu | Səhifə |
|---|---|
| 8 *“Bəsmələ”* gətirmək | 61 |
| 9 İmamla birgə “Amin” demək | 61 |
| 10 Fatihədən sonra başqa surə oxumaq | 62 |
| ◆ Rüku ilə əlaqəli sünnə əməllər: | 62 |
| 1 Rükuda əlləri (barmaqları aralayaraq) diz qapaqlarını tutmuş kimi onların üzərinə qoymaq | 62 |
| 2 Rükuda beli düz saxlamaq | 62 |
| 3 Rüku zamanı dirsəkləri böyürlərdən aralı tutmaq | 63 |
| 4 Rükuda sünnədə gələn zikrləri demək | 63 |
| ◆ Rükudan qalxarkən edilən sünnə əməllər: | 64 |
| 1 Rükudan qalxıb qiyamı uzatmaq | 64 |
| 2 *“Rabbənə və ləkəl-həmd”* zikrinin müxtəlif şəkillərini növbələşdirərək oxumaq | 65 |
| 3 Rükudan qalxdıqda sünnədə varid olan zikrləri oxumaq | 65 |
| ◆ Səcdədə edilən sünnə əməllər | 66 |
| 1 Səcdə halında qolları böyürlərdən və ayaqları da qarından aralı tutmaq | 66 |
| 2 Səcdə halında ayaq barmaqlarını qibləyə tərəf yönəltmək | 67 |
| 3 Səcdə vəziyyətində zikr etmək | 67 |
| 4 Səcdədə çoxlu dua etmək sünnədir | 69 |

## Mündəricat


| Mövzu | Səhifə |
|---|---|
| ◆ İki səcdə arasında olan oturuşun sünnələri | 69 |
| 1. Namaz qılanın iki səcdə arasında oturarkən sol ayağını yerə yatırdıb onun üzərində oturması, sağ ayağının pəncəsini dik (şaquli) vəziyyətdə tutması sünnə əməllərdəndir | 69 |
| 2. İki səcdə arası oturuşu uzatmaq | 69 |
| 3. İkinci ya da üçüncü rükətə qalxmamışdan əvvəl azacıq oturub sonra qalxmaq | 69 |
| ◆ Təşəhhüddə edilən sünnələr: | 70 |
| 1. Təşəhhüdə oturarkən sol ayağı yerə yatırdıb onun üzərinə əyləşmək və sağ ayağın pəncəsini isə dik (şaquli) vəziyyətdə tutmaq. Bu, "İftiraş" oturuşu adlanır | 70 |
| 2. Təşəhhüddə əllərin qoyuluş şəkillərinin hamısından istifadə etmək | 70 |
| 3. Əl barmaqlarının tutulma şəklini dəyişmək | 71 |
| 4. Təşəhhüdün deyilmə formalarını dəyişdirərək oxumaq | 72 |
| 5. Üç və dörd rükətli namazların son təşəhhüdündə *"Təvərruk"* oturuşu ilə əyləşmək | 73 |
| 6. Namazda Peyğəmbərə > deyilən salavat formalarını növbələşdirərək oxumaq | 74 |
| 7. Salam verməmişdən əvvəl dörd şeydən Allaha sığınmaq | 75 |
| ◆ Bunlara əlavə olaraq salamdan öncə sünnədə digər dualar da nəql edilmişdir | 75 |
| ◆ Namazı bitirdikdən sonra müəyyən zikrləri oxumaq sünnədir. | 76 |

| Mövzu | Səhifə |
|---|---|
| Səhər vaxtı edilən zikrlər | 80 |
| Səhər və axşam zikrləri: | 80 |
| Üçüncü: Duha vaxtı edilən sünnə əməllər | 86 |
| Duha namazının başlama vaxtı | 87 |
| Duha namazının əfzəl vaxtı | 87 |
| Duha namazının rükətlərinin sayı | 88 |
| Dördüncü: Zöhr vaxtı edilən sünnə əməllər | 89 |
| Birinci: Zöhr namazından əvvəl və sonra sünnə namazları qılmaq | 89 |
| İkinci: Zöhr namazının ilk rükətini uzatmaq | 89 |
| Üçüncü: Bərk istilər düşdükdə zöhr namazını hava bir az sərinləyənədək təxirə salmaq | 90 |
| Beşinci: Əsr vaxtı edilən sünnə əməllər | 92 |
| Səhər zikrlərinin vaxtı | 93 |
| Axşam zikrlərinin vaxtı | 93 |

| Mövzu | Səhifə |
|---|---|
| Altıncı: Məğrib vaxtı edilən sünnə əməllər | 94 |
| Birinci: Gün batdıqda – məğribin ilk saatlarında uşaqları bayıra çıxmağa qoymamaq | 94 |
| İkinci: (Gecə yatmazdan öncə) Uca Allahın adını zikr edərək (*“Bismilləh”* deyərək) qapıları bağlamaq | 94 |
| Üçüncü: Məğribdən əvvəl iki rükət namaz qılmaq | 95 |
| Dördüncü: İşadan əvvəl yatmaq məkruhdur (bəyənilmir) | 96 |
| Yeddinci: İşa vaxtı edilən sünnə əməllər: | 97 |
| Birinci: İşadan sonra məclis qurmaq və söhbət etmək məkruhdur | 97 |
| İkinci: İnsanlara məşəqqət yaratmadıqca işa namazını (vaxtı çıxmamaq şərtilə) gecikdirmək daha yaxşıdır | 98 |
| Gecə vaxtı əl-İxlas surəsini oxumaq sünnədir | 98 |
| Yatmazdan öncə edilən sünnə əməllər | 99 |
| 1 Qapıları kilidləmək | 99 |
| 2 Çıraqları söndürmək | 99 |
| 3 Dəstəmaz almaq | 100 |
| 4 Uzanmamışdan öncə yatağı çırpmaq | 100 |

| Mövzu | Səhifə |
|---|---|
| ⑤ Sağ böyrü üstə yatmaq | 100 |
| ⑥ Yatarkən sağ əli sağ yanağın altına qoymaq | 100 |
| ⑦ Quran və Sünnədə gələn zikr və duaları oxumaq | 101 |
| ◆ Quranda gələn zikr və dualar | 101 |
| ◆ Sünnədə gələn zikr və dualar | 103 |
| ◆ Yuxu ilə əlaqəli sünnə əməllər | 107 |
| ◆ Yuxu ilə əlaqəli sünnə əməllər aşağıdakı hədislərdə qeyd edilmişdir | 107 |
| ◆ Gecə yuxudan oyananın növbəti zikri oxuması sünnədir | 108 |

## Zamanla bağlı olmayan sünnə əməllər




| Mövzu | Səhifə |
|---|---|
| **Birinci: Yemək vaxtı edilən sünnələr** | 112 |
| ① Yeməyə başlayarkən *"Bismilləh" (Allahın adı ilə!)* demək | 112 |
| ② Yeməyi özünə yaxın olan hissədən yemək | 113 |
| ③ Yemək yeyərkən yerə düşən tikəni götürüb təmizləmək və yemək | 113 |
| ④ Yeməyi bitirdikdə barmaqları yalamaq | 114 |
| ⑤ Yemək qabını siyirmək | 114 |
| ⑥ Üç barmaqla yemək | 115 |
| ⑦ Nəfəs alıb-verdikdə qabı özündən uzaqlaşdırmaq | 115 |
| ⑧ Yeməkdən sonra Allaha həmd etmək | 115 |
| ⑨ Yeməyi camaat halında yemək | 116 |
| ⑩ Yeməyi bəyəndikdə onu tərifləmək | 116 |
| ⑪ Yemək verən üçün dua etmək | 117 |
| ⑫ İçiləcək qabı soldan öncə sağ tərəfə ötürmək | 117 |
| ⑬ Camaata su verənin özünün sonda içməsi | 118 |
| ⑭ Gecə düşdükdə Uca Allahın adını zikr edərək qabların ağzını örtmək. | 118 |

| Mövzu | Səhifə |
|---|---|
| İkinci: Salamlaşma, görüş və məclis sünnələri | 119 |
| 1 Salam vermək | 119 |
| 2 Ehtiyac duyularsa salamı üç dəfə təkrarlamaq | 120 |
| 3 Tanıdığına və tanımadığına salam vermək | 121 |
| 4 Salama sünnədə göstərilən şəxs öncə başlamalıdır | 121 |
| 5 Uşaqlara salam vermək | 121 |
| 6 Evə daxil olduqda salam vermək | 121 |
| 7 Yatan adamlar olan yerə gəldikdə salamı alçaq səslə vermək | 122 |
| 8 Salamı çatdırmaq. | 122 |
| 9 Məclisə gəldikdə və oradan ayrıldıqda salam vermək. | 123 |
| 10 Salam verərkən əllə görüşmək | 123 |
| 11 Salam verərkən gülərüz olub təbəssüm etmək | 123 |
| 12 Gözəl söz sədəqədir | 124 |
| 13 Məclisdə Allahı zikr etmək | 124 |
| 14 Məclisin sonunda *"Kəffarətul-məclis" (Məclisin kəffarəsi)* zikrini oxumaq. | 124 |

| Mövzu | Səhifə |
|---|---|
| Üçüncü: Geyim və zinət sünnələri | 125 |
| 1 Ayaqqabı geyinərkən sağ taydan başlamaq | 125 |
| 2 Ağ libas geyinmək | 126 |
| 3 Ətir istifadə etmək | 126 |
| 4 Həmçinin bilmək lazımdır ki, ətirdən imtina etmək bəyənilmir | 126 |
| 5 Saç daramağa sağdan başlamaq | 126 |
| Dördüncü: Asqırdıqda və əsnədikdə edilən sünnələr | 127 |
| Asqırdıqda edilən sünnə əməllər: | 127 |
| 1 Asqırdıqda *"Əlhəmdulilləh"* demək | 128 |
| 2 Asqırıb Allaha həmd etməyənə rəhmət diləməmək. | 128 |
| Əsnədikdə edilən sünnə əməllər | 128 |
| Əsnədikdə onu boğmaq və ya qarşısını almaq | 128 |
| Beşinci: Digər gündəlik sünnələr | 130 |
| Ayaqyoluna girdikdə və oradan çıxdıqda edilən zikrlər | 130 |
| Vəsiyyət yazmaq | 131 |
| Alış-verişdə mülayim və alicənab olmaq | 131 |

# Mündəricat


| Mövzu | Səhifə |
|---|---|
| ◆ Hər dəfə dəstəmaz aldıqdan sonra iki rükət namaz qılmaq | 132 |
| ◆ Namazı gözləmək | 132 |
| ◆ Misvakdan istifadə etmək | 133 |
| ◆ Hər namaz üçün dəstəmaz almaq | 133 |
| ◆ Dua etmək | 133 |
| ◆ Gündəlik sünnələrdən də biri Allahı zikr etməkdir | 138 |
| ◆ Zikr etmək qəlblərə yeni həyat verər | 138 |
| ◆ İzzət və cəlal sahibi Allah Quranda bir çox yerlərdə Onu zikr etməyə təşviq edir | 139 |
| ◆ Peyğəmbərdən > varid olan bəzi zikrlər | 139 |

بسم الله الرحمن الرحيم

الحمد لله وحده والصلاة والسلام على من لا نبي بعده، وبعد:

فقد قرأت في هذا المؤلف للشيخ عبد الله بن حمود

الفريح (المنح العلية في بيان السنن اليومية)

فقد ألفيته مؤلفاً مفيداً يحمل على استقصاء السنن

اليومية الفعلية والقولية في الليل والنهار، المنفردة

والتابعة لغيرها مما ثبت بالدليل فجزاه الله خيراً،

ونفع بمؤلفه آمين، وبالله التوفيق.

كتبه

د/ خالد بن علي المشيقح

خالد

٧/١١/١٤٣٤هـ

## Ön söz

Həqiqətən kamil həmd-səna yalnız Allaha məxsusdur! Sonuncu Peyğəmbər Muhəmmədə Allahın salavatı və salamı olsun!

Şeyx Abdullah ibn Həmud əl-Fureyhin *«əl-Minəhi-l-aliyyə fi bəyənis-sünənil-yəumiyyə»* adlı kitabını oxudum. Beləcə, dəlillə sabit olan səhər-axşam vaxtlarına aid əməli və qövli sünnələrin bir yerdə cəm edilərək oxucuya fayda verən bir kitab olduğuna əminlik qət etdim.

Allahdan diləyirəm ki, onu xeyirlə mükafatlandırsın və bu kitabını ümmət üçün faydalı etsin! Amin!

***Dr. Xalid ibn Əli əl-Muşeyqih***

***Qasım Universitetinin professoru,***

***Məkkə və Mədinədə "Haram" məscidlərində mühaziraçi.***


ادخلوها بسلام آمنين
KING
FAHD
GATE
DOOR NO. 21 B
TO ROOF
باب
الملك فهد
باب رقم ٢١ ـ ب
للصعود إلى السطح

# Müqəddimə

***"Həqiqətən, Allah Rəsulu, Allaha, qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamət günündən qorxanlar) və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!"*** *(əl-Əhzab: 21)*. Bu ayəni endirən və Peyğəmbərin > sünnəsinə tabe olmağı əmr edən Allaha kamil həmd olsun.

Bu kitab *«əl-Minəhi-l-aliyyə fi bəyəni-s-sünəni-l-yəumiyyə»* adlı kitabımın müxtəsər variantıdır. Bu kitabda ilk növbədə Peyğəmbərin > yuxudan oyandıqdan yatana qədər gün ərzində etdiyi zamanla bağlı zikrləri və ardınca isə müəyyən bir zamana bağlı olmayan zikrləri dəyərli oxuculara təqdim edirik. Kitabdakı mövzu ilə əlaqəli bəzi elmi məsələlər və terminoloji izahlar ixtisar edilmişdir. Beləcə, kitab oxucuya daha da asanlaşmış və çap üçün yüngülləşmişdir.

Peyğəmbərin > gündəlik əməllərini araşdırmaqda məqsədimiz onun sünnəsini insanlara çatdırmaq və bununla Sünnə haqda olan yanlış fikirlərin qarşısını almaqdır. Həmçinin sünnə əməllərlə əlaqəli dövrümüzdə yayılan ifrat və təfritə son qoymaqdır. Ona görə də kitabda qeyd edilmiş sünnə əməllərin ən mötəbərini seçməyə və onların hər birinin dəlilini qeyd etməyə çalışmışıq.

Allahdan diləyirik ki, bizi Peyğəmbərin > sünnəsinə tabe olan və Qiyamətdə onunla birgə həşr edilən zümrədən etsin!

***Rəbbinin əfvinə möhtac,***

***Dr. Abdullah ibn Həmud əl-Fureyh***

Email: eqtidaa@gmail.com

# Giriş



## Sünnənin mənası:

**Sünnə (və ya sünnət): bəyənilən və könüllü şəkildə edilən mənalarına gəlir.**

Sünnə(t) yerinə yetirilməsi vacib olmayan şəriətin buyurduğu əməldir. Onu yerinə yetirən savab qazanar, tərk edən isə günah qazanmaz.

## Sələflərin sünnəyə olan hərisliyindən nümunələr:

1 Nu'man ibn Salim Amr ibn Ausdan, o da Ambəsə bin Əbu Sufyandan È rəvayət edir ki, Ummi Həbibə Peyğəmbərin > belə dediyini eşitdi: *"Kim gün ərzində on iki rükət namaz qılarsa cənnətdə ona ev tikilər"* *(Müslim: 1727).*

Nəql edilir ki, Ummu Həbibə deyib: *"Rəsulullahdan bunu eşitdikdən sonra heç vaxt həmin əməli tərk etmədim"*. Ambəsə bin Əbu Sufyan dedi: *"Ummu Həbibədən bunu eşitdikdən sonra heç vaxt həmin əməli tərk etmədim"*.

Amr bin Aus deyib: *"Ambəsədən bunu eşitdikdən sonra heç vaxt həmin əməli tərk etmədim"*.

Numan bin Salim deyib: *"Amr bin Ausdan bunu eşitdikdən sonra heç vaxt həmin əməli tərk etmədim"*.

2 Əli ibn Əbu Talib Ê rəvayət edir: *"Fatimə á əl dəyirmanının (onun əllərində) iz buraxdığından şikayət etdi. (Bir müddətdən sonra) Peyğəmbərə > bir neçə əsir gətirdilər. Fatimə (bu əsirlərlərdən birini özünə köməkçi götürmək məqsədilə) Peyğəmbərin > yanına getdi, lakin onu (evdə) tapa bilmədi, Aişəni görüb (nə istədiyini) ona bildirdi. Peyğəmbər > evə gəldikdə Aişə ona Fatimənin gəldiyini xəbər verdi. Bundan sonra Peyğəmbər > bizə gəldi. Həmin vaxt biz artıq yatağımıza uzanmışdıq. Biz (onu görəndə) ayağa qalxmaq istədik, lakin o: "Qalxmayın" – dedi və gəlib aramızda oturdu. Mən hətta onun soyuq ayaqlarının sinəmə toxunduğunu hiss etdim. O dedi: "Məndən istədiyinizdən daha xeyirlisini sizə öyrədimmi?! Yatağınıza uzandığınız zaman otuz dörd dəfə «Allahu Əkbər», otuz üç dəfə «Subhanəllah» və otuz üç dəfə «Əlhəmdulilləh» deyin. Bu sizin üçün xidmətçidən daha xeyirli olar"* *(əl-Buxari: 3705; Müslim: 2727).*

Başqa bir rəvayətdə Əli ibn Əbu Talib Ê deyir: "Bu (kəlmələri) Peyğəmbərdən > eşitdikdən sonra heç vaxt həmin əməli tərk etmədim" Ondan soruşdular: "Hətta Siffin gecəsi belə?" Dedi: "Hətta Siffin gecəsi belə" *(əl-Buxari: 5362; Muslim: 2727).*

Siffin gecəsi baş verən döyüşdə Əli ibn Əbu Talib Ê ordu başçısı idi. Amma buna baxmayaraq, bu, ona sünnəni yerinə yetirməyə mane olmadı.

3 Rəvayət edilir ki, İbn Ömər È cənazə namazını qılıb cənazəni dəfnə qədər təqib etməzdi, çıxıb gedərdi. Çünki zənn edirdi ki, sünnə olan da budur. Lakin cənazənin dəfnə qədər təqib olunmasının fəziləti haqda Əbu Hureyranın rəvayət etdiyi hədis ona çatdıqda, sünnəni tərk etdiyinə görə üzülüb (məhrum olduğu savablar) haqda düşünməyə başladı. Hətta əlindəki daşı yerə çırpıb dedi: *"Demək, biz çox "qiratlar" (dağ boyda savablar) itirmişik"* (əl-Buxari: 1324; Müslim: 945).

İmam Nəvəvi / söyləmişdir: *"Bu cür mövqe tutumu – sünnəni bilən kimi ona tabe olmaq və ondan məhrum olduqda isə üzülüb heyfslənmək səhabələrin yolu idi"* («əl-Minhəc» 7/15).

## Sünnəyə əməl etməyin faydaları:

Əziz oxucu, bilməliyik ki, sünnəyə tabe olmağın bir çox faydaları vardır. Onlardan bəzilərini sadalayaq:

1 Allahın xüsusi sevgisini qazandırar. Çünki nafilə ibadətlərə əməl edəni Uca Allah sevər.

İbn Qayyim / söyləmişdir: *"Allah səni (bəndəsini), Ona zahirən və batinən tabe olmadıqca, Ondan gələn xəbərləri təsdiq etmədikcə, Onun əmrlərini yerinə yetirmədikcə, Onun dəvətinə icabət etmədikcə, könüllü olaraq Onun yolunu izləmədikcə, həmçinin, Onun hökmünü digər hökmlərdən, Ona bəslədiyin məhəbbəti başqalarına olan məhəbbətdən, Ona olan itaəti digər itaətlərdən üstün tutmadıqca sevməz. Əgər bunlar olmasa özünü yormağa dəyməz, geri dön və yeni nurun axtarışına çıx, çünki sən heç bir şey əldə etməmisən"* («Mədəricus-Salihin», 3/37).

2 Daim Uca Allahla bərabər (Onun himayəsində) olma şərəfi qazanar və hər əməlində Allah onu xeyirə müvvəffəq edər.

3 Uca Allah bəndəsinin duasını qəbul edər. Kim nafilə ibadətlərlə Allaha yaxınlaşarsa Onun məhhəbbətini qazanar, kim də Onun məhəbbətini qazanarsa etdiyi dua qəbul olar.

Bu 3 faydaya aşağıdakı hədis dəlalət etməkdədir:

Əbu Hureyradan Ê rəvayət edilir ki, Peyğəmbər > demişdir: *"Uca Allah buyurmuşdur: "Kim mənim dostumla düşmənçlik edərsə ona müharibə elan edərəm. Qulumun Mənə yaxınlaşmaq üçün etdiyi işlərdən Mənə ən sevimli olanı ona vacib etdiyim ibadətlərdir. Qulum nafilə ibadətləri yerinə yetirməklə Mənə o qədər yaxınlaşar ki, Mən onu sevərəm. Onu sevdiyim təqdirdə onun eşidən qulağı, görən gözü, tutan əli və yeriyən ayağı olaram. Məndən diləsə, dilədiyini verərəm, sığınacaq istəsə, ona sığınacaq verərəm. Mən görəcəyim bir işdə, ölmək istəməyən möminin canını aldıqda tərəddüd etdiyim kimi heç bir şeydə tərəddüd etmirəm. Çünki Mən ona yamanlıq etmək istəmirəm" (əl-Buxari: 6502).*

4 Nafilələr fərz ibadətlərdə olan boşluqları doldurar.

Əbu Hureyradan rəvayət edilir ki, Peyğəmbər > buyurub: *"Bəndədən Qiyamət günü soruşulacağı ilk əməl namazdır. Əgər o, qaydasında olarsa bəndə nicat tapar, yox əgər qaydasında olmazsa xüsrana uğrayar. Əgər fərz əməllərində nöqsan olarsa Uca Allah deyər: "Baxın görün bəndəmin nafilə namazları varsa onunla fərzdə buraxdığı boşluqlar tamamlansın". Sonra isə digər əməlləri də bu cür hesaba çəkiləcək" (İmam Əhməd: 9494; Əbu Davud: 864; Tirmizi: 413; əl-Albani: «Sahihul Cami», 1/405).*





# Zamanla bağlı sünnə əməllər

Gecə və gündüz vaxtları edilən sünnə əməllər 7 qismə bölünür: fəcrdən əvvəl, fəcr (sübh) vaxtı, duha vaxtı, zöhr vaxtı (gün çıxandan günortaya qədər olan zaman), əsr vaxtı, məğrib vaxtı və işa vaxtı edilən əməllər.

## Birinci: Fəcr (sübh) namazı girməmişdən öncə edilən sünnə əməllər



Bu vaxtı iki qismə bölmək olar:

### Birinci qism:

Peyğəmbərin > yuxudan oyandıqdan ta fəcrə kimi etdiyi əməllər:



### 1 Ağzı misvakla təmizləmək.

Huzeyfə ibn Yəməndən Ê rəvayət olunur: *"Peyğəmbər > gecə yuxudan oyandıqda ağzını misvakla təmizləyərdi"* *(əl-Buxari: 245).* *Müslimin rəvayində isə deyilir: "Peyğəmbər > gecə namazına qalxdıqda ağzını misvakla təmizləyərdi"* *(Müslim: 255).*

## 2 Yuxudan oyanma zikrini söyləmək.

بِاسْمِكَ اللَّهُمَّ أَمُوتُ وَ أَحْيَا

Huzeyfə ibn Yəməndən Ê rəvayət edilir ki, Peyğəmbər > yatağa girərkən deyərdi: *«**Bismikə Allahummə əmutu və əhyə**» (Allahın adı ilə ölürük və dirilirik).*

الحَمْدُ لِلَّهِ الَّذِي أَحْيَانَا بَعْدَ مَا أَمَاتَنَا وَإِلَيْهِ النُّشُورُ

*Yuxudan oyandıqda isə deyərdi: «**Əlhəmdulilləhil-ləzi əhyanə bə'də mə əmatənə və ileyhin-nuşur**» (Bizi öldükdən sonra dirildən Allaha həmd olsun, sonda dönüş Onadır) (əl-Buxari: 6324, Müslim: 2711).*

## 3 Üzdən yuxu əlamətini silmək.

## 4 Səmaya baxmaq.

## 5 Sonra Ali İmran surəsinin son on ayəsini oxumaq.

Yuxarıda qeyd olunan son üç sünnə əməl İbn Abbasdan Ê rəvayət edilmişdir: *"Bir gün o (İbn Abbas), xalası və Peyğəmbərin > zövcəsi Meymunənin evində gecələyib deyir: "Mən balışın eninə olan hissəsinə başımı qoyub uzandım. Uzununa olan hissəsinə isə Peyğəbər zövcəsi ilə başlarını qoyub yatdılar. Gecənin yarısı, yaxud gecə yarısına az qalmış, yaxud da gecə yarısından bir az sonra oyandı. Oyandıqda üzündən yuxu əlamətini sildi və Ali İmran surəsinin son on ayəsini oxudu. Sonra da gözəl şəkildə dəstəmaz alıb namaz qıldı" (əl-Buxari: 183, Müslim 763).*

Müslimin rəvayətində isə deyilir: *"Peyğəmbər > gecənin sonu oyandı, çölə çıxaraq səmaya baxıb bu ayələri oxudu: **"Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün ibrətlər vardır…" (Ali İmran: 190).***

*"Oyandıqda üzündən yuxu əlamətini sildi…"*, yəni əlləri ilə gözlərini sildi.

### 6 Yuxudan qalxdıqda əlləri üç dəfə yumaq.

Əbu Hureyradan rəvayət edilən hədisdə Peyğəmbər > dedi: *"Sizdən biriniz yuxudan oyandıqda əllərini üç dəfə yumamış su qabına salmasın. Həqiqətən o, əlinin gecə harada olduğunu bimir"* *(əl-Buxari: 162; Müslim: 278).*

### 7 Ağız və burnu üç dəfə yumaq.

Əbu Hureyra rəvayət edir ki, Peyğəmbər > demişdir: *"Biriniz yuxudan oyandığı zaman üç dəfə burnuna su alıb çıxarsın. Çünki şeytan burun boşluğunda gecələyir"* *(Müslim: 238).*

Digər rəvayətdə isə deyilir: *"Biriniz yuxudan oyanıb dəstəmaz aldıqda burnunu üç dəfə yusun…"* *(əl-Buxari: 3295).*

### 8 Dəstəmaz almaq.

Az öncə qeyd etdiyimiz İbn Abbasın Ê rəvayət etdiyi hədisdə deyilir: *"Peyğəmbər > namaz qılmaq istədikdə asılı vəziyyətdə olan su qabına yaxınlaşıb dəstəmaz aldı."*

## Dəstəmazın sünnələri



Burada dəstəmazın bəzi sünnələrini qeyd etməyimiz yerinə düşər:

### 1 Misvakdan istifadə etmək.



Misvakı ya dəstəmazdan əvvəl, ya da ağzı yaxalamamışdan əvvəl istifadə etmək sünnədir. Əbu Hureyradan Ê rəvayət edilir ki, Peyğəmbər > dedi: *"Əgər ümmətimə məşəqqət olmasaydı, onlara əmr edərdim ki, hər dəfə dəstəmaz alarkən (dişlərini) misvakla təmizləsinlər"* *(İmam Əhməd: 9928; İbn Xuzeymə: 1/73/140; Hakim: 1/245).*

Möminlərin anası Aişədən á rəvayət edilir: *"Biz Peyğəmbərə > misvak və dəstəmaz suyunu (əvvəlcədən) hazırlayardıq. Allah gecə istədiyi vaxt onu oyadar, o da qalxıb misvaklanar, dəstəmaz alar və namaz qılardı…"* *(Müslim: 746).*

### 2 Dəstəmaza başlayarkən *"Bəsmələ"* gətirmək.

Əbu Hureyradan Ê rəvayət edilən hədisdə deyilir: *"Dəstəmazı olmayanın namazı yoxdur. Habelə Allahın adını çəkməyənin («**Bismilləh**» deməyənin) dəstəmazı yoxdur"* *(İmam Əhməd: 11371; Əbu Davud: 101; İbn Macə: 397).*



### 3 Əlləri üç dəfə yumaq.

Osmanın Ê Peyğəmbərin > dəstəmazını vəsf etdiyi hədisdə onun dəstəmazdan əvvəl əllərini üç dəfə yuduğunu rəvayət edir. *(əl-Buxari: 164; Müslim: 226)*



### 4 Sağ əzaları soldan öncə yumaq.

Rəvayət edilir ki, Aişə á demişdir: "Peyğəmbər > *ayaqqabısını geyinərkən, saçını darayarkən, ümumiyyətlə bütün işlərində sağdan başlamağı sevərdi"* *(əl-Buxari: 168; Müslim: 268).*

### 5 Dəstəmaza *"madmada"* (ağıza su alıb yaxalamaq) və *"istinşaq"* (burna suyu çəkib çölə nəfəs verərək çıxarmaq) başlamaq.

Osmanın Ê Peyğəmbərin > dəstəmazını vəsf etdiyi hədisdə onun dəstəmaza ağzını və burnunun içini yumaqla başlayıb sonra üzünü üç dəfə yuduğu deyilir *(əl-Buxari: 164; Müslim: 226).*

Həmin əzaları üzdən sonra yumaq da icazəlidir.

**6 Dəstəmazda (oruclu olandan başqa) *madmada* və *istinşaq* edərkən suyu dərinə çəkmək.**



Ləqit ibn Sabiradan Ê rəvayət edilir ki, Peyğəmbər > ona dedi: *"Dəstəmazı tam şəkildə al, barmaqlarının arasını da yu və oruc deyilsənsə burnuna suyu dərindən çək"* *(Əhməd: 17846; Əbu Davud: 142; İbn Həcər hədisi "səhih" hesab etmişdir: «əl-İsabə», 9/15).*

**7 Madmada və istinşaqı bir ovuc su ilə eyni anda etmək .**



Abdullah ibn Zeyd Peyğəmbərin > dəstəmazını vəsf edərək rəvayət edir: *"...Bir əlini su qabına salaraq su aldı, həmin əldən madmada və istinşaqı etdi və bunu üç dəfə təkrarladı..."* *(əl-Buxari: 192; Müslim: 235).*

**8 Başa məshi sünnədə varid olan formada etmək.**



Başa məsh çəkməyin qaydası: Əllər isladılıb başın ön – tük çıxan hissəsindən başlayaraq başın arxa hissənə qədər hərəkət etdirilir, sonra isə geri – ön hissəsinə qaytarılır. Qadınların məsh etməsi də eyni formada olur. Lakin boynundan aşağı uzanan saçlarına məsh çəkmələrinə ehtiyac yoxdur.

Abdullah ibn Zeyd Peyğəmbərin > dəstəmazını vəsf edərək rəvayət edir: *"...Əllərini başının ön – tük çıxan hissəsindən başlayaraq başının arxa hissinə qədər hərəkət etdirdi, sonra geri – başladığı hissəsinə qaytardı"* *(əl-Buxari:185; Müslim: 235).*

### 9 Əzaları üç dəfə yumaq.

Dəstəmaz alarkən əzaları bir dəfə yumaq vacib, ikinci və ya üçüncü dəfə yumaq isə sünnədir. Lakin üçdən artıq sayda edilmir.

Rəvayət edilir ki, İbn Abbas È demişdir: *"Peyğəmbər > dəstəmazda əzalarını bir dəfə yudu"* *(əl-Buxari: 157)*. Abullah ibn Zeyddən Ê rəvayət edilən hədisdə isə Peyğəmbərin > dəstəmazda əzalarını iki dəfə yuduğu deyilir *(əl-Buxari: 158)*. Osman ibn Əffandan Ê rəvayət edilən hədisdə isə Peyğəmbərin > dəstəmazda əzalarını üç dəfə yuduğu nəql edilir *(əl-Buxari: 159)*. Buna görə əzaları bəzən bir, bəzən iki, bəzən də üç dəfə yumaq daha yaxşıdır. Habelə, hərdən də iki səhih hədisdə Abdullah ibn Zeydin rəvayət etdiyi kimi müxtəlif əzaları müxtəlif sayda yumaq sünnədir. Misal olaraq üz üç dəfə, əllər iki dəfə, ayaqlar isə bir dəfə yuyulur *(Bax: «Zadul-Məad», 1/192)*.

Lakin Peyğəmbərin > sünnəsinə uyğun olaraq kamillik üçün əzaları əksər vaxtı üç dəfə yumaq daha əfzəldir.

### 10 Dəstəmazdan sonra dua etmək.

أَشْهَدُ أَنَّ لاَ إِلَهَ إِلاَّ اللهُ ، وَأَنَّ مُحَمَّداً عَبْدُ اللهِ وَرَسُولُهُ

Ömər Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *"Sizdən biriniz tam və kamil şəkildə dəstəmaz alıb: "Əşhədu ən lə iləhə illəllah, va əşhədu ənnə Muhəmmədən abdullahi va rasuluhu" (Şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq məbud yoxdur, Muhəmməd də onun qulu və elçisidir) – deyərsə Cənnətin səkkiz qapısı onun üzünə açılar, o da istədiyi qapıdan ora daxil olar* (Müslim: 234).

سُبْحَانَكَ اللَّهُمَّ وَبِحَمْدِكَ، أَشْهَدُ أَنْ لا إِلَهَ إِلاَّ أَنْتَ، أَسْتَغْفِرُكَ وأَتُوبُ إِلَيْكَ

Əbu Səid Ê Peyğəmbərdən > rəvayət edir: *"Kim dəstəmaz aldıqdan sonra **"Subhənəkəllahummə va bihəmdikə, əşhədu əllə iləhə illə əntə, əstəğfirukə va ətubu ileykə"** (Allahım, Sən pak və nöqsansızsan, həmdə layiq Sənsən. Şəhadət edirəm ki, Səndən başqa ibadətə layiq məbud yoxdur. Səndən bağışlanma diləyirəm və Sənə tövbə edirəm) sözlərini deyərsə Allah onun bu kəlmələrinə möhür vurar və sonra o, ərşin altına yüksəldilər və Qiyamətə kimi açılmaz"* *(ən-Nəsai: Gecə və gündüz əməlləri kitabı, səh.147; əl-Hakim: 1/752)*. Həmçinin ibni Həcər hədisin isnadının *"səhih"* hesab etmiş və bəyan etmişdir ki, hədis Peyğəmbərdən deyil, səhabənin öz kəlamı kimi sabit olmuşdur *(Bax: «Nətəicul əfkar», 1/246)*.





**<u>İkinci qisim:</u> Vitr və təhəccüd (gecə) namazı ilə əlaqəli sünnə əməllər:**

**1 Gecə namazını əfzəl vaxtı qılmaq.**

**Sual: Gecə namazı üçün əfzəl vaxt nə zamandır?**

Cavab: Vitr və ya gecə namazının vaxtı işadan sonra başlayıb sübh namazına qədər davam edir.

Rəvayət edilir ki, Aişə á demişdir: *"Peyğəmbər > işa və fəcr namazları arasında on bir rükət namaz qılardı, hər iki rükətdən sonra salam verərdi və axırda namazını bir rükətlə tamamlayardı (əl-Buxari: 2031; Müslim: 736).*

### Gecə namazı üçün fəzilətli zaman gecə yarısından sonrakı üçdə bir hissədir.

Buna dəlil olaraq Abdullah ibn Ömərdən È rəvayət edilən hədisdə Allahın elçisi > buyurub: *"Allah üçün ən sevimli oruc Davudun ÷ tutduğu orucdur. Allah üçün ən sevimli namaz da Davudun ÷ qıldığı namazdır. O, gecənin yarısını yatar, son üçdə birində qalxıb namaz qılar və altıda birində yenidən yatardı. Həmçinin, o, günaşırı oruc tutardı"* *(əl-Buxari: 3420; Müslim: 1159).*

### Sual: Bu sünnəni tətbiq etmək üçün hesab necə aparılmalıdır?

Günəş batandan dan yeri sökülənə qədər zaman vaxtı hesablanaraq altı yerə bölünür. İlk üç hissə gecənin birinci yarısı, sonrakı üç hissə isə gecənin digər yarısı hesab edilir. Gecə namazı üçün də fəzilətli vaxt gecə yarısından sonra başlayır. Yəni gecənin dörddə və beşdə biri namaza qalxılır. Həmin zaman vaxtı gecənin son üçdə biri hesab edilir. Sonra da ən son hissəsində – altıda biri yatılır. Rəvayət edilir ki, Aişə á demişdir: *"Peyğəmbər > mənim yanımda gecələyəndə heç vaxt sübhü oyaq olaraq qarşılamazdı"* *(əl-Buxari: 1133; Müslim: 742).*

Beləcə, müsəlman gecə namazını daha fəzilətli vaxtda qılmış olur. Çünki Abdullah ibn Amrın Ê rəvayət etdiyi hədis də buna dəlalət etməkdədir.

### Xülasə olaraq gecə namazının fəzilətli vaxtı dərəcə etibarı ilə 3-ə bölünür:

**Birinci dərəcə:** Yuxarıda qeyd olunduğu kimi gecənin Altı hissənin ilk üç hissəsində yatılır, dörd və beşinci hissələrində ibadət edilir, nəhayət altıncı hissəsi yenidən yatılır.

Buna dəlil olaraq az öncə qeyd etdiyimiz Abdullah bin Amrın hədisini misal çəkmək olar.

**İkinci dərəcə:** Gecənin digər üçdə birinə qalxılır.

Əbu Hureyra Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *"Ulu və uca Rəbbimiz hər gecənin son üçdə birində dünya səmasına enir və buyurur: "Mənə dua edən varmı, duasına cavab verim?! Məndən istəyən varmı, ona istədiyini verim?! Məndən bağışlanma diləyən varmı, onu bağışlayım?!"* *(əl-Buxari: 1145; Müslim: 758).* Həmçinin, irəlidə qeyd edilmiş Cabirin Ê rəvayət etdiyi hədis də buna misaldır.

Əgər kimsə gecə dura bilməyəcəyindən ehtiyat edərsə onda namazı ya gecənin əvvəli və ya ona rahat olan bir hissəsində qılsın. Bu da üçüncü dərəcə hesab edilir.

**Üçüncü dərəcə:** Gecənin əvvəli və ya gecənin hər hansı bir vaxtında qılınır.

Cabir bin Abdullahdan Ê rəvayət edilir ki, Peyğəmbər > demişdir: *"Kim gecə dura bilməyəcəyindən ehtiyat edərsə vitri gecənin əvvəli qılsın. Kim isə dura biləcəksə o, gecənin sonu qılsın, çünki həmən vaxtı qılınan namaza şahidlik edilər (mələklər iştirak edər). Elə fəzilətlisi də budur" (Müslim: 755).*

Həmçinin, Peyğəmbərin > Əbu Zərə, Əbu Dərdaya və Əbu Hureyraya *(Allah onlardan razı olsun)* hər birinə ayrılıqda etdiyi vəsiyyətində deyilir: *"Dostum mənə üç şeyi vəsiyyət etdi. Onlardan biri yatmazdan əvvəl vitri qılmaq idi" (ən-Nəsai: «Sünənil-kubra», 2712; əl-Albani: «Əs-sahiha», 2166; Əhməd: 27481; Əbu Davud: 1433; Müslim: 737).*

## 2 Gecə namazını on bir rükət qılmaq.

Aişədən á rəvayət edilir: *"Peyğəmbər > nə Ramazanda, nə də qeyri aylarda on bir rükətdən artıq namaz qılmazdı" (əl-Buxari: 1147; Müslim: 738).*

Həmçinin, Aişədən Peyğəmbərin > on üç rükət qıldığı da varid olmuşdur.

Deməli vitri ara-sıra rükətlərinin sayını dəyişdirərək qılmaq sünnədir. Lakin Peyğəmbər > əksər hallarda vitri on bir, bəzən isə on üç rükət qılardı. Bununla da iki hədisi cəm edərək hər ikisinə riayət etmiş oluruq.

## 3 Gecə namazının ilk iki rükətini qısa tutmaq

Aişədən á rəvayət edilir: *"Peyğəmbər > gecə namazına iki qısa rükətlə başlayardı" (Müslim: 767).*



### 4 Gecə namazına varid olan *"İstiftəh"* (açılış) dualarından birini deməklə başlamaq:

1 اللَّهُمَّ رَبَّ جَبْرَائِيلَ وَمِيكَائِيلَ وَإِسْرَافِيلَ فَاطِرَ السَّمَاوَاتِ وَالأَرْضِ، عَالِمَ الْغَيْبِ وَالشَّهَادَةِ، أَنْتَ تَحْكُمُ بَيْنَ عِبَادِكَ فِيمَا كَانُوا فِيهِ يَخْتَلِفُونَ، اهْدِنِي لِمَا اخْتُلِفَ فِيهِ مِنَ الْحَقِّ بِإِذْنِكَ إِنَّكَ تَهْدِي مَنْ تَشَاءُ إِلَى صِرَاطٍ مُسْتَقِيمٍ

Aişədən á rəvayət edilir ki, Peyğəmbər > gecə namazına qalxdıqda istiftəh (açılış) duasında deyərdi: *«**Allahummə Rabbə Cəbrail və Mikail va İsrafil, fatiras-səməvati vəl-ard, Aliməl-ğaybi vəş-şəhədəti, əntə təhkum beynə ibədikə fimə kənu fihi yəxtəlifun. İhdini liməxtulifə fihi minəl-həqqi bi iznikə innəkə təhdi mən təşəu ilə sıratin mustəqim**» (Cəbrailin, Mikailin və İsrafilin Rəbbi, göyləri və yeri yaradan, qeybdə və aşkarda olanı bilən Allahım! İxtilafda olduqları şeylər barəsində bəndələrin arasında Sən hökm verirsən. Baş vermiş ixtilafda məni Öz izninlə haqqa yönəlt! Həqiqətən, Sən istədiyini doğru yola yönəldənsən) (Müslim: 770).*

2 اللَّهُمَّ لَكَ الْحَمْدُ أَنْتَ نُورُ السَّمَوَاتِ وَالْأَرْضِ، وَلَكَ الْحَمْدُ أَنْتَ قَيِّمُ السَّمَوَاتِ وَالْأَرْضِ، وَلَكَ الْحَمْدُ أَنْتَ رَبُّ السَّمَوَاتِ وَالْأَرْضِ وَمَنْ فِيهِنَّ، أَنْتَ الْحَقُّ، وَوَعْدُكَ الْحَقُّ، وَقَوْلُكَ الْحَقُّ، وَلِقَاؤُكَ الْحَقُّ، وَالْجَنَّةُ حَقٌّ، وَالنَّارُ حَقٌّ، وَالنَّبِيُّونَ حَقٌّ، وَالسَّاعَةُ حَقٌّ، اللَّهُمَّ لَكَ أَسْلَمْتُ، وَبِكَ آمَنْتُ، وَعَلَيْكَ تَوَكَّلْتُ، وَإِلَيْكَ أَنَبْتُ، وَبِكَ خَاصَمْتُ، وَإِلَيْكَ حَاكَمْتُ، فَاغْفِرْ لِي مَا قَدَّمْتُ، وَمَا أَخَّرْتُ وَمَا أَسْرَرْتُ وَمَا أَعْلَنْتُ أَنْتَ إِلَهِي لَا إِلَهَ إِلَّا أَنْتَ

Rəvayət edilir ki, İbn Abbas Ê demişdir: *"Peyğəmbər > təhəccüd namazına qalxdıqda deyərdi: «**Allahummə ləkəl-həmdu əntə nurus-səmavati vəl-ard, və ləkəl-həmdu əntə qayyimus-səmavati vəl-ard, və ləkəl-həmdu əntə Rəbbus-səmavati vəl-ardi və mən fihinnə, əntəl-həqq və va'dukəl-həqq və qaulukəl-həqq və liqaukəl-həqq, vəl-Cənnətu həqq, vən-Nəru həqq, vən-nəbiyyunə həqq, vəs-səatu həqq, Allahummə ləkə əsləmtu və bikə aməntu, və aleykə təvakkəltu, və ileykə ənəbtu, bikə xasəmtu, ileykə həkəmtu, fəğfir li mə qaddəmtu və mə əxxartu və mə əsrartu və mə ə'aləntu, əntə iləhi lə iləhə illə ənt**» (Allahım! Həmd Sənədir.Sən göylərin və yerin nurusan. Həmd sənədir. Sən göylərin və yerin Hamisisən. Həmd sənədir. Sən göylərin və*

*yerin və onlarda olanların Rəbbisən. Sən Haqsan. Verdiyin vəd haqdır. Dediyin söz haqdır. Cənnət haqdır. Cəhənnəm haqdır. Peyğəmbərlər haqdır. Allahım! Sənə təslim oldum, Sənə iman gətirdim, Sənə təvəkkül etdim, tövbə edib Sənə döndüm, Sənin uğrunda mübarizə apardım və Sənin hökmünə üz tutdum. Əvvəl etdiyim, sonra edəcəyim, gizli saxladığım və üzə çıxardığım (pis) əməllərimi bağışla! Mənim ilahım yalnız Sənsən. Səndən başqa haqq məbud yoxdur!)* (əl-Buxari: 7499; Müslim: 768).

**5 Gecə namazında qıyamı, rükunu, səcdəni eyni miqdarda uzatmaq.**

**6 Gecə namazı qiraətinə aid sünnələr:**

1. Aramla oxumaq.
2. Ayələri bir-birinə birləşdirmədən oxumaq, yəni hər ayənin sonunda vəqf (fasilə) etmək.
3. Təsbih ayələrini oxuduqda təsbih gətirmək, dua ayələrini oxuduqda dua etmək, sığınma ayələrini oxuduqda Allahdan sığınma diləmək.

سُبْحَانَ رَبِّيَ الْعَظِيمِ – سَمِعَ اللهُ لِمَنْ حَمِدَهُ – سُبْحَانَ رَبِّيَ الأَعْلَى

Huzeyfə ibn Yəmən Ê rəvayət edir: *"Gecələrin biri Peyğəmbərlə > namaz qıldım. O >, namaza Bəqərə surəsi ilə başladı. Dedim yəqin yüz ayə oxuyub rüku edəcək?! Amma o davam etdi. Dedim yəqin surəni bitirdikdən sonra rüku edəcək?! Amma o yenə də davam etdi. Sonra Nisa, sonra isə Ali İmran surələrini oxudu. Qiraəti aram-aram idi. Təsbih ayələrinə çatanda təsbih gətirər, dua-dilək ayələrinə çatdıqda isə dua edərdi, sığınma ayələrinə gələndə isə Allaha sığınardı. Bunlardan sonra rükuya gedib «Subhənə Rabbiyəl-Azım» deməyə başladı. Rükusu da qiyamı qədər uzun oldu. Sonra «Səmi Allahu limən həmidəh» deyib rüku qədər də ayaqüstə dayandı. Sonra səcdəyə getdi və «Subhənə Rabbiyəl-Alə» dedi. Səcdəsi də təxmini qiyamda (ayaqüstə) dayandığı qədər çəkdi"* (Müslim: 772).

İmam Əhmədin / ''Müsnəd'' əsərində rəvayət olunur ki, Ummu Sələmədən á Peyğəmbərin > gecə namazı haqda soruşduqda dedi: *"Quranı ayə-ayə oxuyardı. Hər ayənin sonunda fasilə edərdi: **«Bismilləhir-Rahmanir-Rahim»** – (oxuyub fasilə edərdi), **«Əlhəmdu lilləhi rabbil-aləmin»** – (oxuyub fasilə edərdi), **«Ər-Rahmənir-Rahim»** – (oxuyub fasilə edərdi), **«Məliki yəumiddin»*** *(Əhməd: 26583; Daraqutni: 118; İmam Nəvəvi: 3/333).*

## 7 Gecə namazlarını iki rükət-iki rükət qılmaq.



İbn Ömərdən Ê rəvayət edilir: *"Bir kişi ayağa qalxaraq Peyğəmbərdən > soruşdu: "Ey Allahın elçisi, gecə namazı necə qılınır?" Peyğəmbər > dedi: "Gecə namazı iki-iki qılnır. Əgər sübh namazının girməyindən narahat olsan, namazı tək rükətlə (vitrlə) tamamla"* *(əl-Buxari: 990; Müslim: 749).*

*"...iki-iki qılınır"* ifadəsi hər iki rükətdən sonra salam verməyə dəlalət edir. Yəni dörd rükət bir salamla qılınmır.

## 8 Son üç rükətdə (yəni vitrdə) müəyyən surələri oxumaq.

Vitr namazının birinci rükətində əl-A'lə, ikinci rükətində əl-Kafirun, üçüncü rükətində isə əl-İxlas surəsini oxumaq sünnədir.

Rəvayət edilir ki, Ubey bin Kə'b Ê demişdir: *"Peyğəmbər > vitr namazında **«Səbbih ismi Rabbikəl-Alə»**, **«Qul yə eyyuhəl-kafirun»** və **«Qul huvallahu Əhəd»** surələrini oxuyardı"* *(Əbu Davud: 1423; ən-Nəsai: 1733; İbn Macə: 1171; ən-Nəvəvi: «əl-Xülasə», 1/556; əl-Albani: «Sahihun-Nəsai», 1/273).*

Fəcrdən əvvəlki sünnələr

## 9 Vitrdə bəzən qunut tutmaq.



Qunutda məqsəd duadır. Vitr namazında qunut üçüncü – əl-İxlas surəsi oxunan rükətdə tutulur.

Qunutu hərdən tutub hərdən tərk etməsi bəzi səhabələrdən rəvayət edilmişdir. Şeyxülislam İbn Teymiyyə də bu görüşə üstünlük vermişdir. Lakin əksər hallarda onu tərk etmək daha yaxşıdır.

### Sual: Qunutda dua edilərkən əllər qaldırılırmı?

**Cavab:** Daha doğru rəy əlləri qaldırmaqdır. Həmçinin alimlərin əksəriyyəti də bu rəyi dəstəkləmişlər. Beyhəqinin / "səhih" dərəcəsinə qaldırdığı Ömərin Ê rəvayəti də buna dəlildir.

Beyhəqi / söyləmişdir: "*Bir çox səhabə qunutda əllərini qaldırıblar*" *(Bax: «Sünən əl-Kubra», 2/211).*

### Sual: Qunuta hansı dua ilə başlanılır?

**Cavab:** Üstünlük verdiyimiz rəy odur ki, qunuta Allaha həmd-səna deməklə başlanılır, sonra Peyğəmbərə > salavat gətirilir, sonra isə dua edilir. Çünki duanın qəbul olunması üçün bu cür etmək daha məqsədə uyğundur. Doğrusun Allah bilir.

Rəvayət edilir ki, Fədalə ibn Ubeyd Ê demişdir: *"Peyğəmbər > bir kişinin Peyğəmbərə salavat gətirmədən dua etdiyini eşitdi və ona dedi: "O, dua etməkdə tələsdi". Sonra həmin adamı çağırıb ona və digərlərinə dedi: "Sizdən biriniz dua etmək istədiyi zaman əvvəl Allaha həmd-səna etsin, sonra Peyğəmbərə salavat desin, daha sonra isə istədiyi qədər dua etsin"* *(ət-Tirmizi hədisi "həsən-səhih" hesab etmişdir: 3477).*

İbn Qeyyim / söyləmişdir: *"Fədalə bin Ubeydin rəvayətində olduğu kimi, dua edənin duasına Allaha həmd-səna ilə başlayıb sonra ehtiyacını istəməsi müstəhəbdir"* *(Bax: əl-Vabil əs-Sayyib, səh.110).*

### Sual: Qunut duasından sonra əllər üzə çəkilirmi?

**Cavab:** Bu əmələ dəlil olmadığı üçün duadan sonra əlləri üzə çəkmək sünnədən deyildir.

İmam Malikdən / duadan sonra əllərin içini üzünə çəkən adam haqda soruşduqda dedi: *''Bu haqda bir şey varid olduğunu bilmirəm''* *(Bax: Mərvazi, «Kitabul-vitr», səh.326).*

Şeyxülislam İbn Teymiyyə söyləmişdir: *''Əlləri üzə çəkmək məsələsinə qaldıqda isə bu haqda vur-tut bir, ya da iki hədis olar. Onlar da bu əmələ hüccət (dəlil) deyildir''* (Bax: əl-Fətava, 22/519).

### 10 Gecənin son üçdə biri dua etmək.



Gecənin sonu dua etmək sünnə əməldir. Qunutda dua etsə bu sünnəyə əməl etmiş sayılır. Əgər qunutda dua edilməsə adi halda da dua edilməsi sünnədir, çünki həmin vaxt duaların qəbul olan vaxtıdır, həmçinin, Uca Allahın Özünə layiq şəkildə dünya səmasına endiyi məqamdır. ''Əs-səhiheyn''də də Əbu Hureyradan Ê rəvayət edilir ki, Peyğəmbərimiz > demişdir: *''Ulu və uca Rəbbimiz hər gecənin son üçdə birində dünya səmasına enər və deyər: ''Mənə dua edən varmı, duasına cavab verim?! Məndən istəyən varmı, ona istədiyini verim?! Məndən bağışlanma diləyən varmı, onu bağışlayım?!''* (əl-Buxari: 1145; Müslim: 758).

### 11 Vitr namazını qılıb bitirdikdən sonra üç dəfə *''Subhanəl-Məlikil-Quddus''* demək və üçüncüdə səsi qaldırmaq.

Rəvayət edilir ki, Ubey bin Kə'b Ê demişdir: *''Peyğəmbər > vitr namazında **«Səbbih ismə Rabbikəl-Alə»**, **«Qul yə eyyuhəl-kafirun»** və **«Qul huvallahu Əhəd»** surələrini oxuyardı. (Namazı bitirib) salam verdikdən sonra isə üç dəfə **«Subhanəl-Məlikil-Quddus»** deyərdi''* *(ən-Nəsai: 1702; ən-Nəvəvi və əl-Albani hədisi ''səhih'' hesab etmişlər).*

Fəcrdən əvvəlki sünnələr

Əbdürrəhman ibn Əbzənin Ê rəvayətində isə deyilir: ***«Subhənəl-Məlikil-Quddus»*** *deyərdi və üçüncüsünü uca səslə uzadardı"* *(Əhməd: 15354; ən-Nəsai: 1734. əl-Albani hədisi "səhih" hesab etmişdir: «Təhqiqu Müşkatil-Məsabih», 1/398).*

### 12 Gecə namazına ev əhlini oyatmaq.

Ər və arvadın bir-birilərini, həmçinin digər ailə üzvlərini gecə namızına oyatmaları sünnədir. Çünki xeyir işlərdə yardımlaşmaq dinimizdə xoş görülən əməllərdəndir.

Rəvayət edilir ki, Aişə á demişdir: "Peyğəmbər > *bütün gecəni namaz qılardı, mən də onunla qiblə arasında uzanardım. Vitr namazını qılmağa başladıqda isə məni də oyadar, mən də qalxıb vitri qılardım"* *(əl-Buxari: 512; Müslim: 512).*

Ummi Sələmədən á rəvayət edilir ki, bir dəfə Peyğəmbər > gecə oyandı və dedi: *"SubhanəAllah! Xəzinələrdən (Allahın dərgahından) nələr endi?! Fitnələrdən nələr endi?! Ev sakinlərini (zövcələrini) namaza kim oyadar?! Dünyada geyimli olan (naz-nemətlərdən faydalanan) qadın, axirətdə isə lüt (əzaba düçar) ola bilər!"* *(əl-Buxari: 6218).*

### 13 Gecə namazını özünə rahat olan şəkildə qılmaq. Çünki bu mütiliyə təsir edən amillərdəndir.

**Habelə əzginlik halında olan insan oturaq halda namaz qılması daha yaxşıdır.**

Rəvayət edilir ki, Ənəs ibn Malik Ê demişdir: *"(Bir dəfə) Peyğəmbər > məscidə daxil olub iki dirək arasına bərkidilmiş bir ip gördü və soruşdu: "Bu nədir?" (Oradakılar) dedilər: "Bu, Zeynəbin ipidir, (namaz qılıb) yorulduqda, ya da əzgin olduqda bu ipdən tutub namazına davam edir". O dedi: "Açın onu! Biriniz özünü gümrah hiss etdikcə namazını (ayaq üstə) qılsın, yorğun, ya da əzgin olduqda isə oturaq halda qılsın"* *(əl-Buxari: 1150; Müslim: 784).*

**Yuxusu gələn insan yatıb yuxusunu aldıqdan sonra gümrah halda qalxıb namazını qılmalıdır.**

Aişə á rəvayət edir ki, Peyğəmbər > buyurdu: *“Sizdən birinizin namazda yuxusu gələrsə qoy gedib yuxusunu alsın. Çünki bu halda namaz qılan bağışlanma diləmək əvəzinə özünü söyə bilər” (əl-Buxari: 212; Müslim: 786).*

**Həmçinin gecə Quran oxuduqda yuxusu gələn insan yatıb yuxusunu alması sünnədir.**

Əbu Hureyra Ê rəvayət edir ki, Peyğəmbər > dedi: *“Sizlərdən kimsə gecə qalxıb namaz qıldıqda Quran dilinə ağır gələrsə və nə dediyini bilməzsə, qoy gedib yuxusunu alsın” (Müslim: 787).*

## 14 Gecə namazını qıla bilməyən onun əvəzinə səhər vaxtı cüt şəkildə namaz qılır.

Məsələn, vitr namazını üç rükət qılmağa adət edən bir kəs xəstəlik, yuxuya getmək və ya hər hansı bir başqa səbəbdən namazı qılmazsa onun yerinə səhər vaxtı dörd rükət qılır. Həmçinin, beş rükət vitr qılan şəxs müəyyən səbəbdən qıla bilməzsə səhər vaxtı altı rükət qılır. Peyğəmbərin > də adəti vitri on bir rükət qılmaq idi. Aişədən á rəvayət olunur: *“Peyğəmbər > yatıb qaldıqda və ya ağradıqda səhər vaxtı on iki rükət qılardı” (Müslim: 746).*

# İkinci: Fəcr vaxtı edilən sünnə əməllər



Bu vaxtı Peyğəmbərin > sünnəsindən bir çox əməllər vardır:

## Azan və onun sünnələri:

### 1 Müəzzinin dediklərini təkrar etmək.

لا حول ولا قوة إلا بالله

Azan vaxtı müəzzinin dediklərini təkrar etmək sünnədir. Yalnız müəzzin ***«Həyyə ələs-saləh»*** *(Namaza tələsin!)* və ***«Həyyə ələl-fələh»*** *(Nicat tapmağa tələsin!)* dedikdə ***«Lə həulə və lə quvvətə illə billəh»*** *(Qüdrət və güc yalnız Allahındır)* ifadəsi deyilir.

Abdullah ibn Amr È Peyğəmbərin > belə dediyini eşitdi: *"Əgər müəzzini eşidirsinizsə onun dediklərini təkrarlayın"* (Müslim: 385). Ömər *bin əl-Xəttabdan* Ê *rəvayət edilir ki, Peyğəmbər > buyurub: "Əgər müəzzin «Allahu Əkbər», «Allahu Əkbər» dedikdə sizdən biri də səmimi qəlbdən «Allahu Əkbər», «Allahu Əkbər» desə, sonra «Əşhədu əllə iləhə illəllah» dedikdə o da «Əşhədu əllə iləhə illəllah» desə, sonra «Əşhədu ənnə Muhəmmədən Rasulullah» dedikdə o da «Əşhədu ənnə Muhəmmədən Rasulullah» desə, sonra «Həyyə ələs-saləh» dedikdə o*

*da «Lə həulə və lə quvvətə illə billəh» desə, sonra «Həyyə alal-fələh» dedikdə o da «Lə həulə və lə quvvətə illə billəh» desə, sonra «Allahu Əkbər», «Allahu Əkbər» dedikdə o da «Allahu Əkbər», «Allahu Əkbər» desə, sonra «Lə iləhə illəllah» dedikdə o da «Lə iləhə illəllah» desə cənnətə girər"* (Müslim 385).

الصلاة خير من النوم

Fəcr azanında isə müəzzin *«Əs-salətu xeyrum-minən-nəum»* (Namaz yuxudan xeyirlidir) dedikdə eyni sözlər təkrarlanır.

## 2 İki şəhadətdən sonra zikr etmək.

أَشْهَدُ أَنْ لاَ إِلهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، وَأَنَّ مُحَمَّداً عَبْدُهُ وَرَسُولُهُ، رَضِيتُ بِاللهِ رَبّاً، وَبِمُحَمَّدٍ رَسُولاً، وَبِالإِسْلاَمِ دِيناً

Müəzzin ikinci *«Əşhədu ənnə Muhəmmədən Rasulullah»* ifadəsini dedikdən sonra Sa'd ibn Əbu Vəqqasdan Ê rəvayət olunan zikri demək sünnədir. Peyğəmbər > buyurub: *"Kim ki, müəzzini eşitdikdə «Əşhədu əllə iləhə illəllahu vəhdəhu lə şərikə ləhu və ənnə Muhəmmədən abduhu və rasuluhu, radıtu billəhi Rabbən və bi Muhəmmədin rasulən və bil-isləmi dinən" deyərsə keçmiş günahları bağışlanar"* (Muslim: 386).

## 3 Azandan sonra Peyğəmbərə > salavat demək.

Abdullah ibn Amr È rəvayət edir ki, Peyğəmbər > dedi: *"Azanı eşidərkən müəzzinin dediklərini təkrar edin. Sonra isə mənə salavat gətirin, çünki sizdən biriniz mənə bir salavat gətirsə, Uca Allah da ona on salavat gətirər. Sonra Allahdan mənim üçün vasitəçilik haqqı istəyin, çünki o Cənnətdə yalnız Allahın bəndələrindən birinə verilən bir məqamdır. Mən də Allahdan həmən bəndə olmağımı istəyirəm. Kim mənim vasitəçiliyimi diləyərsə şəfaətim ona çatar"* (Müslim: 384).

اللهم صلِّ على محمد وعلى آل محمد ، كما صليت على إبراهيم ...

Bu məqamda ən üstün salavatı – *İbrahim salavatını qeyd etməyimiz yerinə düşər:* ***«Allahummə salli alə Muhəmmədin və alə ali Muhəmməd, kəmə salleytə alə İbrahimə və alə ali İbrahim, innəkə həmidun məcid. Allahummə barik alə Muhəmmədin və alə ali Muhəmməd, kəmə barəktə alə İbrahimə və alə ali İbrahim, innəkə həmidun məcid»***

*(Allahım! İbrahimə və İbrahimin ailəsinə xeyir-dua verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə xeyir ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən! Allahım! İbrahimə və İbrahimin ailəsinə bərəkət verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə xeyir ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən!)*

## 4 Azandan sonra dua etmək.

اللَّهُمَّ رَبَّ هَذِهِ الدَّعْوَةِ التَّامَّةِ، وَالصَّلَاةِ الْقَائِمَةِ ، آتِ مُحَمَّدًا الْوَسِيلَةَ وَالْفَضِيلَةَ ، وَابْعَثْهُ مَقَامًا مَحْمُودًا الَّذِي وَعَدْتَهُ

Cabir ibn Abdullah rəvayət edir ki, o, Allahın elçisinin > belə dediyini eşitdi: *"Hər kim azanı eşitdikdə "Allahummə Rabbə həzihid-dəvətit-təmmə vəs-salətil qaimə əti Muhəmmədən əl-vəsilətə vəl-fadılətə, vəbashu məqamən məhmudənilləzi vaadtəhu" (Bu tam dəvətin və qılınacaq namazın Rəbbi olan Allahım! Muhəmmədə vasitəçilik haqqı və fəzilət ver. Onu vəd etdiyin təriflənən məqama çatdır!) – desə mənim şəfaətimə qovuşar"* (əl-Buxari: 614).

## 5 Azan və iqamə arasında dua etmək.



Abdullah ibn Amrdan È rəvayət edilir ki, bir kişi dedi: *"Ey Allahın elşisi, müəzzinlər fəzilətdə bizi üstələdilər!" Allahın elçisi buyurdu: "Onların dediyini təkrar edib (Allahdan) istə və bitirdikdən sonra dua et ki, sənə də (həmin savab) verilsin"* *(Əbu Davud: 524; İbn Həcər hədisi həsənləşdirib: Nətəicul-əfkar kitabı, 1/367; Şeyx əl-Albani: «Sahihul-kəlimit-tayyib», səh.73).*

Ənəs ibn Malik Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *"Azan və iqamə arasında edilən dua cavabsız qalmaz"* *(ən-Nəsai: 9895; İbn Xuzeymə səhihləşdirib: 1/221/425).*

### Fəcrin sünnəsi və onun sünnələri:

Fəcrin sünnəsi gün ərzində edilən ratibə sünnələrin ilkidir. Onun da özünə xas sünnələri vardır. Lakin bu haqda danışmazdan əvvəl ratibə sünnələrin nə olduğunu açıqlayaq:

Ratibə sünnələr gün ərzində fərz namazları ilə birgə daimi şəkildə qılınan on iki rükət namazdır.

Ummu Həbibə á rəvayət edir ki, o, Peyğəmbərin > belə dediyini eşitdi: *"Kim gün ərzində fərz namazlarından savayı on iki rükət namaz qılarsa ona cənnətdə ev tikilər"* (Müslim: 728). *İmam Tirmizinin əlavəsində isə deyilir: "Dörd rükət zöhrdən əvvəl, iki rükət ondan sonra, iki rükət məğribdən sonra, iki rükət işadan sonra və iki rükət fəcrdən əvvəl…"* (ət-Tirmizi: 415; Hədis "həsən səhihdir").

**Ratibə sünnələrin evdə qılınması daha əfzəldir.**

Zeyd ibn Sabit Ê rəvayət edir ki, Peyğəmbər > buyurub: *"Ey insanlar, (bəzi) namazlarınızı evdə qılın. Şübhəsiz ki, müsəlman bəndənin fərz namazlarından savayı qıldığı ən əfzəl namazı evdə qıldığıdır"* (əl-Buxari: 7290, Müslim: 781).

### Ən üstün və davamiyyətli olan ratibə sünnə:



Ratibə sünnələrin ən üstünü və davamiyyətlisi fəcrin sünnəsidir. Növbəti hədislər buna dəlalət etməkdədir:

1. Rəvayət edilir ki, Aişə á demişdir: *"Peyğəmbər > nafilə namazlarından heç birini sübh namazının sünnəsi kimi davamlı qılmamışdır"* (əl-Buxari: 1169; Müslim: 724).
2. Digər hədisdə Aişədən á rəvayət edilir ki, Peyğmbər > deyib: *"Fəcrdən əvvəl qılınan iki rükət namaz dünya və onun içindəkilərindən xeyirlidir"* (Müslim: 725).

### Fəcr namazının sünnəsinə aid bəzi əməllər:

Birinci: ''Səhih Buxari'' və ''Səhih Müslim'' kitablarında nəql edildiyi kimi sübh namazının sünnəsi nə səfərdə, nə də digər vaxtlar tərk edilmir. Digər ratibə işa namazlarına aid olan sünnələr, yəni zöhr, məğrib və işa namazlarına aid olan sünnələr səfərdə qılınmır.

İkinci: Yuxarıda qeyd edildiyi kimi onun savabı bu dünyanın hər cür naz-nemətlərindən üstün və xeyirlidir.

Üçüncü: Qısa şəkildə qılmaq sünnədir.

Rəvayət edilir ki, Aişə á demişdir: *"Peyğəmbər > fəcrin sünnəsini o qədər qısa qılardı ki, mən (öz-özümə): "Görəsən o, əl-Fatihə surəsini oxudumu?" – deyərdim"* *(əl-Buxari: 1171; Müslim: 724).*

Lakin o dərəcəyə çatmamalıdır ki, namazın vaciblərinə məhəl qoyulmadan namazı sürətlə qılaraq günaha batılsın.

Dördüncü: Sübh namazının sünnəsində birinci rükətdə əl-Fatihə surəsindən sonra əl-Kafirun, ikinci rükətdə isə əl-İxlas surələrini oxumaq sünnədir. Bu, ''Səhih Müslim'' kitabında Əbu Hureyranın rəvayətində öz əksini tapmaqdadır.

Həmçinin ilk rükətdə əl-Bəqərə surəsinin 136-cı ayəsi də oxuna bilər.

İkinci rükətdə isə Ali İmran surəsinin 53-cü ayəsi oxuna bilər. Bunun sübutu da ''Səhih Müslim'' kitabında keçən İbn Abbasın rəvayətidir.

Buna görə də bəzən buna, bəzən də digərinə riayət etmək sünnədən sayılır.

Beşinci: Sübhün sünnəsindən sonra sağ qola dirsəklənib uzanmaq sünnə əməllərdəndir.

Aişədən á rəvayət edilir: *"Peyğəmbər > fəcrdən əvvəlki iki rükəti qıldıqdan sonra sağ qoluna dirsəklənib uzanardı"* *(əl-Buxari: 1160; Müslim: 736).*

## Məscidə gedərkən əməl olunan sünnə əməllər

Sübh namazı müsəlmanın gün ərzində məsciddə qılmaq üçün getdiyi ilk namazıdır. Məscidə getməyin də bir çox sünnələri vardır. Onları sadalayaq:

### 1 Məscidə erkən getmək.

Əbu Hureyradan Ê rəvayət edilir ki, Peyğəmbər > demişdir: *"Əgər insanlar namaza onun ilk vaxtında getməyin (nə qədər xeyirli) olduğunu bilsəydilər, onu yerinə yetirmək üçün bir-birini ötüb keçməyə çalışardılar"* (əl-Buxari: 615; Müslim: 437).

### 2 Hər atılan addıma görə savab əldə etmək üçün evdən məscidə dəstəmazlı halda çıxmaq.



Əbu Hureyradan Ê rəvayət edilir ki, Peyğəmbər > buyurub: *"Bir kişinin məsciddə və ticarət məkanında (iş yerində) qıldığı camaat namazı iyirmi və ondan artıq dərəcə üstündür. Kim ki, gözəl şəkildə dəstəmaz alıb namaz üçün məscidə gələrsə atdığı hər bir addımla bir dərəcə yüksələr və bir günahı silinər. Bu da məscidə girənədək davam edər. Əgər onu məsciddə məhz namaz saxlayırsa, oradan çıxana qədər ona namaz savabı yazılar. Namaz qıldığı yerdə olduğu və heç kimə əziyyət vermədiyi müddətcə, həmçinin, dəstəmazı pozulmadıqca mələklər onun üçün dua edib deyərlər: "Allahım! Ona rəhm et! Onu bağışla! Onun tövbəsini qəbul et!"* (Müslim: 649).

### 3 Məscidə sükunət və vüqarlı şəkildə getmək.

Əbu Hureyradan Ê rəvayət edilir ki, Peyğəmbər > demişdir: *"Namaz üçün iqaməni eşitdikdə namaza sakit və vüqarla gedin, tələsməyin. Hansı rükətə çatsanız (onu imamla birgə) qılın, buraxdıqlarınızı isə (imam salam verib namazı bitirdikdən sonra fərdi şəkildə) tamamlayın"* (əl-Buxari: 636; Müslim: 602).

İmam Nəvəvi / söyləmişdir: *"Sakit şəkildə getməkdə məqsəd tələsmədən aramla getmək və boş şeylərdən (oyun, əyləncə və s.) uzaq durmaqdır. Vüqarla getməkdə isə məqsəd gözü yerə dikib, səsi qısıb, sağa-sola boylanmadan yol getməkdir"* (Bax: *«Şərhul-Müslim», 602; Namaza vüqarlı və sakitcə getməyin müstəhəbliyi, qaçaraq getməyin qadağan olması haqqında fəsil).*

## 4 Məscidə sağ ayaqla daxil olmaq, sol ayaqla çıxmaq.



Rəvayət edilir ki, Ənəs ibn Malik Ê demişdir: *"Məscidə sağ ayaqla daxil olmaq, sol ayaqla isə çıxmaq sünnə əməllərdəndir"* *(əl-Hakim: 1/338. Hədisi Müslimin şərtinə uyğun "səhih" hesab etmişdir).*

## 5 Məscidə daxil olduqda və çıxdıqda müəyyən zikrləri oxumaq.

اللّٰهُمَّ افْتَحْ لِي أَبْوَابَ رَحْمَتِكَ

Əbu Humeyd (və ya Əbu Useyd) rəvayət edir ki, Peyğəmbər > demişdir: *"Sizdən biriniz məscidə girərkən desin: **«Allahummə iftəh li əbvabə rahmətikə»** (Allahım! Öz mərhəmət qapılarını mənim üçün aç!).*

اللّٰهُمَّ إِنِّي أَسْأَلُكَ مِنْ فَضْلِكَ

Çıxarkən isə desin: ***«Allahummə inni əsəlukə min fadlikə»*** *(Allahım! Sənin lütfündən diləyirəm!"* *(Müslim: 713).*

## 6 Məscidə daxil olduqda iki rükət salam namazı qılmaq.



Namaz başlamazdan əvvəl erkən məscidə daxil olan şəxs oturmamışdan əvvəl iki rükət namaz qılması sünnədir. Əbu Qatədədən Ê rəvayət edilir ki, Peyğəmbər > deyib: *"Sizdən biriniz məscidə daxil olanda oturmamışdan əvvəl iki rükət namaz qılsın"* *(əl-Buxari: 1163; Müslim: 714).*

Fərzdən əvvəl qılınan sünnələr salam namazının əvəzinə keçərlidir. Fəcrdən və zöhdən əvvəl qılınan sünnə namazlarını buna misal çəkmək olar. Hətta məsciddə qılınan duha, vitr və fərz namazları da bu qəbildəndir. Salam namazında məqsəd, məscidə daxil olduqda oturmazdan əvvəl namaz qılmaqdır. Çünki bildiyimiz kimi məscidlər ibadətdən başqa bir şeylə abadlaşmaz.

**7 Kişilərin ilk səfdə yer tutmağa səy göstərmələri sünnədir. Çünki ilk səf ən əfzəl səfdir. Qadınlar üçün isə ən əfzəl səf sonuncudur.**

Əbu Hureyradan Ê rəvayət edilir ki, Peyğəmbər > demişdir: *“Kişilər üçün ən xeyirli (savablı və fəzilətli) səf ilk səfdir, ən şərlisi (savabı və fəziləti az olan) isə sonuncu səfdir. Qadınlar üçün ən xeyirlisi sonuncu səfdir, şərlisi (fitnədən uzaq olanı) isə ilk səfdir”* (Müslim: 449).

Lakin bu hədis kişi və qadın səflərini ayıran divar və buna oxşar maneələri olmayan məscidə aiddir. Ona görə də qadınlar yad kişi gözlərindən uzaq olsun deyə onlar üçün xeyirli səf sonuncu səf sayılır. Lakin günümüzdə məscidlərdə olduğu kimi onları ayıran divar və başqa maneə olarsa o halda qadınlar üçün əfzəl səf ilk səf hesab olunur. Çünki beləcə, qadınlar yad gözlərdən uzaq qalmış sayılırlar.

Əbu Hureyradan Ê rəvayət edilir ki, Peyğəmbər > demişdir: *“Əgər insanlar azan verməyin və namazda birinci sırada (durmağın nə qədər xeyirli və bərəkətli) olduğunu bilsəydilər və buna nail olmaq üçün püşk atmaqdan başqa bir çarə tapmasaydılar, hökmən püşk atardılar. Həmçinin, əgər onlar işa və sübh namazlarını (camaatla birgə) qılmağın (nə qədər xeyirli və bərəkətli) olduğunu bilsəydilər, bu namazları qılmaq üçün dizləri üstündə sürünə-sürünə də olsa (məscidə) gələrdilər”* (əl-Buxari: 615; Müslim: 437).

### 8 Camaat namazında məmumun (camaat namazında imama iqtida edənin) imama yaxın durması.

Qeyd etdiyimiz kimi namaza düzüldükdə məmum üçün ən əfzəl səf ilk səfdir. İlk səfdə də imama sağ və ya sol hissədən yaxın durmaq daha fəzilətlidir.

Abdullah ibn Məsuddan Ê rəvayət edilir ki, Peyğəmbər > belə dedi: *"Sizlərdən yetkinlik yaşına çatan və ağıl sahibləriniz (namazda) mənə yaxın dursun!"* *(Əbu Davud: 674; ət-Tirmizi: 228).* Bu hədis imama hansı tərəfdən yaxın durulmasının fərqi olmadığına dəlildir.

## Namazın sünnələri



Camaat namazına getməmək insanı bir çox savabdan məhrum edir. Çünki məscidə gedərkən atılan hər bir addıma görə Allah qatında dərəcə yüksələr və günahları silinər.

### Namazda bir çox sünnə əməllər vardır. Onlardan bəzilərini qeyd edək:

### 1 Sütrə və onun sünnələri:

#### 1 Namaz qılanın sütrə qoyması sünnədir.

Camaat namazında imamın və ya fərdi namaz qılanın önünə sütrə qoyması sünnədir.

Əbu Səid əl-Xudri Ê Peyğəmbərdən > rəvayət edir: *"Sizdən biriniz (önündən) keçilməsin deyə sütrəyə doğru namaz qıldığı zaman kimsə onun qarşısından keçmək istəsə, qoy onu sinəsindən itələsin, əgər tərslik edərsə, qoy onunla vuruşsun, çünki o, şeytandır"* *(əl-Buxari: 509; Müslim: 505).*

Sütrənin sünnə olmasına dair çoxlu hədislər varid olmuşdur. Hətta Peyğəmbərin > sütrə məqsədilə çarpayı, divar, kötük, taxta, qalxan, paya, dəvə və digər şeylərə doğru namaz qıldığı da rəvayət edilir.

İstər açıq düzənlikdə, istərsə də qapalı məkanda, istər öndən adam keçmə ehtimalında, istərsə də həmən ehtimalın olmadığı halda, istər

səfərdə, istərsə də sakin olduğu yerdə namaz qılarkən sütrə qoymaq sünnədir. Peyğəmbərin > sadalananlar arasında fərq qoymadığı rəvayət olunmaqdadır. Əbu Cuheyfənin rəvayət etdiyi hədisi buna sübutdur. *(əl-Buxari: 501; Müslim: 503).*

## 2 Sütrəyə yaxın durmaq.



Namaz qılanın səcdə yeri ilə sütrə arasındakı məsafəsi bir qoyun keçəcək qədərdir.

Rəvayət edilir ki, Səhl ibn Sa'ddan Ê demişdir: "Peyğəmbərin > namaz qıldığı yerlə *(qiblə istiqamətindəki) divar arasında bir qoyun keçə biləcək qədər məsafə olardı" (əl-Buxari: 496; Müslim: 508).*

*"...namaz qıldığı yerlə"* ifadəsində məqsəd səcdə etdiyi yerdir.

Başqa bir rəvayətdə isə Peyğəmbərlə > sütrə arasındakı məsafənin üç dirsək olduğu qeyd edilir *(Əhməd: 6231; Əbu Davud: 2024; əl-Albani hədisi "səhih" hesab etmişdir: «Sahihul-əbi Davud», 6/263; Hədisin orijinalı üçün bax: əl-Buxari, 506).*

## 3 Namaz qılanın qarşısından keçmək istəyəni itələmək.

Əbu Səid əl-Xudridən Ê rəvayət edilir ki, Peyğəmbər > demişdir: *"Sizdən biriniz (önündən) keçən olmasın deyə sütrəyə doğru namaz qıldığı zaman kimsə onun qarşısından keçmək istəsə, qoy onu sinəsindən itələsin, əgər tərslik edərsə, qoy onunla vuruşsun, çünki o, şeytandır" (Müslim: 505).*



Lakin öndən keçən ya qadın, ya qara it, ya da uzunqulaq olarsa doğru olan rəyə görə namaz qılana onların qarşısını almaq vacibdir. Çünki onlar Əbu Zərdən rəvayət olunan hədisdə qeyd edildiyi kimi namazı batil edən amillərdəndir *(Müslim: 510).*

Bunlardan savayı şeylər isə namazı pozmur. Şeyximiz İbn Useymin də bu qənaətdədir.

### 4 Hər namazdan öncə misvakdan istifadə etmək.



Bu, gün ərzində misvakdan istifadə etməyin üçüncü məqamıdır.

Əbu Hureyradan Ê rəvayət edilir ki, Peyğəmbər > demişdir: *"Əgər ümmətimə ağır gəlməsəydi, onlara əmr edərdim ki, hər namazdan əvvəl (dişlərini) misvakla təmizləsinlər"* *(əl-Buxari: 887).*

## 2 Qiyam vəziyyətinə aid sünnə əməllər:

### 1 "İhram" (namaza başlama) təkbirində əlləri qaldırmaq.

سَمِعَ اللّهُ لمن حَمِده ربَّنا ولكَ الحمدُ



Abdullah ibn Ömərdən È rəvayət edilir: *"Peyğəmbər > namaza başlayanda əllərini çiyinləri bərabərinə qaldırardı. Həmçinin, «Allahu Əkbər» deyib rükuya gedəndə və rükudan başını qaldıranda da əllərini qaldırardı. (Rükudan qalxarkən) «Səmi Allahu limən həmidəh» (Allah Ona həmd edənin duasını qəbul etdi) deyərdi. Səcdəyə gedəndə isə (əllərini) qaldırmazdı"* *(əl-Buxari: 735; Müslim: 390).*

İbn Hubeyra / deyib: *"Alimlər yekdil fikirdədilər ki, əlləri "İhram" (namaza başlama) təkbirində qaldırmaq sünnədir, vacib deyildir"* *(Bax: «əl-İfsah», 1/123).*

**Umumiyyətlə namazda əllərin dörd yerdə qaldırılması nəql edilmişdir:**

**1. Namaza başlayərkən**

**2. Rükuya gedərkən**

**3. Rükudan qalxdıqda**

**4. İlk Dördüncüsü isə ilk təşəhhüddən qalxdıqda edilir**

Bu nəqllərin hamısı İbn Ömərdən Ê rəvayət edilmişdir.

### 2 Təkbir zamanı əlləri qaldırarkən barmaqları bükmədən açıq vəziyyətdə tutmaq.

Əbu Hureyradan Ê rəvayət edilir: *"Peyğəmbər > namaza başladıqda təkbir zamanı əllərini qaldırarkən (barmaqlarını) açıq vəziyyətdə tutardı" (Əhməd: 8875; Əbu Davud: 753; ət-Tirmizi: 240; əl-Albani hədisi "səhih" hesab etmişdir: «Səhih Əbu Davud», 3/341).*

### 3 Təkbir zamanı əlləri sünnədə gələn yerə qədər qaldırmaq.





Bu mövzuda Peyğəmbərdən > iki müxtəlif rəvayət nəql edilmişdir. Birincisi "Səhih Buxari" və "Səhih Müslim" kitablarında nəql edilən İbn Ömərin Ê rəvayətində Peyğəmbər > əllərini çiyinləri səviyəsində qaldırmışdır *(əl-Buxari: 390; Müslim: 735).*

İkincisi isə Müslimin Malik ibn əl-Huveyisdən Ê nəql etdiyi rəvayətdir ki, orada Peyğəmbər > əllərini qulaqlarının yuxarı hissəsinə qədər qaldırmışdır *(Müslim: 391).*

Hər iki hədisə riayət etmək üçün bəzən birini, bəzən də digərini tətbiq etmək daha yaxşıdır.

### 4 "İhram" təkbirindən sonra sağ əli sol əlin üzərinə qoymaq.

Bu məsələ haqda İbn Hubeyra / alimlərin yekdil fikirdə olmalarını nəql etmişdir *(Bax: «əl-İfsah», 1/124).*

### 5 Sağ əllə solu tutmaq.

**Birinci hal:** Sağ əl sol əlin üzərinə qoyulur. Vail ibn Hucr Ê rəvayət edir: *"Allahın elçisini > (namaz qılarkən) gördüm, qiyamda durduqda sağ əli ilə solu tutardı" (Əbu Davud: 755; ən-Nəsai: 888; əl-Albani hədisi səhih hesab etmişdir).*

**İkinci hal:** Sağ əl sol qolunun üstünə qoyulur. Rəvayət edilir ki, Səhl ibn Sə'd Ê demişdir: *"İnsanlara əmr edilərdi ki, namaz qıldıqda sağ əli sol qolun üstünə qoysunlar" (əl-Buxari: 740).*

Sünnəni yaşatmaq baxımından bəzən sağ əli solun, bəzən də sağ əli sol qolun üzərinə qoymaq daha yaxşıdır.





### 6 *“İstiftəh”* (açılış) duasını oxumaq.

İstiftəh duasının bir neçə forması vardır. Onları növbələşdirərək – bəzən birini, bəzən isə digərini oxumaq müstəhəbdir.

1. سُبْحَانَكَ اللَّهُمَّ وَبِحَمْدِكَ ، تَبَارَكَ اسْمُكَ وَتَعَالَى جَدُّكَ ، وَلاَ إِلَهَ غَيْرُكَ

   Əbu Səid əl-Xudridən Ê nəql edilən istiftəh duası: ***«Subhanəkə Allahummə və bihəmdikə, təbərakəs-mukə və təalə cəddukə, və lə iləhə ğayrukə»*** *(Allahım! Sən Pak və Müqəddəssən. Sənə həmd olsun. Sənin adın mübarəkdir (xeyir-bərəkət Səndəndir), əzəmətin isə ucadır (müqəddəsdir və hər bir nöqsandan uzaqdır). Səndən başqa haqq məbud yoxdur.)* *(Əhməd: 11473; Əbu Davud: 776; ət-Tirmizi: 243; ən-Nəsai: 900; İbn Həcər hədisi “həsən” hesab etmişdir (Bax: «Nətəicul-əfkar», 1/412).*

2. الْحَمْدُ لِلهِ حَمْداً كَثِيراً طَيِّباً مُبَارَكاً فِيهِ

   Ənəs ibn Malikdən Ê *rəvayət edilən istiftəh duası:* ***«Əlhəmdu lilləhi həmdən kəsiran, tayyibən, mubarəkən fihi»*** *(Allaha həmd olsun; çoxlu, xoş, mübarək bir həmd!) (Müslim: 600).*

3. اللَّهُمَّ بَاعِدْ بَيْنِي وَبَيْنَ خَطَايَايَ كَمَا بَاعَدْتَ بَيْنَ الْمَشْرِقِ وَالْمَغْرِبِ، اللَّهُمَّ نَقِّنِي مِنْ خَطَايَايَ كَمَا يُنَقَّى الثَّوْبُ الأَبْيَضُ مِنَ الدَّنَسِ، اللَّهُمَّ اغْسِلْنِي مِنْ خَطَايَايَ بِالثَّلْجِ وَالْمَاءِ وَالْبَرَدِ

   Əbu Hureyradan Ê rəvayət edilən istiftəh duası: ***«Allahummə bə’id beyni və beynə xatayayə kəmə bə’adtə bəynəl-məşriqi vəl-məğribi, Allahummə nəqqini min xatayayə kəmə yunəqqas-səubul-əbyədu minəd-dənəs. Allahummə-ğsilni min xatayayə bis-səlci vəl-məi vəl-bəradi»*** *(Allahım! Məğriblə məşriqin arasını uzaqlaşdırdığın kimi məni də günahlarımdan uzaqlaşdır! Allahım! Ağ paltar kirdən təmizləndiyi kimi məni də günahlarımdan təmizlə! Allahım! Mənim günahlarımı qar, su və dolu ilə yu!) (əl-Buxari: 744; Müslim: 598).*

4. اللهُ أَكْبَرُ كَبِيراً ، وَالْحَمْدُ لِلهِ كَثِيراً ، وَسُبْحَانَ اللهِ بُكْرَةً وَأَصِيلاً

   Abdullah ibn Ömərdən Ê rəvayət edilən istiftəh duası: ***«Allahu əkbəru kəbiran, vəl-həmdu lilləhi kəsiran, və subhanəllahi bukratən və əsilən»*** *(Allah hər şeydən böyükdür! Allaha çoxlu sayda həmd olsun! Səhər-axşam Allaha təriflər olsun!).*

   *Rəvayət edilir ki, Peyğəmbər > demişdir: “(Bu kəlimələrə) təəccüb edirəm! (Kim onları deyərsə) ona səmanın qapıları açılar” (Müslim: 601).*

## 7 *"İstiazə"* (Şeytandan Allaha sığınmaq üçün edilən dua).

İstiazənin varid olan müxtəlif şəkillərini növbələşdirərək oxumaq sünnədir.

1 أعوذ بالله من الشيطان الرجيم

***«Ə'uzu billəhi minəş-şeytanir-racim»*** *(Lənətlənmiş şeytandan Allaha sığınıram).*

Bu, əksər alimlərin *(Allah onların hamısına rəhm etsin)* üstünlük verdiyi istiazə duasıdır. Uca Allah Quranda buyurur: ***"Quran oxumaq istədiyin zaman qovulmuş şeytandan Allaha sığın! («Ə'uzu billəhi minəş-şeytanir-racim» sözlərini de!)"*** ***(ən-Nəhl: 98).***

2 أعوذ بالله السميع العليم من الشيطان الرجيم

«***Ə'uzu billəhis-Səmi'l-Alim*** minəş-şeytanir-racim» *(Lənətlənmiş şeytandan Eşidən, Bilən Allaha sığınıram).*

Uca Allah Quranda buyurur: ***"Əgər sənə şeytandan bir vəsvəsə gəlsə, Allaha sığın. Şübhəsiz ki, O, (hər şeyi) Eşidəndir, Biləndir!"*** ***(Fusillət: 36).***

## 8 *"Bəsmələ"* gətirmək.

بِسْمِ اللَّهِ الرَّحْمنِ الرَّحِيمِ

Sünnədəndir ki, istiazədən sonra *"Bəsmələ"* yəni ***«Bismilləhir-Rahmənir-Rahim»*** deyilsin. Nu'aymi əl-Mucmirdən Ê rəvayət edilir: *"(Bir dəfə) Əbu Hureyranın arxasında ona iqtida edərək namaz qıldım. Əvvəl «Bismilləhir-Rahmənir-Rahim» dedi, sonra əl-Fatihə surəsini oxudu..." Namazı bitirdikdən sonra dedi: "Sizin içərinizdə namazını ən çox Peyğəmbərə > oxşadan mənəm"* *(ən-Nəsai: 906; İbn Xuzeymə: 1/251; əd-Daraqutni: 2/46).*

Həmçinin bilmək lazımdır ki, namazda *"Bəsmələ"* demək vacib yox, sünnədir. Çünki Əbu Hureyradan Ê rəvayət edilən hədisdə Peyğəmbər > namazını düzgün qılmayan şəxsə namazı öyrədərkən *"Bəsmələ"*ni öyrətməmişdir *(əl-Buxari: 757; Müslim: 397).*

## 9 İmamla birgə *"Amin"* demək.

Səsli namazlarda imam əl-Fatihə surəsini oxuyub bitirdikdən sonra "Amin" dedikdə ona tabe olub camaat namazı qılanların da *"Amin"* deməsi sünnədir. Əbu Hureyra Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *"İmam "Amin" deyəndə siz də "Amin" deyin! Bilin ki, kimin "Amin" deməsi mələklərin "Amin" deməsi ilə üst-üstə düşərsə onun keçmiş günahları bağışlanar"* *(əl-Buxari: 780; Müslim: 410).*

## 10 Fatihədən sonra başqa surə oxumaq.

Əksər alimlərin rəyinə əsasən birinci və ikinci rükətlərdə Fatihədən sonra hər hansı bir surəni oxumaq sünnədir. Dəlil olaraq da aşağıdakı hədisi qeyd ediblər. Rəvayət edilir ki, Əbu Qatədə Ê demişdir: *"Peyğəmbər > zöhr namazının ilk iki rükətində əl-Fatihə surəsini və başqa bir surə oxuyardı. Həmçinin, birinci rükəti uzadar, ikincini isə qısa tutardı"* (əl-Buxari: 759; Müslim: 451).

İbn Qudamə / söyləmişdir: *"Alimlər arasında fikir ayrılığı yoxdur ki, namazın ilk iki rükətində əl-Fatihədən sonra başqa bir surə oxumaq sünnədir"* (Bax: «əl-Muğni», 1/568).

Məmum (camaat namazında imama iqtida edən) isə sakit duraraq imamın qiraətinə qulaq asır.

### 3 Rüku ilə əlaqəli sünnə əməllər:

## 1 Rükuda əlləri (barmaqları aralayaraq) diz qapaqlarını tutmuş kimi onların üzərinə qoymaq.



Rəvayət edilir ki, Əbu Hümeyd əs-Sa'idi Ê demişdir: *"Mən Peyğəmbərin > necə namaz qıldığını hamınızdan yaxşı yadda saxlamışam. Mən görmüşəm ki, o, «Allahu Əkbər» deyəndə əllərini çiyinləri bərabərinə qaldırardı, rükuya getdikdə əllərini dizlərinin üzərinə qoyar və belini düz saxlayardı..."* (əl-Buxari: 828). *Əbu Məsud əl-Bədrinin* Ê *rəvayət etdiyi hədisdə isə deyilir: "(Rükü zamanı) əl barmaqlarını aralı tutardı..."* (Əhməd: 17081; Əbu Davud: 863; ən-Nəsai hədisə "həsən" demişdir: 1038; İbn Xuzeymə: 594).

## 2 Rükuda beli düz saxlamaq.

Az öncə keçən Əbu Hümeydin Ê rəvayətində deyilirdi: *"...Mən görmüşəm ki, o, «Allahu Əkbər» deyəndə əllərini çiyinləri bərabərinə qaldırardı, rükuya getdikdə əllərini dizlərinin üzərinə qoyar və belini düz saxlayardı..."* (əl-Buxari: 828). Yəni belini əyməyərək dümdüz saxlayardı.

Həmçinin başı bel səviyəsində saxlamaq – nə yuxarı, nə də aşağı əymək sünnədir. Rəvayət edilir ki, Aişə á demişdir: *“Peyğəmbər > rükü etdikdə başını nə tam dik tutar, nə də tam əyərdi. Orta vəziyyətdə saxlayardı”* *(Müslim: 498).*



## ❸ Rüku zamanı dirsəkləri böyürlərdən aralı tutmaq.

Əbu Məsud əl-Bərdi Peyğəmbərin > namazını vəsf edərkən demişdir: *“... Sonra rüku etdi və qollarını tam açıb böyürlərindən aralı tutdu. Əllərini də dizlərinin üstünə qoydu və barmaqlarını araladı...”* (Namazı vəsf etdikdən) sonra dedi: *“Allahın elçisinin bu cür namaz qıldığını gördüm”* *(Əhməd: 17081; Əbu Davud: 863; ən-Nəsai: 1038).*



Əlləri böyürdən aralı tutmağın şərti digər namaz qılanlara əziyyət verməməkdir. Çünki namaz qılanın sünnəni yerinə yetirməklə başqasına əziyyət verməsi doğru deyildir.

Bu məsələ barədə İmam Nəvəvi söyləmişdir: *“Bu əməlin müstəhəb olması haqda heç bir müxalif görüş bilmirəm. Hətta İmam Tirmizi rükuda və səcdədə əlləri böyürlərdən aralamaq haqda alimlərin nəqllərini sadaladıqda bu məsələdə heç bir ixtilafı qeyd etməmişdir”* *(Bax: «əl-Məcmu», 3/410).*

## ❹ Rükuda sünnədə gələn zikrləri demək.

سبحان ربي العظيم

Rükuda vacib olan ***«Subhanə Rabbiyəl-Azım»*** *(Əzəmətli Rəbbim pak və müqəddəsdir!)* zikrindən başqa varid olan zikrləri oxumaq sünnədir. Onlardan bəzilərini qeyd edək:

1 سُبْحَانَكَ اللَّهُمَّ رَبَّنَا وَبِحَمْدِكَ، اللَّهُمَّ اغْفِرْ لِي
Aişədən á rəvayət edilən zikr: ***«Subhənəkə Allahummə Rabbənə və bihəmdikə, Allahummə-ğfir li»*** *(Allahım! Sən pak və müqəddəssən. Ey Rəbbimiz Sənə həmd olsun. Allahım, məni bağışla!) (əl-Buxari: 794; Müslim: 484).*

2 سُبُّوحٌ قُدُّوسٌ رَبُّ الْمَلاَئِكَةِ وَالرُّوحِ
Aişədən á rəvayət edilən başqa zikr: ***«Subbuhun, quddusun, Rabbul-məlaikəti vər-ruh»*** *(Pakdır, müqəddəsdir, mələklərin və Ruhun Rəbbidir!) (Müslim: 487).*

3 اللَّهُمَّ لَكَ رَكَعْتُ ، وَبِكَ آمَنْتُ ، وَلَكَ أَسْلَمْتُ ، خَشَعَ لَكَ سَمْعِي، وَبَصَرِي ، وَمُخِّي ، وَعَظْمِي ، وَعَصَبِي
Əli bin Əbu Talibdən Ê rəvayət edilən zikr: ***«Allahummə ləkə rakə'tu və bikə aməntu və ləkə əsləmtu, xaşə'a ləkə səm'i və bəsari və muxxi və a'zami və a'sabi»*** *(Allahım! Sənə rüku etdim, Sənə iman gətirdim, Sənə təslim oldum! Qulağım, gözüm, beynim, sümüyüm və sinirim Sənə tabe oldu!) (Müslim: 771).*

4 سبحانَ ذِي الجَبَرُوتِ وَالْمَلَكوتِ وَالكِبْرِياءِ وَالعَظَمَةِ
Auf ibn Malikdən Ê rəvayət edilən zikr: ***«Subhənə zil-cəbəruti, vəl-mələkuti, vəl-kibriyai, vəl-azaməti»*** *(Qüdrət, səltənət, böyüklük və əzəmət sahibi pak və müqəddəsdir!) (Əhməd: 23411; Əbu Davud: 873; ən-Nəsai: 1050; əl-Albani hədisi "səhih" hesab etmişdir: «Sahihu Əbi Davud», 4/27).*

## 4 Rükudan qalxarkən edilən sünnə əməllər:

### 1 Rükudan qalxıb qiyamı uzatmaq.

Sabit əl-Bunəni Ənəs ibn Malikin Ê belə dediyini rəvayət edir: *"Mən çalışacam ki, Peyğəmbər > bizə namaz qıldırdığı kimi sizə də elə namaz qıldırım…" (Sonra) Sabit əl-Bunəni Ê dedi: "Ənəs elə şeylər edirdi ki, indi sizin o şeyləri etdiyinizi görmürəm. O, rükudan başını qaldırdıqda ayaq üstə o qədər çox durardı ki, bəziləri deyərdilər: "O, səcdə etməyi unudub", habelə iki səcdə arasında o qədər çox durardı ki, bəziləri deyərdilər: "O, (ikinci səcdəni) unudub" (əl-Buxari: 821; Müslim: 472).*



## 2 *"Rabbənə və ləkəl-həmd"* zikrinin müxtəlif şəkillərini növbələşdirərək oxumaq:

1 اللَّهُمَّ رَبَّنَا وَلَكَ الْحَمْدُ

Əbu Hureyradan Ê rəvayət edilən zikr: ***«Allahummə Rabbənə və ləkəl-həmd»*** *(Allahım! Ey Rəbbimiz! Biz sənə həmd etdik, Sənə kamil həmd-səna olsun!)* *(əl-Buxari: 795).*

2 اللَّهُمَّ رَبَّنَا لَكَ الْحَمْدُ

Əbu Hureyradan Ê rəvayət edilən başqa zikr: ***«Allahummə Rabbənə ləkəl-həmd»*** *(Allahım! Ey Rəbbimiz! Sənə kamil həmd-səna olsun!)* *(əl-Buxari: 796; Müslim: 404).*

3 رَبَّنَا وَلَكَ الْحَمْدُ

Aişədən á rəvayət edilən zikr: ***«Rabbənə və ləkəl-həmd»*** *(Ey Rəbbimiz! Biz sənə həmd etdik, Sənə kamil həmd-səna olsun!)* *(əl-Buxari: 799; Müslim: 411).*

4 رَبَّنَا لَكَ الْحَمْدُ

Əbu Hureyradan Ê rəvayət edilən digər zikr: ***«Rabbənə ləkəl-həmd»*** *(Ey Rəbbimiz! Sənə kamil həmd-səna olsun!)* *(əl-Buxari: 722).*

Bu zikrləri növbələşdirərək oxumaq daha yaxşıdır.

## 3 Rükudan qalxdıqda sünnədə varid olan zikrləri oxumaq.

Rükudan qalxdıqda aşağıdakı zikrləri oxumaq sünnədir:

1 رَبَّنَا لَكَ الْحَمْدُ ، مِلْءُ السَّمَاوَاتِ وَالأَرْضِ ، وَمِلْءُ مَا شِئْتَ مِنْ شَيْءٍ بَعْدُ ، أَهْلُ الثَّنَاءِ وَالْمَجْدِ، أَحَقُّ مَا قَالَ الْعَبْدُ ، وَكُلُّنَا لَكَ عَبْدٌ ، اللَّهُمَّ لاَ مَانِعَ لِمَا أَعْطَيْتَ ، وَلاَ مُعْطِيَ لِمَا مَنَعْتَ ، وَلاَ يَنْفَعُ ذَا الْجَدِّ مِنْكَ الْجَدُّ

Əbu Səid əl-Xudridən Ê rəvayət edilən zikr: ***«Rabbənə ləkəl-həmd, mil'u səmavati vəl-a'rdı, mil'u mə şi'tə min şeyin bə'd. Əhəqqu mə qaləl-a'bdu, və kullunə ləkə a'bdun. Allahummə lə mani'a limə a'təytə, və lə mu'tiyə limə mənə'tə və lə yənfəu zəl-cədi minkəl-cədd»*** *(Ey Rəbbimiz! Sənə kamil həmd-səna olsun! Göylər, yerlər dolusu və bundan sonra dilədiyin şeylər dolusu (Sənə həmd olsun). Bəndənin söylədiyi haqdır. Hamımız Sənin qulunuq. Allahım! Sənin verdiyinə mane olacaq, mane olduğuna da verəcək bir kimsə yoxdur. Heç bir hörmət (şan-şöhrət və var-dövlət) sahibinə Sənin yanında hörməti (şan-şöhrəti və var-dövləti) fayda verməz)* *(Müslim: 477).*

2〉 الْحَمْدُ للهِ حَمْداً كَثِيراً طَيِّباً مُبَارَكاً فِيهِ

Rifa ibn Rafi əz-Zürəqidən Ê rəvayət edilən zikr: ***«Əlhəmdu lilləhi həmdən, kəsiran, tayyibən, mubarakən fihi»*** *(Allaha kamil həmd olsun! (Özü də) çoxlu, xoş, mübarək bir həmd!) Peyğəmbər > demişdir: "Gördüm ki, on iki mələk bu kəlmələri (Allaha) qaldırmaq üçün yarışırlar"* (əl-Buxari: 795; Müslim: 600).

3〉 اللَّهُمَّ طَهِّرْنِي بِالثَّلْجِ وَالْبَرَدِ وَالْمَاءِ الْبَارِدِ ، اللَّهُمَّ طَهِّرْنِي مِنَ الذُّنُوبِ وَالْخَطَايَا كَمَا يُنَقَّى الثَّوْبُ الأَبْيَضُ مِنَ الْوَسَخِ

***«Allahummə tahhirni bis-səlci, vəl-bəradi, vəl-məil-baridi. Allahummə tahhirni minəz-zunubi vəl-xataya kəmə yunəqqas-səubul-əbyadu minəl-vəsəx»*** *(Allahım! Mənim günahlarımı qar, dolu, soyuq su ilə yu! Allahım! Ağ paltarı kirdən təmizlədiyin kimi məni də günahlarımdan və xətalarımdan təmizlə!)* (Müslim: 476).

Namaz qılan bu zikrləri deməklə rükudan sonrakı qiyamı uzatma sünnəsinə əməl edə bilər.

## 〈5〉 Səcdədə edilən sünnə əməllər:

### 1 Səcdə halında qolları böyürlərdən və ayqları da qarından aralı tutmaq.



Abdullah ibn Buheynədən Ê rəvayət edilir: *"Peyğəmbər > namaz qıldığı zaman qollarını böyürlərindən o qədər aralı qoyardı ki, qoltuğunun ağlığı görünərdi"* (əl-Buxari: 390; Müslim: 495).

Rəvayət edilir ki, Meymunə á demişdir: *"Peyğəmbər > səcdə etdikdə qollarını böyürlərindən elə aralı saxlayardı ki, hətta arasından quzu keçmək istəsəydi keçərdi* (Müslim: 496). Lakin rükuda olduğu kimi qolları aralı saxlamaqla digər namaz qılanlara əziyyət verilməməlidir.



Həmçinin, səcdə halında ayaq budlarını bir-birindən və qarından aralı saxlamaq sünnədir. Rəvayət edilir ki, Əbu Humeyd Ê Peyğəmbərin > namazını vəfs edərək demişdir: *"Səcdə etdikdə budlarını bir-birindən, onları da qarnından aralı saxlayardı"* (*Əbu Davud: 735*).

İmam Şovkani / bu əməlin sünnə olmasında alimlərin icma etdiklərini nəql edərək söyləmişdir: *"Hədis səcdə anında budlarının bir-birindən və qarından aralı tutulmasına dəlildir. Hətta buna müxalif bir fikir də yoxdur"* (*Bax: «Neylül-Əutar», 2/257*).

## 2 Səcdə halında ayaq barmaqlarını qibləyə tərəf yönəltmək.

Rəvayət edilir k, Əbu Humeyd əs-Saidi Ê demişdir: *"Mən Peyğəmbərin > necə namaz qıldığnı hamınızdan yaxşı yadda saxlamışam... Görmüşəm ki, o, səcdəyə gedəndə əllərini yerə elə qoyardı ki, dirsəkləri nə yerə dəyər, nə də böyürlərinə toxunardı, ayaq barmaqlarının ucunu isə qibləyə tərəf yönəldərdi..."* (*əl-Buxari: 828*).

Səcdə anında əl barmaqların bir-birinə sıx şəkildə qibləyə tərəf yönəltmək sünnədir. İmam Malikin *"Muvatta"* əsərində Abdullah ibn Ömərdən Ê və İbn Əbi Şeybənin *"Musannəf"* əsərində Hafs ibn Asimdən Ê rəvayət edilir: *"Namazda (səcdə) vəziyyətində əl barmaqların açılmış, bir-birinə sıx şəkildə qibləyə tərəf yönəldilmiş halda tutmaq sünnədir"* (*Bax: «Musannəf Əbi Şeybə» 1/236*). Bu məsələ Vail ibn Hucrun rəvayəti ilə qüvvətləndirilir: *"Peyğəmbər > səcdə etdikdə barmaqlarını birləşdirərdi"* (*Bax: Məcma əz-Zəvaid, 2/135*).

## 3 Səcdə vəziyyətində zikr etmək.

سبحان ربي الأعلى

Səcdə halında ***«Subhənə Rabbiyəl-A'lə»*** zikrindən sonra aşağıdakı zikr və dualardan istəniləni demək olar:

1> سُبْحَانَكَ اللَّهُمَّ رَبَّنَا وَبِحَمْدِكَ، اللَّهُمَّ اغْفِرْ لِي

Aişədən á rəvayət olan zikr: ***«Subhənəkə Allahummə Rabbənə və bihəmdikə, Allahummə-ğfir li»*** (*Allahım! Sən pak və müqəddəssən! Ey Rəbbimiz Sənə həmd olsun! Allahım, məni bağışla!*) (*əl-Buxari: 794; Müslim: 484*).

Fəcr vaxtı edilən sünnələr

2) سُبُّوحٌ قُدُّوسٌ رَبُّ الْمَلاَئِكَةِ وَالرُّوحِ

Aişədən á rəvayət edilən başqa zikr: ***«Subbuhun, quddusun, Rabbul-məlaikəti vər-ruh»*** *(Pakdır, müqəddəsdir, mələklərin və ruhun Rəbbidir!) (Müslim: 487).*

3) اللَّهُمَّ لَكَ سَجَدْتُ ، وَبِكَ آمَنْتُ ، وَلَكَ أَسْلَمْتُ ، سَجَدَ وَجْهِي لِلَّذِي خَلَقَهُ وَصَوَّرَهُ، وَشَقَّ سَمْعَهُ وَبَصَرَهُ، تَبَارَكَ اللهُ أَحْسَنُ الْخَالِقِينَ

Əli bin Əbu Talibdən Ê rəvayət edilən zikr: ***«Allahummə ləkə səcədtu və bikə aməntu və ləkə əsləmtu, səcədə vəchiyə lilləzi xaləqahu və savvərah, və şəqqa səm'ahu və bəsarahu, təbərakəllahu əhsənul-xaliqin»*** *(Allahım! Sənə səcdə etdim, Sənə iman gətirdim, Sənə təslim oldum! Üzüm onu yaradana, ona surət verənə, onda göz və qulaq açana səcdə etdi. Yaradanların ən gözəli olan Allah nə qədər də xeyirxahdır!) (Müslim: 771).*

4) اللَّهُمَّ اغْفِرْ لِي ذَنْبِي كُلَّهُ دِقَّهُ وَجِلَّهُ ، وَأَوَّلَهُ وَآخِرَهُ، وَعَلاَنِيَتَهُ وَسِرَّهُ

Əbu Hureyradan Ê rəvayət edilən zikr: ***«Allahummə-ğfirli zənbi kulləhu, diqqahu və cilləhu, və əvvələhu və axirahu, və a'laniyətəhu və sirrahu»*** *(Allahım! Günahlarımın hamısını – kiçiyini və böyüyünü, birincisini və axırıncısını, aşkarını və gizlisini mənə bağışla!) (Müslim: 483).*

5) اللَّهُمَّ أَعُوذُ بِرِضَاكَ مِنْ سَخَطِكَ ، وَبِمُعَافَاتِكَ مِنْ عُقُوبَتِكَ ، وَأَعُوذُ بِكَ مِنْكَ ، لاَ أُحْصِي ثَنَاءً عَلَيْكَ ، أَنْتَ كَمَا أَثْنَيْتَ عَلَى نَفْسِكَ

Aişədən á rəvayət olan dua: ***«Aallahummə ə`uzu biridakə min səxatik və bimu'afatikə min uqubətikə və ə'uzu bikə minkə, lə uhsi sənaən aleykə əntə kəmə əsneytə a'lə nəfsik»*** *(Allahım! Sənin qəzəbindən razılığına, cəzandan əfvinə sığınıram. Səndən (qorxaraq) Sənə pənah aparıram. Mən Səni layiqincə tərif edə bilmərəm. Sən Özün Özünü tərif etdiyin kimisən!).*

(سبحان ربي العظيم)   (سبحان ربي الأعلى)

Qeyd etdiyimiz zikr və dualardan bildiklərimizi növbələşdirərək demək sünnədir. Amma bilməliyik rükuda ***«Subhanə Rabbiyəl-Azım»***, hər səcdədə isə ***«Subhanə Rabbiyəl-A'lə»*** zikrlərini azı bir dəfə demək vacib, iki və ya üç dəfə demək isə sünnədir.



**4 Səcdədə çoxlu dua etmək sünnədir.**

İbn Abbasın Ê rəvayət etdiyi hədisdə deyilir: *"Səcdədə duanı çoxaldın, çünki (səcdədə) edilən dua qəbul olar"* (Müslim: 479).

## 6 İki səcdə arasında olan oturuşun sünnələri:

**1 Namaz qılanın iki səcdə arasında otırarkən sol ayağını yerə yatırdıb onun üzərində oturması və sağ ayağının pəncəsini dik (şaquli) vəziyyətdə tutması sünnə əməllərdəndir.**



Əbu Humeyd əs-Saididən Ê rəvayət edilən hədisdə deyilir: *"…İkinci rükətdə oturanda sol ayağının üstündə oturar və sağ ayağının pəncəsini şaquli vəziyyətdə tutardı…"* (əl-Buxari: 828).

**2 İki səcdə arası oturuşu uzatmaq.**

Yuxarıda qeyd etdiyimiz Sabit əl-Bunəninin Ê rəvayətində deyilir: *"…habelə iki səcdə arasında o qədər çox oturardı ki, bəziləri deyərdilər: "O, (ikinci səcdəni) unudub"* (əl-Buxari: 821; Müslim: 472).

**3 İkinci ya da üçüncü rükətə qalxmamışdan əvvəl azacıq oturub sonra qalxmaq.**

Bu oturuş *"Cilsətul-istirahə"* (İstirahət oturuşu) adlanır və həmin halda heç bir zikr oxunmur.

Bu əmələ dəlil olaraq aşağıdakı üç hədisi qeyd etmək olar:

Malik ibn Huveyris əl-Leysidən Ê rəvayət edilən hədisdə deyilir: *"O, Peyğəmbərin > necə namaz qıldığını görmüşdür. O >, qıldığı namazın tək rükətlərində (ikinci səcdədən sonra) oturub qəddini düzəltməyincə ayağa qalxmazdı"* (əl-Buxari: 823). Bu hədisi rəvayət edən səhabə eyni zamanda Peyğəmbərin > digər ifadəsini də nəql etməkdədir: *"Mənim necə namaz qıldığımı gördüyünüz kimi siz də elə namaz qılın"* (əl-Buxari: 631).

Lakin alimlər bu əməlin, yəni istirahət oturuşunun sünnə olmasında fikir ayrılığına düşüblər. Doğru bildiyimiz rəy onun qəti şəkildə sünnə olmasıdır. Malik ibn Huveyrisin rəvayəti də buna dəlildir. Bu əmələ mütləq şəkildə sünnə deyən alimlərdən ən-Nəvəvi, Şovkani, İbn Bəzz və əl-Albanini *(Allah onların hamısına rəhmət etsin)* və s. misal çəkmək olar. Həmçinin ''Elmi Araşdırmalar və Fitva Komissiyası'' da bu rəyə üstünlük vermişdir *(Bax: «Fətavə və məqalət mutənavvə'a», 11/99; «Fətavəl-ləcnətil-daimə», 6/445).*

İmam Nəvəvi / söyləmişdir: ''*Hədislərin də dəlalət etdiyi doğru olan görüş də budur*'' *(Bax: «əl-Məcmu», 3/441).*

## 〈7〉 Təşəhhüddə edilən sünnələr:

### 1 Təşəhhüdə oturarkən sol ayağı yerə yatırdıb onun üzərinə əyləşmək və sağ ayağın pəncəsini dik (şaquli) vəziyyətdə tutmaq. Bu, *"İftiraş"* oturuşu adlanır.



Bu cür oturuşu namaz qılan hər bir kəs ilk təşəhhüddə, yəni ikinci rükətin səcdəsindən sonra edir. Əbu Humeyd əs-Saididən Ê rəvayət edilən hədisdə deyilir: *"...İkinci rükətdə oturanda sol ayağının üstündə oturar və sağ ayağının pəncəsini şaquli vəzyyətdə tutardı..."* *(əl-Buxari: 828).* Həmçinin Aişədən á rəvayət edilir: *"Peyğəmbər > hər iki rükətin sonunda ''ət-təhiyyat'' duasını oxuyardı, sol ayağının üstündə oturar və sağ ayağının pəncəsini şaquli vəziyyətdə tutardı..."* *(Müslim: 498).*

Üç və dörd rükətli namazların son rükətlərində olan təşəhhüdün vəsfi isə irəlidə veriləcəkdir.

### 2 Təşəhhüddə əllərin qoyuluş şəkillərinin hamısından istifadə etmək.

Təşəhhüddə əlləri iki cür qoyma şəkli vardır:

Birinci: Əllər budlara – sağ ovuc sağ budun üzərinə, sol ovuc isə sol budun üzərinə qoyulur.

İkinci: Əllər dizlərə qoyulur. Sol əllə sol diz tutulur, sağ əli isə sağ dizin üzərinə qoyulur və şəhadət barmağı ilə işarə edilir.





Rəvayət edilir ki, Abdullah ibn Ömər È demişdir: *"Peyğəmbər > namazda (təşəhhüdə) oturduqda sağ ovucunu sağ budunun üzərinə qoyar, barmaqlarını bükər və (yalnız) şəhadət barmağı ilə işarə edərdi. Sol ovucunu isə sol budunun üzərinə qoyardı"* (Müslim: 580). *Digər rəvayətdə deyilir: "…və sol əli ilə sol dizini tutardı"* (Müslim: 579).

### 3 Əl barmaqlarının tutulma şəklini dəyişmək.

Barmaqları tutmağın iki forması vardır:

Birinci: Sağ əl barmaqlarının hamısı bükülür və yalnız şəhadət barmağı ilə işarə edilir. Sol əl barmaqları isə daim bükülü qalır.

Az öncə qeyd edilən ibni Ömərin rəvayətində deyilir: "…əl barmaqlarını bükər və yalnız şəhadət barmağı ilə işarə edərdi…" *(Müslim: 580).*

İkinci: Sağ əlin kiçik və adsız barmağı bükülür, baş barmaqla orta barmağı tutaraq halqa şəklinə gətirilir və şəhadət barmağı ilə işarə edilir. Sol əl isə daim açıq şəkildə tutulur.





İbn Ömərin Ê başqa rəvayətində deyilir: *"Peyğəmbər > təşəhhüdə oturduqda sol əlini sol dizi üzərinə qoyardı. Sağ əlini isə sağ dizi üzərinə qoyar, əlinin kiçik və adsız barmaqlarını bükər və şəhadət barmağı ilə işarə edərdi"* (Müslim: 850).

## 4 Təşəhhüdün deyilmə formalarını dəyişdirərək oxumaq.

Aşağıda verilmiş təşəhhüd növlərindən bəzən birini, bəzən də digərini demək daha yaxşıdır.

1. التَّحِيَّاتُ لِلَّهِ ، وَالصَّلَوَاتُ ، وَالطَّيِّبَاتُ ، السَّلَامُ عَلَيْكَ أَيُّهَا النَّبِيُّ وَرَحْمَةُ اللَّهِ وَبَرَكَاتُهُ ، السَّلَامُ عَلَيْنَا وَعَلَى عِبَادِ اللَّهِ الصَّالِحِينَ ، أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا اللَّهُ ، وَأَشْهَدُ أَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ

   İbn Məsuddan Ê rəvayət edilən təşəhhüd: ***«Ət-təhiyyatu lilləhi, vəs-salavətu, vət-tayyibətu, əs-səlamu aleykə eyyuhən-nəbiyyu və rahmətullahi və bərakətuhu, əs-sələmu aleynə və alə ibədilləhis-salihin. Əşhədu əllə iləhə illəllah və əşhədu ənnə Muhəmmədən abduhu və rasuluhu»*** *Təzimlər, dualar (və namazlar) və gözəl şeylər Allaha məxsusdur. Ey Peyğəmbər, sənə salam olsun, Allahın mərhəməti və Onun bərəkəti olsun! Bizə və Allahın əməlisaleh qullarına salam olsun! Şahidlik edirəm ki, Allahdan başqa haqq məbud yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir!)* (əl-Buxari: 1202; Müslim: 402).

2. التَّحِيَّاتُ الْمُبَارَكَاتُ، الصَّلَوَاتُ الطَّيِّبَاتُ لِلَّهِ، السَّلَامُ عَلَيْكَ أَيُّهَا النَّبِيُّ وَرَحْمَةُ اللَّهِ وَبَرَكَاتُهُ ، السَّلَامُ عَلَيْنَا وَعَلَى عِبَادِ اللَّهِ الصَّالِحِينَ ، أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا اللَّهُ ، وَأَشْهَدُ أَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ

   İbn Abbasın Ê rəvayət etdiyi təşəhhüd: ***«Ət-təhiyyatul-mubarakət, vəs-salavətut-tayyibətu lilləhi, əs-səlamu aleykə eyyuhən-nəbiyyu və rahmətullahi və bərakətuhu, əs-sələmu aleynə və alə ibədilləhis-salihin. Əşhədu əllə iləhə illəllah və əşhədu ənnə Muhəmmədən abduhu və rasuluhu»*** *(Mübarək təzimlər, gözəl dualar Allaha aiddir. Ey Peyğəmbər, sənə salam olsun, Allahın mərhəməti və Onun bərəkəti olsun! Bizə və Allahın əməlisaleh qullarına salam olsun! Şahidlik edirəm ki, Allahdan başqa haqq məbud yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir!)* (Müslim: 403).

3. التَّحِيَّاتُ الطَّيِّبَاتُ الصَّلَوَاتُ لله ، السَّلَامُ عَلَيْكَ أَيُّهَا النَّبِيُّ وَرَحْمَةُ اللَّهِ وَبَرَكَاتُهُ ، السَّلَامُ عَلَيْنَا وَعَلَى عِبَادِ اللَّهِ الصَّالِحِينَ ، أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا اللَّهُ ، وَأَشْهَدُ أَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ

   Əbu Musa əl-Əş'arinin Ê rəvayət etdiyi təşəhhüd: ***«Ət-təhiyyatut- tayyibətu, əs-salavət lilləhi, əs-səlamu aleykə eyyuhən-nəbiyyu və rahmətullahi və bərakətuhu, əs-sələmu aleynə və alə ibədilləhis-salihin. Əşhədu ən lə iləhə illəllah və***

***əşhədu ənnə Muhəmmədən abduhu və rasuluhu»*** *(Salamlar, gözəl şeylər, dualar Allaha aiddir. Ey Peyğəmbər, sənə salam olsun, Allahın mərhəməti və Onun bərəkəti olsun! Bizə və Allahın əməlisaleh qullarına salam olsun! Şahidlik edirəm ki, Allahdan başqa haqq məbud yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir!) (Müslim: 404).*

### 5 Üç və dörd rükətli namazların son təşəhhüdündə *“Təvərruk”* oturuşu ilə əyləşmək.

***“Təvərruk”*** oturuşunun şəkli: Sol ayaq sağ ayağa doğru irəli çıxarılır və yan üstə yerə oturulur.

Bu oturuşun bir neçə forması nəql edilmişdir. Aşağıdakı formalara növbələşdirərək əməl etmək müstəhəbdir:

1. **Sol ayaq sağ tərəfə çəkilib sol yanı üstə yerə oturulur. Sağ ayağın pəncəsi isə dik (şaquli) vəziyyətdə tutulur.**



Bu oturuş şəkli əvvəl qeyd etdiyimiz Əbu Humeyd əs-Saidinin Ê rəvayətində öz əksini tapmaqdadır: *“...Axırıncı rükətə oturanda isə sol ayağını sağ tərəfə çəkər, sağ ayağının pəncəsini dik (şaquli) vəziyyətdə tutar və sol yanı üstə oturardı” (əl-Buxari: 828).*

2. **Hər iki ayaq yayılaraq sağ tərəfə çəkilir və yanı üstə yerə oturulur.**



Bu oturuş şəkli başqa mənbələrdə eyni sahəbədən – Əbu Humeyd əs-Saididən rəvayət edilmişdir *(Əbu Davud: 731; İbn Hibban: 1867; əl-Beyhəqi: 2/128; Əl-Albani hədisi ‘‘səhih’’ hesab etmişdir).*

Unutmamalıyıq ki, bu oturuş şəkli hər təşəhüddə deyil, yalnız üç və dörd rükətli namazların son təşəhhüdündə edilir.

## 6 Namazda Peyğəmbərə > deyilən salavat formalarını növbələşdirərək oxumaq.

Peyğəmbər > üçün edilən salavat dualarından bəzilərini qeyd edək:

1) اللَّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ ، وَعَلَى آلِ مُحَمَّدٍ ، كَمَا صَلَّيْتَ عَلَى إِبْرَاهِيمَ ، وَعَلَى آلِ إِبْرَاهِيمَ إِنَّكَ حَمِيدٌ مَجِيدٌ ، اللَّهُمَّ بَارِكْ عَلَى مُحَمَّدٍ ، وَعَلَى آلِ مُحَمَّدٍ ، كَمَا بَارَكْتَ عَلَى إِبْرَاهِيمَ ، وَعَلَى آلِ إِبْرَاهِيمَ إِنَّكَ حَمِيدٌ مَجِيدٌ

Kə'b ibn Ucradan Ê nəql edilən salavat: «***Allahummə salli alə Muhəmmədin və alə ali Muhəmməd, kəmə salleytə alə İbrahimə və alə ali İbrahim, innəkə həmidun məcid. Allahummə barik alə Muhəmmədin və alə ali Muhəmməd, kəmə barəktə alə İbrahimə və alə ali İbrahim, innəkə həmidun məcid***» *(Allahım! İbrahimə və İbrahimin ailəsinə xeyir-dua verdiyin kimi Muhəmmədə və Muhəmmədin ailəsinə də xeyir-dua ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən! Allahım! İbrahimə və İbrahimin ailəsinə bərəkət verdiyin kimi Muhəmmədə və Muhəmmədin ailəsinə də bərəkət ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən!) (əl-Buxari: 3370).*

2) اللَّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَعَلَى آلِ مُحَمَّد كَمَا صَلَّيْتَ عَلَى آلِ إِبْرَاهِيمَ ، وَبَارِكْ عَلَى مُحَمَّدٍ وَعَلَى آلِ مُحَمَّدٍ كَمَا بَارَكْتَ عَلَى آلِ إِبْرَاهِيمَ ، فِي الْعَالَمِينَ ، إِنَّكَ حَمِيدٌ مَجِيدٌ

Əbu Məsud əl-Ənsaridən Ê nəql edilən salavat: «***Allahummə salli alə Muhəmmədin və alə ali Muhəmməd, kəmə salleytə alə İbrahimə və alə ali İbrahim. Və barik alə Muhəmmədin və alə ali Muhəmməd, kəmə barəktə alə İbrahimə və alə ali İbrahim, fil-aləmin, innəkə həmidun məcid***» *(Müslim: 405).*

3) اللَّهُمَّ صَلِّ عَلى مُحَمَّدٍ وَعَلَى أَزْوَاجِهِ وَذُرِّيَّتِهِ ، كَمَا صَلَّيْتَ عَلَى آلِ إِبْرَاهِيمَ ، وَبَارِكْ عَلَى مُحَمَّدٍ وَعَلَى أَزْوَاجِهِ وَذُرِّيَّتِهِ، كَمَا بَارَكْتَ عَلَى آلِ إِبْرَاهِيمَ ، إِنَّكَ حَمِيدٌ مَجِيدٌ

Əbu Humeyd əs-Saididən Ê nəql edilən salavat: «***Allahummə salli alə Muhəmmədin və alə əzvacihi və zurriyyətihi, kəmə salleytə alə ali İbrahim. Və barik alə Muhəmmədin və alə əzvacihi və zurriyətihi, kəmə barəktə alə ali İbrahim. İnnəkə həmidun məcid***» *(Allahım! İbrahimin ailəsinə xeyir-dua verdiyin kimi Muhəmmədə, onun zövcələrinə və nəslinə də xeyir-dua ver! İbrahimin ailəsinə bərəkət verdiyin kimi Muhəmmədə, zövcələrinə və nəslinə də bərəkət ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən!) (əl-Buxari: 3369; Müslim: 407).*

### 7 Salam verməmişdən əvvəl dörd şeydən Allaha sığınmaq.

Qeyd edək ki, bu əksər alimlərin *(Allah onların hamısına rəhm etsin)* görüşüdür. Əbu Hureyradan Ê rəvayət edilir ki, Peyğəmbər > demişdir: *"Sizdən biriniz təşəhhüdü bitirdikdən sonra dörd şeydən Allaha sığınsın: Cəhənnəm əzabından, qəbr əzabından, həyatın və ölümün fitnəsinin şərindən və yalançı məsihin (Dəccalın) şərindən"* *(Müslim: 588; əl-Buxari: 832).*

Bunlara əlavə olaraq salamdan öncə sünnədə digər dualar da nəql edilmişdir:

1. اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ من المأْثَمِ والمغْرَمِ

   ***«Allahummə inni ə'uzu bikə minəl-mə'səmi vəl-məğram»*** *(Allahım! Günah və borcdan Sənə sığınıram!)* (əl-Buxari: 832; Müsim: 589).

2. اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الجَنَّةَ وَأَعَوْذُ بِكَ مِنَ النَّارِ

   ***«Allahummə inni əsəlukəl-cənnətə və ə'uzu bikə minən-nar»*** *(Allahım! Səndən Cənnəti diləyirəm, Cəhənnəmdən isə Sənə sığınıram!) (Əbu Davud: 792; əl-Albani hədisin isnadını "səhih" hesab etmişdir: «Sahihu Əbi Davud», 3/377).*

3. اللَّهُمَّ إِنِّي ظَلَمْتُ نَفْسِي ظُلْمًا كَثِيرًا وَلَا يَغْفِرُ الذُّنُوبَ إِلَّا أَنْتَ فَاغْفِرْ لِي مَغْفِرَةً مِنْ عِنْدِكَ وَارْحَمْنِي ، إِنَّكَ أَنْتَ الْغَفُورُ الرَّحِيمُ

   ***«Allahummə inni zalamtu nəfsi zulmən kəsiran və lə yəğfiruz-zunubə illə ənt, fəğfir li məğfiratən min i'ndəkə, vərhamni, innəkə əntəl-ğafurur-rahim»*** *(Allahım! Mən özümə çoxlu zülm etdim. Günahları bağışlayan yalnız Sənsən. Özün günahlarımdan keçməklə məni bağışla və mənə rəhm et. Həqiqətən, Sən Bağışlayansan, Rəhmlisən!) (əl-Buxari: 6326; Müslim: 2705).*

4. اللَّهُمَّ أَعِنِّي عَلَى ذِكْرِكَ ، وَشُكْرِكَ ، وَحُسْنِ عِبَادَتِكَ

   ***«Allahummə ə'inni alə zikrikə, və şukrikə, və husni ibadətikə»*** *(Allahım! Səni zikr etmək, Sənə şükr etmək və Sənə gözəl tərzdə ibadət etmək üçün mənə yardım et!) (Əhməd: 22119; Əbu Davud: 1304; əl-Albani hədisi "səhih" hesab etmişdir: «Sahihul-cami», 2/1320).*

5 اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الْبُخْلِ ، وَأَعُوذُ بِكَ مِنَ الْجُبْنِ ، وَأَعُوذُ بِكَ أَنْ أُرَدَّ إِلَى أَرْذَلِ الْعُمُرِ، وَأَعُوذُ بِكَ مِنْ فِتْنَةِ الدُّنْيَا ، وَأَعُوذُ بِكَ مِنْ عَذَابِ الْقَبْرِ

***«Allahummə inni ə'uzu bikə minəl-buxli, və ə'uzu bikə minəl-cubni, və ə'uzu bikə ən uraddə ilə ərzəlil-umr, və ə'uzu bikə min fitnətid-dunyə, və ə'uzu bikə min a'zəbil-qabr»*** *(Allahım! Xəsislikdən Sənə sığınıram! Qorxaqlıqdan Sənə sığınıram! Qocalığın ən düşkün çağına çatmaqdan sənə sığınıram! Dünyanın fitnəsindən və qəbir əzabından sənə sığınıram!)* (əl-Buxari: 6370).

6 اللَّهُمَّ حَاسِبْنِي حِسَابًا يَسِيرًا

***«Allahummə həsibni hisabən yəsiran»*** *(Allahım! Məni yüngül haqq-hesaba çək!) (Əhməd: 24215; əl-Albani hədisi "səhih" hesab etmişdir: «Təhqiqu Muşkətil-Məsabih», 3/1544).*

Bundan sonra başı sağa və sola çevirərək salam verilir. Salam verənin başını çevirməsi, hətta bu əməli mübaliğəli – arxada duranın onun yanaqlarını görəcək şəkildə etməsi sünnədir. Rəvayət edilir ki, Sə'd ibn Əbu Vəqqas Ê demişdir: *"Peyğəmbər > namazda salam verərkən (başını o dərəcədə) sağa və sola çevirərdi ki, hətta yanaqlarının ağlığını görərdim" (Müslim, 582).*

### 8 Namazı bitirdikdən sonra müəyyən zikrləri oxumaq sünnədir.

İmam Nəvəvi / söyləmişdir: *"Alimlər namazdan sonra zikr etməyin müstəhəb olması haqda yekdil fikirdədilər" (Bax: «əl-Əzkar», səh.66).*

Bu zikrləri oxuyarkən səsi qaldırmaq müstəhəbdir. Abdullah ibn Abbas rəvayət etdiyi hədisdə deyilir: *"Peyğəmbər > zamanında camaat fərz namazını bitirdikdən sonra yüksək səslə Allahı zikr edərdi. Mən bu zikrləri eşitdikdə namazın başa çatdığını bilərdim" (əl-Buxari: 841; Müslim: 583).*

### Namazdan sonra edilən zikrlər:

1 اللَّهُمَّ أَنْتَ السَّلاَمُ وَمِنْكَ السَّلاَمُ ، تَبَارَكْتَ ذَا الْجَلاَلِ وَالإِكْرَامِ

Sovbən Ê deyir ki, Peyğəmbər > namazı bitirdikdən dərhal sonra üç dəfə ***«Əstəğfirullah»*** *(Allahdan bağışlanma diləyirəm!)* deyər, sonra isə ***«Allahummə əntəs-sələm və minkəs-sələm, təbarəktə zəl-cələli vəl-ikram»*** *(Allahım! Salam Sənsən və əmin-amanlıq Səndədir. Ey əzəmət və ehtiram sahibi! Sən xeyirxahsan!) (Müslim: 591).*

2 لاَ إِلٰهَ إِلاَّ اللّٰهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، لاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللّٰهِ، لاَ إِلٰهَ إِلاَّ اللّٰهُ، وَلاَ نَعْبُدُ إِلاَّ إِيَّاهُ، لَهُ النِّعْمَةُ وَلَهُ الْفَضْلُ ، وَلَهُ الثَّنَاءُ الْحَسَنُ ، لاَ إِلٰهَ إِلاَّ اللّٰهُ مُخْلِصِينَ لَهُ الدِّينَ ، وَلَوْ كَرِهَ الْكَافِرُونَ

***«Lə ilahə illəllahu vəhdəhu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu və huva alə kulli şeyin qadir, lə haulə və lə quvvətə illə billəhi, lə ilahə illəllahu, və lə nə'budu illə iyyəhu, ləhun-ni'mətu və ləhul-fadlu, və ləhus-sənəul-həsənu, lə ilahə illəllahu muxlisınə ləhud-dinə, və ləu kəriəəl-kafirun»*** *(Allahdan başqa haqq məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Bütün varlıq və kamil həmd yalnız Ona məxsusdur! O hər şeyə Qadirdir. Qüdrət və güc yalnız Allahdadır! Allahdan başqa haqq məbud yoxdur. Biz yalnız Ona ibadət edirik. Nemət Onundur, lütf Onundur və gözəl tərif Onadır. Allahdan başqa haqq məbud yoxdur. Kafirlərə xoş gəlməsə də, biz dini yalnız Ona məxsus edirik!) (Müslim, 596).*

3 لاَ إِلٰهَ إِلاَّ اللّٰهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ ، اللَّهُمَّ لاَ مَانِعَ لِمَا أَعْطَيْتَ، وَلاَ مُعْطِيَ لِمَا مَنَعْتَ ، وَلاَ يَنْفَعُ ذَا الْجَدِّ مِنْكَ الْجَدُّ

***«Lə ilahə illəllahu vəhdəhu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu və huva alə kulli şeyin qadir, Allahummə lə maniə limə ə'taytə, və lə mu'tıyə limə mənə'tə, və lə yənfəu zəl-cəddi minkəl-cəddi»*** *(Allahdan başqa haqq məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Bütün varlıq və kamil həmd yalnız Ona məxsusdur! O hər şeyə Qadirdir. Allahım, Sənin nemət verdiyinə mane olacaq, mane olduğuna da verəcək (bir kəs) yoxdur. Heç bir hörmət (əzəmət və var-dövlət) sahibinə Sənin yanında hörməti (onun əzəməti) fayda verməz!) (Müslim, 596).*

4 Sonra *"Təsbihat"* zikrinin sünnədə varid olan müxtəlif formalarından biri deyilir:

سبحان الله، والحمد لله، والله أكبر

لاَ إِلٰهَ إِلاَّ اللّٰهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ

Birinci: ***33 dəfə «Subhanəllah», 33 dəfə «Əlhəmdulilləh», 33 dəfə «Allahu Əkbər» və 1 dəfə «Lə ilahə illəllahu vəhdəhu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu və huva alə kulli şeyin qadir»***

Əbu Hureyra Ê rəvayət edir ki, Allahın elçisi > belə demişdir: "Kim hər namazdan sonra otuz üç dəfə ***«Subhanəllah»***, otuz üç dəfə ***«Əlhəmdulilləh»***, otuz üç dəfə ***«Allahu Əkbər»*** deyərsə, doxsan doqquzdan sonra yüzü tamamlamaq üçün isə: ***«Lə ilahə illəllahu***

Fəcr vaxtı edilən sünnələr

***vəhdəhu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu və huva alə kulli şeyin qadir.»*** *(Allahdan başqa ibadətə layiq məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Bütün varlıq və kamil həmd yalnız Ona məxsusdur! O hər şeyə Qadirdir!) – deyərsə onun günahları dəniz köpüyü qədər olsa belə yenə də bağışlanar" (Müslim: 597).*

سبحان الله، والحمد لله، والله أكبر

**İkinci:** ***33 dəfə «Subhanəllah», 33 dəfə «Əlhəmdulilləh» və 34 dəfə «Allahu Əkbər»*** demək. Kə'b ibn Ucra Ê Peyğəmbərin > belə dediyini rəvayət edir: *"Hər (fərz) namazından sonra edilən zikrlər vardır ki, onları deyənlər və ya edənlər xəsarətə uğramazlar: otuz üç dəfə təsbih (Subhanəllah), otuz üç dəfə təhmid (Əlhəmdulilləh) və otuz dörd dəfə təkbir (Allahu Əkbər)" (Müslim, 596).*

سبحان الله، والحمد لله، والله أكبر، ولا إله إلا الله

**Üçüncü:** ***25 dəfə «Subhanəllah», 25 dəfə «Əlhəmdulilləh» və 25 dəfə «Allahu Əkbər» 25 dəfə «Lə iləhə illəllah»*** demək. *(ət-Tirmizi: 3413; əl-Albani hədisi "səhih" hesab edib: «Təhqiqu Muşkatil-Masabih» 1/301).*

سبحان الله، والحمد لله، والله أكبر

**Dördüncü:** Abdullah ibn Ömərin Ê rəvayəti: ***10 dəfə «Subhanəllah», 10 dəfə «Əlhəmdulilləh» və 10 dəfə «Allahu Əkbər»*** demək. *(ət-Tirmizi: 3410; əl-Albani hədisi "səhih" hesab edib: «Təhqiqu Muşkatil-Masabih», 2/743).*

Əvvəlki fəsillərdə qeyd etdiyimiz kimi sünnəni yaşatmaq məqsədilə bu sadalanan formaların hamısından istifadə etmək, yəni növbələşdirərək demək daha gözəldir.

Zikrləri barmaqla etmək sünnədir. Peyğəmbər > buyurmuşdur: *"Təsbih edin və (onu) barmaqlarla sayın. Şübhəsiz ki, onlar (Qiyamətdə) nəyə sərf edildikləri haqda sorğu-sual olunacaqlar və (sahibinə şəfaətçi olmaq üçün) danışdırılacaqlar" (Əhməd: 3486; əl-Albani hədisi «həsən» hesab etmişdir: «Sahihul-cami», 2/753).*

### 5 ***"Ayətil-Kursi"*** **ni oxumaq.**

Əbu Umamə Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *"Kim hər (fərz) namazından sonra «Ayətul-Kursi»ni oxuyarsa onunla Cənnət arasında ölüm durar (öləndən sonra Cənnətə girər)" (ən-Nəsai, «Sünənil-kubra»: 9928; əl-Munziri, «ət-Tərğib vət-tərhib», 2373; İbn Abdul-Hadi, «əl-Muhərrar», 1/198; İbn Qayyim, «Zadul-Məad», 1/303).*

6 ***"Muəvvizəteyni"* (əl-Fələq və ən-Nas surələrini) oxumaq.**

Rəvayət edilir ki, Uqbə ibn Amir Ê demişdir: *"Peyğəmbər > mənə hər (fərz) namazından sonra "Muəvvizəteyni" oxumağı əmr etmişdir"* *(Əbu Davud: 1525; əl-Albani demişdir: "Hədisin isnadı səhihdir, həmçinin, İbn Xuzeymə və İbn Hibban hədisi "səhih" hesab etmişlər", «Sahihu Əbi Davud», 5/254).*

**9 Məsciddə fəcr namazını camaatla qıldıqdan sonra günəş çıxana qədər namaz qıldığı məkanda oturmaq sünnə əmməllərdəndir.**

Cabir ibn Səmuradan Ê rəvayət edilir: *"Peyğəmbər > fəcr namazını qıldıqdan sonra günəş (bir nizə ucluğu qədər) yüksələnə kimi namaz qıldığı məkanda oturardı"* *(Müslim: 670).*



◆ Peyğəmbər > *demişdir: "Yeddi qism insan vardır ki, Allah onları Öz heç bir kölgənin olmayacağı bir gündə Öz kölgəsi altında kölgələndirəcəkdir… Qəlbi məscidlərə bağlı olan kişi…"*

## Səhər vaxtı edilən zikrlər



Bilməliyik ki, səhər və axşam zikrləri müsəlmanın bu dünyada qorunma qalası, axirətdə isə böyük sərvətidir.

### Səhər və axşam zikrləri:

1 لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ

*"Kim səhərə çıxdıqda on dəfə* ***«Lə iləhə illəllahu vəhdəhu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu və huva alə kulli şeyin qadir»*** *(Allahdan başqa haqq məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Bütün varlıq və kamil həmd yalnız Ona məxsusdur! O hər şeyə Qadirdir!) deyərsə ona yüz savab yazılar, onun yüz günahı silinər, bu, onun üçün qul azad etmə (savabına) bərabər olar, axşamadək şeytandan qorunmuş olar. Kim də bunu axşamladıqda söyləyərsə (səhər qazandığı) eyni savabları qazanar" (Əhməd: 8719; İbn Bəzz hədisin isnadını "həsən" hesab etmişdir).*

2 أَمْسَيْنَا وَأَمْسَى الْمُلْكُ لِلَّهِ ، وَالْحَمْدُ لِلَّهِ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ مِنْ خَيْرِ هَذِهِ اللَّيْلَةِ وَخَيْرِ مَا فِيهَا، وَأَعُوذُ بِكَ مِنْ شَرِّهَا وَشَرِّ مَا فِيهَا ، اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الْكَسَلِ وَالْهَرَمِ ، وَسُوءِ الْكِبَرِ، وَفِتْنَةِ الدُّنْيَا ، وَعَذَابِ الْقَبْرِ

Axşama çıxdıqda deyilir: ***«Əmseynə və əmsəl-mulku lilləh, vəl-həmdu lilləh, lə iləhə illəllahu vəhdəhu lə şərikə ləh. Allahummə inni əsəlukə min xayri həzihil-leyləti və xayri mə fihə, və ə'uzu bikə min şərrihə və şərri mə fihə. Allahummə inni ə'uzu bikə minəl-kəsəli, vəl-hərami və suil-kibəri, və fitnətid-dunyə və əzabil-qabr»*** *(Axşamladıq, hökm də Allahın olaraq axşama çatdı. Allaha kamil həmd olsun! Allahdan başqa haqq məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Allahım! Səndən bu gecənin və onda olan varlıqların xeyirini diləyirəm. Həmçinin, bu gecənin və onda olan varlıqların şərindən Sənə sığınıram. Allahım! Tənbəllikdən, taqətsiz yaşlılıqdan, miskin qocalıqdan, bu dünyanın fitnəsindən və qəbr əzabından Sənə sığınıram!)*

أَصْبَحْنا وَأَصْبَحَ المُلْكُ لله ، والحمدُ لله، لا إلهَ إلاّ اللهُ وحدَهُ لا شريكَ لهُ اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ مِنْ خَيْرِ ما في هذا اليوم وَخَيْرِ ما بعْدَه ، وَأعوذُ بِكَ مِنْ شَرِّ ما في هذا اليوم وَشَرِّ ما بَعْدَه، اللهم إني أعوذُ بِكَ مِنَ الْكَسَلِ والهرم وَسوءِ الْكِبَرِ ، وفتنة الدنيا وَعَذابِ القَبْرِ

Səhərə çıxdıqda isə deyilir: ***«Əsbəhnə və əsbahəl-mulku lilləh, vəl-həmdu lilləh, lə iləhə illəllahu vəhdəhu lə şərikə ləh. Allahummə inni əsəlukə min xayri mə fi həzəl-yəumi və xayri mə bə'dəhu, və ə'uzu bikə min şərri mə fi həzəl-yəumi və şərri mə bə'dəhu. Allahummə inni ə'uzu bikə minəl-kəsəli, vəl-hərami və suil-kibəri, və fitnətid-dunyə və əzabil-qabr»*** *(Səhərə çıxdıq, hökm də Allahın olaraq səhərə çıxdı. Allaha kamil həmd olsun! Allahdan başqa haqq məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Allahım! Səndən bu səhərin və ondan sonrakı xeyiri diləyirəm. Həmçinin, bu səhərin və ondan sonrakı şərdən Sənə sığınıram. Allahım! Tənbəllikdən, taqətsiz yaşlılqdan, miskin qocalıqdan, bu dünyanın fitnəsindən və qəbr əzabından Sənə sığınıram!)* *(Müslim: 2723).*

3 اللَّهُمَّ أَنْتَ رَبِّي لَا إِلَهَ إِلَّا أَنْتَ خَلَقْتَنِي,وَأَنَا عَبْدُكَ,وَأَنَا عَلَى عَهْدِكَ وَوَعْدِكَ مَا اسْتَطَعْتُ، أَعُوذُ بِكَ مِنْ شَرِّ مَا صَنَعْتُ ، أَبُوءُ لَكَ بِنِعْمَتِكَ عَلَيَّ، وَأَبُوءُ لَكَ بِذَنْبِي فَاغْفِرْ لِي فَإِنَّهُ لَا يَغْفِرُ الذُّنُوبَ إِلَّا أَنْتَ

*"Seyyidul-istiğfar"* (Ən fəzilətli bağışlanma diləmək) duası: ***«Allahummə, əntə rabbi lə iləhə illə əntə, xaləqtəni və ənə abdukə, və ənə alə ahdikə və və'dikə məs-təta'tu, ə'uzu bikə min şərri mə sanə'tu. Əbu'u ləkə bini'mətikə aleyyə, və əbu'u bizənbi. Fəğfir li fə innəhu lə yəğfiruz-zunubə illə ənt»*** *(Allahım! Sən mənim Rəbbimsən. Səndən başqa ibadətə layiq məbud yoxdur. Məni sən yaratdın və mən sənin qulunam. Gücüm çatan qədər Sənə verdiyim əhdə və vədə sadiqəm. Etdiklərimin şərindən Sənə sığınıram. Mənə verdiyin nemətləri etiraf edirəm və günahlarımı boynuma alıram. Məni bağışla! Şübhəsiz ki, günahları yalnız Sən bağışlayırsan!)*

Peyğəmbər > buyurmuşdur: *"Kim gündüz vaxtı bu duanı yəqinliklə deyər və həmin gün axşam düşməzdən əvvəl ölərsə Cənnət əhlindən olar. Habelə kim axşam ikən bunu yəqinliklə deyər və səhər açılmazdan əvvəl ölərsə Cənnət əhlindən olar"* *(əl-Buxari: 6306).*

4 اللَّهُمَّ بِكَ أَصْبَحْنَا، وَبِكَ أَمْسَيْنَا، وَبِكَ نَحْيَا، وَبِكَ نَمُوتُ، وَإِلَيْكَ النُّشُورُ

*"Sizdən səhərə çıxan qoy bu sözləri desin:* ***«Allahummə bikə əsbəhnə, və bikə əmseynə, və bikə nəhyə, və bikə nəmutu, və ileykən-nuşur»*** *(Allahım! Sənin sayəndə səhərə çıxdıq, Sənin sayəndə axşamladıq, Sənin sayəndə yaşayırıq, Sənin sayəndə ölürük! Qayıdış Sənədir!).*

اللَّهُمَّ بِكَ أَمْسَيْنَا وَبِكَ أَصْبَحْنَا وَبِكَ نَحْيَا وَبِكَ نَمُوتُ وَإِلَيْكَ الْمَصِيرِ

*Axşama çatan isə desin:* ***«Allahummə bikə əmseynə, və bikə əsbəhnə, və bikə nəhyə, və bikə nəmutu, və ileykəl-məsir»*** *(Allahım! Sənin sayəndə axşamladıq, Sənin sayəndə səhərə çıxdıq, Sənin sayəndə yaşayırıq, Sənin sayəndə ölürük! Dönüş Sənədir!) (Əbu Davud: 5068; ət-Tirmizi: 3391; ən-Nəsai: «əs-Sünən əl-Kubra», 9836; İbn Macə: 3868; İbn Bəzz hədisin isnadını "səhih" hesab etmişdir).*

5 اللَّهُمَّ فَاطِرَ السَّمَوَاتِ وَالْأَرْضِ ، عَالِمَ الْغَيْبِ وَالشَّهَادَةِ ، لَا إِلَهَ إِلَّا أَنْتَ رَبَّ كُلِّ شَيْءٍ وَمَلِيكَهُ ، أَعُوذُ بِكَ مِنْ شَرِّ نَفْسِي وَمِنْ شَرِّ الشَّيْطَانِ وَشِرْكِهِ ، وَأَنْ أَقْتَرِفَ عَلَى نَفْسِي سُوءًا ، أَوْ أَجُرَّهُ إِلَى مُسْلِمٍ

***«Allahummə fatiris-səməvati vəl-ard, a'limal-ğaybi vəş-şəhədəti, lə iləhə illə ənt, rabbə kulli şeyin və məlikəhu. Ə'uzu bikə min şərri nəfsi və min şərriş-şeytani və şirkihi, və ən əqtərifə alə nəfsi suən, əu əcurrahu ilə muslim»*** *(Göyləri və yeri yaradan, qeybdə və aşkarda olanı bilən Allahım! Səndən başqa haqq məbud yoxdur. Hər şeyin Rəbbi və Hökmdarı! Nəfsimin şərindən, şeytanın şərindən və şirkindən, özümə pislik etməkdən, yaxud onu bir müsəlmana yetirməkdən Sənə sığınıram!)*

Peyğəmbər > buyurub: *"Bu duanı səhərə çıxdıqda, axşamladıqda və yatağına girdikdə söylə!" (Əhməd: 6597; Əbu Davud 5076; ət-Tirmizi: 3529; ən-Nəsai: 7699; İbn Bəzz hədisin isnadını "səhih" hesab etmişdir).*

6 بِسْمِ اللَّهِ الَّذِي لَا يَضُرُّ مَعَ اسْمِهِ شَيْءٌ فِي الْأَرْضِ وَلَا فِي السَّمَاءِ وَهُوَ السَّمِيعُ الْعَلِيمُ

*"Kim səhər üç dəfə və axşam üç dəfə **«Bismilləhil-ləzi lə yədurru mə'a ismihi şeyun fil-ardı və lə fis-səmai və huvəs-səmiul-alim»** (Allahın adını çəkərək, ona pənah aparıram! Hansı ki, adı çəkildikdə yerdə və göydə heç bir şey zərər verə bilməz. Şübhəsiz ki, O, Eşidəndir, Biləndir!) deyərsə ona heç bir zərər toxunmaz") (Əhməd: 446; ət-Tirmizi: 10179; İbn Macə 3869).*

7 رَضِيتُ بِاللَّهِ رَبًّا ، وَبِالْإِسْلَامِ دِينًا ، وَبِمُحَمَّدٍ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ نَبِيًّا

*"Kim səhər üç dəfə və axşam üç dəfə **«Radıtu billəhi rabbən, və bil-isləmi dinən, və bi Muhəmmədin > nəbiyyən»** (Rəbb olaraq Allahdan, din olaraq İslamdan və peyğəmbər olaraq Muhəmməddən > razıyam!) deyərsə Qiyamət günü onun razı salınması Allahın üzərində haqq olar") (Əhməd: 18967; ət-Tirmizi: 3389; İbn Macə 3870. İbn Bəzz hədisin isnadını "həsən" hesab etmişdir).*

8 اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْعَافِيَةَ فِي الدُّنْيَا وَالْآخِرَةِ ، اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْعَفْوَ وَالْعَافِيَةَ فِي دِينِي وَدُنْيَايَ ، وَأَهْلِي وَمَالِي ، اللَّهُمَّ اسْتُرْ عَوْرَاتِي، وَآمِنْ رَوْعَاتِي، اللَّهُمَّ احْفَظْنِي مِنْ بَيْنِ يَدَيَّ وَمِنْ خَلْفِي ، وَعَنْ يَمِينِي وَعَنْ شِمَالِي ، وَمِنْ فَوْقِي ، وَأَعُوذُ بِعَظَمَتِكَ أَنْ أُغْتَالَ مِنْ تَحْتِي

***«Allahummə, inni əs'əlukəl-a'fiyə fid-dunyə vəl-axira. Allahummə, inni əs'əlukəl-afvə vəl-afiyə fi dini və dunyəyə və əhli və mali. Allahumməstur aurati və ə'min raua'ti. Allahumməhfəzni min beyni yədeyyə və min xalfi və an yəmini və an şiməli və min fəuqi və ə'uzu biazəmətikə ən uğtələ min təhti»*** *(Allahım! Dünya və Axirətdə Səndən salamatlıq diləyirəm! Allahım! Dinim, dünyam, ailəm və malım üçün Səndən əfv və salamatlıq diləyirəm! Allahım! Eyiblərimi ört və qorxularımdan məni xatircəm et! Allahım! Məni önümdən, arxamdan, sağımdan, solumdan və başımın üstündən qoru! Ayağımın altının qazılmasından Sənin əzəmətinə sığınıram!) (İmam Əhməd: «əl-Müsnəd», 4785; Əbu Davud: 5074; ən-Nəsai: «əl-Kubra», 10401; İbn Macə: 3871; Hakim hədisi ''səhih'' hesab etmişdir).*

9 أَعُوذُ بِكَلِمَاتِ اللَّهِ التَّامَّاتِ مِنْ شَرِّ مَا خَلَقَ

***«Ə'uzu bikəlimətil-ləhit-təmməti min şərri mə xaləq»*** *(Yaratdıqlarının şərindən Allahın kamil kəlmələrinə sığınıram!) (Əhməd: 7898; ət-Tirmizi: 3437).*

10 أَصْبَحْنَا عَلَى فِطْرَةِ الْإِسْلَامِ ، وَكَلِمَةِ الْإِخْلَاصِ، وَدِينِ نَبِيِّنَا مُحَمَّدٍ - صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ -وَمِلَّةِ أَبِينَا إِبْرَاهِيمَ حَنِيفًا، وَمَا كَانَ مِنَ الْمُشْرِكِينَ

***«Əsbəhnə alə fitratil-islam, və kəlimətil-ixlas, və dini nəbiyyinə Muhəmməd > və milləti əbinə İbrahimə hənifən və mə kənə minəl-muşrikin»*** *(İslam fitrəti, ixlas kəlməsi, Peyğəmbərimiz Muhəmmədin > dini, hənif (ixlasla Allaha ibadət edən), müsəlman olan və müşriklərdən olmayan atamız İbrahimin ümməti üzərə səhərə çıxdıq!)*

أمسينا على فطرة الإسلام …

Axşamladıqda isə deyilir: ***«Əmseynə alə fitratil-islami …»*** *(Əhməd: 15367, 21144).*

Yuxarıda qeyd edilən bütün zikr və dualar Şeyx İbn Bəzzin Ê *«Tuhfətul-Əxyar bi bəyəni cumlətin nafi'atin mimmə vəradə fil-kitəbi vəs-sunnəti minəl-əd'iyəti vəl-əzkar»* adlı kitabının *"Səhər və axşam zikrləri"* bölümündə verilmişdir.

11 يَا حَيُّ يَا قَيُّومُ بِرَحْمَتِكَ أَسْتَغِيثُ أَصْلِحْ لِي شَأْنِي كُلَّهُ ، وَلَا تَكِلْنِي إِلَى نَفْسِي طَرْفَةَ عَيْنٍ

***«Ya həyyu, ya qayyum, birahmətikə əstəğisu, əslih li şə'ni kulləhu və lə təkilni ilə nəfsi tarfətə ayn»*** *(Ey (əbədi) Yaşayan, ey Qayyum (kainatı yaradıb idarə edən, bəndələrinin işlərini yoluna qoyan və onları qoruyan), mərhəmətinlə (Səndən) kömək diləyirəm. Mənim bütün işlərimi yoluna qoy! Məni bir göz qırpımı belə başlı-başına buraxma!) (ən-Nəsai: 10405; əl-Bəzzar, 2/282; İbn Həcər və əl-Albani hədisi "həsən" hesab etmişlər. Bax: «Nətaicul-Əfkar», 177 və «Silsilətul-Əhədisis-Sahiha», 1/449).*

12 حَسْبِيَ اللهُ لاَ إِلَهَ إِلاَّ هُوَ عَلَيْهِ تَوَكَّلتُ وَهُوَ رَبُّ الْعَرشِ الْعَظِيمِ

*"Kim səhər və axşam yeddi dəfə **«Həsbiyəllahu lə iləhə illə huva aleyhi təvəkkəltu və huva rabbul-arşil-azim»** (Allah mənə yetər! Ondan başqa haqq məbud yoxdur. Ona təvəkkül etdim. O, əzəmətli Ərşin Rəbbidir!) deyərsə, onun başına gələcək dünya və axirət işlərində Allah ona kifayət edər" (Əbu Davud: 5081).*

## Üçüncü: Duha vaxtı



Duha – günəş çıxandan zöhrə qədər olan müddətdə duha namazının qılınması sünnədir.

1 Rəvayət edilir ki, Əbu Hureyra Ê demişdir: *"Xəlilim > mənə üç şeyi tövsiyyə etdi: Hər ayın üç gününü oruc tutmaq, iki rükət duha namazı qılmaq və yatmazdan öncə vitr namazını qılmaq." Həmçinin rəvayət edilir ki, Peyğəmbər > eyni tövsiyəni Əbud-Dərdaya və Əbu Zərrə də etmişdir.* (Müslim: *722; ən-Nəsai: «əs-Sünən əl-Kubra», 2712; əl-Albani hədisi ''səhih'' hesab etmişdir: «əs-Sahiha», 2166).*

2 Əbu Zərr Peyğəmbərin > belə dediyini rəvayət edir: *"Hər bir oynağınızın payına bir sədəqə düşür. Hər deyilən "Təsbih" (Sübhənallah) bir sədəqədir, hər deyilən "Təhmid" (Əlhəmdulilləh) bir sədəqədir, hər deyilən "Təhlil" (Lə iləhə illəllah) bir sədəqədir və hər deyilən "Təkbir" (Allahu Əkbər) bir sədəqədir. Həmçinin, hər bir yaxşı işi tövsiyə edib ona təşviq etmək bir sədəqə və hər bir pis işdən çəkindirmək bir sədəqədir. Lakin, duha vaxtı iki rükət namaz qılmaq bütün bunları əvəz edir"* (Müslim: 720).

Həmçinin, Aişədən á rəvayət edilir ki, hər bir insan üç yüz altmış oynaq ilə xəlq edilmişdir. Hər kim (Qiyamət günü) bu sayda sədəqə ilə (Allahın hüzuruna) gələrsə özünü oddan qorumuş sayılar.

- **Duha namazının başlama vaxtı** günəş nizənin ucu qədər yüksəlişindən, yəni namaz üçün qadağan olunmuş müddət bitdikdən sonra başlayır.

Bitməsi isə günəş qübbədə (zenitdə) olduqda, yəni zöhr namazına təxminən on dəqiqə qalmışa qədərdir.

Amr ibn Abəsə Ê Peyğəmbərin > belə dediyini rəvayət edir: *"Sübh namazını qıl, sonra günəş çıxana qədər namaz qılma… (Günəş yüksəldikdən) sonra isə yenə də (nafilə) namazına davam et, çünki həmin vaxtı qılınan namaza (mələklər) şahidlik edərlər. Bunu ta günəş qübbədə (zenitdə) olana qədər davam et, sonra isə yenə də namazı dayandır, çünki həmin vaxt cəhənnəm istisinin artdığı vaxtdır"* (Müslim: 832).

- **Duaha namazının əfzəl vaxtı** duha vaxtının sona yaxın – günəşin qızmarlığının artdığı vaxtdır.

Zeyd bin Ərqamdan Ê rəvayət edilir ki, Peyğəmbər > deyib: *"Tövbə edənlər duha namazını dəvə balasının günəşdən yandığı bir zamanda (zenitə yaxınlaşmasına az qaldıqda) qılarlar"* (Müslim: 748).

### Duha namazının rükətlərinin sayı:

Ən az sayı iki rükətdir. Peyğəmbərin tövsiyyəsində deyilir: *"Hər ayın üç günü oruc tutmaq, iki rükət duha namazını qılmaq və yatmazdan öncə vitr namazını qılmaq."* (əl-Buxari: 1981; Müslim: 721).

Ən çox rükəti isə daha üstün rəyə görə məhdud sayda deyildir, baxmayaraq ki, bəzi alimlər duha namazının sayını səkkiz rükətlə məhdudlaşdırıblar. Aişədən á rəvayət edilir: *"Peyğəmbər > duha namazını (iki-iki olmaqla) dörd rükət qılardı. Bəzən isə bu sayı istədiyi qədər artırardı"* (Müslim: 719).



Peyğəmbərin > duha namazını əshabələrinə vəsiyyət etməsi həmin namazın fəzilətinə sübutdur.

## Dördüncü: Zöhr vaxtı edilən sünnə əməllər



### Birinci: Zöhr namazından əvvəl və sonra sünnə namazları qılmaq.

Yuxarıdakı bölümlərdə *"ratibə"* sünnələri haqda qısa olaraq məlumat verdikdə bildirdik ki, zöhrdən əvvəl dörd, sonra iki rükət sünnə namazı qılınır. Bu əməllər Aişə və Ummu Həbibənin á rəvayət etdiyi hədislərdə öz əksini tapmışdır.

### İkinci: Zöhr namazının ilk rükətini uzatmaq.

Rəvayət edilir ki, Əbu Səid Xudridən Ê demişdir: *Zöhr namazına iqamə verilərdi və kimsə Bəqiyə ehtiyacını ödəməyə gedərdi, sonra dəstəmaz alıb gəldikdə Peyğəmbər > hələ də ilk rükətdə olardı"* *(Müslim: 454).*

İstər camaat namazını qıldıran imamın, istər fərdi halda namaz qılan şəxsin, istərsə də qadının zöhr namazında ilk rükəti uzun tutması sünnədir. Bu əməl unudulmuş sünnələrdəndir. Uca Allahdan sünnəni layiqincə yerinə yetirməyi və ona həris olmağımızı diləyirik!

### Üçüncü: Bərk istilər düşdükdə zöhr namazını hava bir az sərinləyənədək təxirə salmaq.

Əbu Hureyra Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *“Hava bərk istiləşdikdə sərin düşənədək namazı təxirə salın, çünki istilərin artması Cəhənnəmin nəfəs almasına (yəni şiddətlənməsinə, alışıb-yanmasına) görədir”* *(əl-Buxari: 533, 534; Müslim: 615).*

Şeyximiz İbn Useymin / demişdir: *‘‘Əgər təxmin etsək ki, zöhr namazı saat on ikidə – gün batmağa meyl etdiyi vaxt daxil olur, əsr namazı isə təqribən saat dördün yarısı daxil olur, o halda havanın sərinləşməsi saat dörd radələrinə düşür’’* *(Bax: «əl-Mumti, 2/104»).*

Az öncə qeyd etdiyimiz hədisə əsasən sərinlər düşənədək namazı təxirə salmaq həm tək, həm də camaatla namaz qılana, habelə qadınlara da aiddir. Şeyximiz İbn Useymin də / bu rəyə üstünlük vermişdir.





◆ Peyğəmbər > buyurub: *"Namaz nurdur"*. Yəni o, sənə həm bu dünyada, həm də axirətdə nurdur.

## Beşinci: Əsr vaxtı edilən sünnə əməllər



Qeyd etdiyimiz kimi əsr namazında ratibə sünnə yoxdur.

Şeyxülislam İbn Teymiyyə / demişdir: *"O ki, qaldı əsrdən əvvəl namaz qılmağa, Peyğəmbərin > əsrdən əvvəl namaz qıldığını deyən heç bir alim olmamışdır. Olsa da, gətirdiyi dəlilində zəiflik, ya da xəta vardır"* *(Bax: «əl-Fətava», 23/123).*

Doğrusunu Allah bilir, bizim doğru gördüyümüz rəy odur ki, əsrdən əvvəl ratibə sünnə qılınmaz. Lakin istəyən üçün iki və ya ondan çox rükətli nafilə namazı qılmaq icazəlidir.

### Səhər zikrlərinin vaxtı:

Əksər islam alimlərinin rəyinə görə səhər zikrlərinin vaxtı dan yeri söküləndən – sübh namazı daxil olan zamandan başlayır. Bu, gün çıxana qədər davam edir. Amma kimsə bu vaxt ərzində zikirləri etməyibsə həmin vaxtdan sonra da etməsi ona icazəlidir.

### Axşam zikrlərinin vaxtı:

Bu zikrlərin vaxtı əsr namazının vaxtı girəndən məğribə – gün batana qədər davam edir. Hətta məğribdən də sonra etmək icazəlidir.

## Altıncı: Məğrib vaxtı edilən sünnə əməllər



**Birinci: Gün batdıqda – məğribin ilk saatlarında uşaqları bayıra çıxmağa qoymamaq.**

**İkinci: (Gecə yatmazdan öncə) Uca Allahın adını zikr edərək («*Bismilləh*» deyərək) qapıları bağlamaq.**

Bu iki gözəl sünnə ədəbinə əməl etməklə biz özümüzü və övladlarımızı cin və şeytanın şərindən qorumuş oluruq. Həmçinin, Allahın adını zikr etməklə qapıları bağlamağı da unutmamalıyıq. Çünki neçə-neçə uşaq və neçə-neçə ev vardır ki, bu səbəbdən şeytanın əsarətinə məruz qalmışlar. Lakin İslam dininə riayət etməklə ev və övladlarımızın qayğısına qalmağımız necə də gözəl və möhtəşəm bir işdir.



Cabir ibn Abdullahdan Ê Peyğəmbərin > belə dediyi rəvayət edilir: *“Gecə düşdükdə, yaxud axşamladıqda uşaqlarınızı bayıra çıxmağa qoymayın. Çünki həmin vaxt şeytanlar hər tərəfə yayılırlar. Gecədən bir müddət keçəndə onları sərbəst buraxıın. Həmçinin Allahın adını zikr edərək qapıları bağlayın, çünki şeytan bağlı qapını aça bilmir”* *(əl-Buxari: 3304; Müslim: 2012).*

Gecənin əvvəlində qapıları bağlamaq və uşaqları çölə buraxmamaq müstəhəb bir əməldir *(Bax: Daimi Fitva Komissiyası, 26/317).*

### Üçüncü: Məğribdən əvvəl iki rükət namaz qılmaq.

Abdullah əl-Muzəni Ê rəvayət edir ki, Peyğəmbər > üç dəfə: *“Məğribdən qabaq namaz qılın!”* – deyə təkrar etdi və üçüncü dəfə: *“Kim istəyirsə!” – dedi ki, insanlar bunu (ratibə) sünnə kimi qəbul etməsinlər”* *(əl-Buxari: 1183).*

**Həmçinin hər azan və iqamə arası iki rükət namaz qılmaq sünnədir.**

İstər fəcr və zöhrdən əvvəl iki rükət ratibə sünnə namazını qılmaqla, istərsə də məğrib və işa namazları üçün məsciddə azanı gözləyib sonra qalxıb iki rükət namaz qılmaqla bu sünnəyə riayət etmək mümkündür.

Abdullah ibn Muğəffəl əl-Muzəni rəvayət edir ki, Peyğəmbər > üç dəfə dedi: *“Hər iki azan (yəni, azan və iqamə) arasında namaz vardır”. Bunu üç dəfə təkrar etdi və üçüncüdə əlavə etdi: “İstəyənlər üçün”* *(əl-Buxari: 624; Müslim; 838).*

Ancaq bilmək lazımdır ki, məğribdən əvvəl, yaxud da azan və iqamə arasında qılınan iki rükət namaz təkidlə təşviq edilmiş ratibə sünnələrdən deyildir. Hətta insanlar da onu daimi qılınan sünnə kimi anlamasınlar deyə Peyğəmbər > dedi: *“...Kim istəyirsə”*. Ona görə də bu əməli hərdən edib, hərdən isə etməmək daha yaxşıdır.

### Dördüncü: İşadan əvvəl yatmaq məkruhdur (bəyənilmir).

Əbu Bərzə əl-Əsləmidən Ê rəvayət edilir: *"Peyğəmbər > işa namazını təxirə salmağı (vaxtı çıxmamaq şərti ilə) müstəhəb sayardı. Həmçinin işadan əvvəl yatmağı, sonra da (lüzumsuz) söhbət etməyi məkruh sayardı" (əl-Buxari: 599; Müslim: 647).*

İşadan əvvəl yatmağın məkruh olmasında hikmət işa namazını buraxmamaqdır.



Gecə-gündüz tövbə etmək insanı Allaha yaxınlaşdırar. Peyğəmbər > buyurmuşdur: *"Həqiqətən də Uca Allah gecə vaxtı əlini açar ki, gündüzün günahkarları tövbə eləsin. Gündüz vaxtı əlini açar ki, gecənin günahkarı tövbə eləsin. Bu hal, günəş batdığı yerdən doğana (Qiyamətə) qədər davam edəcək".*

# Yeddinci: İşa vaxtı edilən sünnə əməllər



## Birinci: İşadan sonra məclis qurmaq və söhbət etmək məkruhdur.

Az öncə qeyd etdiyimiz Əbu Bərzə əl-Əsləmidən Ê rəvayətində deyilir: *"Peyğəmbər > İşadan əvvəl yatmağı, sonra da (lüzumsuz) söhbət etməyi məkruh sayardı".* Lakin ehtiyac duyulan söhbətdə və məclislərdə iştirak etmək məkruh deyildir.

Bu əməlin bəyənilməməsinin bizə məlum olan səbəbi – Allah doğrusunu bilir – gecə və ya sübh namazına yatıb qalmamaqdır.

İkinci: İnsanlara məşəqqət yaratmadıqca işa namazını (vaxtı çıxmamaq şərtilə) gecikdirmək daha yaxşıdır.

Aişədən á nəql edilir: *“Bir gecə Peyğəmbər > işa namazını gecənin əksər hissəsi gedənə qədər gecikdirdi. Hətta məsciddəki insanlar yuxulayırdılar. Sonra çıxıb namazı qıldırdı və dedi: “Əgər ümmətimə çətinlik yaratmasaydım işanı bu vaxtı qılın deyərdim”* *(Müslim: 638).*

Həmçinin, camaatla namaz qılmayan qadın və kişinin məşəqqət olmadığı müddətcə işanı gecikdirməsi də sünnədir.

Gecə vaxtı əl-İxlas surəsini oxumaq sünnədir:

Əbu Dərdə Ê rəvayət edir ki, Peyğəmbər > *demişdir: “Sizlərdən kimsə bir gecədə Quranın üçdə birini oxumaqdan aciz qalırmı? (Orda olanlar) dedilər: “Bir gecəyə Quranın üçdə birini oxumaq mümkündürmü?!” O dedi: “De: «Qul huva-llahu Əhəd»…”* *(Muslim: 811; Buxari:5015)*



## Yatmazdan öncə edilən sünnə əməllər

### 1 Qapıları kilidləmək.



Cabir ibn Abdullah Ê rəvayət edir ki, Peyğəmbər > buyurmuşdur: *"Yatağınıza girməzdən öncə (Allahın adını zikr edərək) çıraqları söndürün, qapıları kilidləyin, su tuluqlarının ağzını bağlayın və yeyib-içmək olan qabların üstünü örtün"* *(əl-Buxari: 5624; Müslim: 2012).*

Yatmazdan əvvəl qapıları kilidləməkdə hikmət Cabir ibn Abdullahın nəql etdiyi hədisdə deyildiyi kimi şeytanın evə daxil olmasının qarşısını almaqdır.

*"Allahın adını zikr edərək qapıları kilidləyin, çünki şeytan bağlı qapını aça bilmir"* *(əl-Buxari: 5623; Müslim: 2012).*

### 2 Çıraqları söndürmək.



Peyğəmbər > buyurmuşdur: *"Yatağınıza girməzdən öncə (Allahın adını zikr edərək) çıraqları söndürün..."* *(əl-Buxari: 5623; Müslim: 2012).*

Abdullah ibn Ömərdən nəql edilir ki, Peyğəmbər > demişdir: *"Yatarkən evinizdə çıraqları yanılı qoymayın!"* *(Müslim: 2015).*

Həmçinin yanğına səbəb olan elektrik cihazları, qaz pilətələri, odun sobaları kimi müasir elektrik avadanlıqlarını da bu qismə aid etmək olar. Çünki Peyğəmbərimiz > bizə xəbər vermişdir ki, od düşməndir.

Lakin bu əşyaların təhlükəsizliyindən əminiksə, o halda onların yanılı qalmasında problem yoxdur. Çünki hədisdə göstərilən səbəb aradan qalxmış olur.



**3 Dəstəmaz almaq.**

Əl-Bəra ibn Azib Ê rəvayət edir ki, Peyğəmbər > belə buyurmuşdur: *"Yatmaq istədikdə namaz üçün dəstəmaz aldığın kimi dəstəmaz al…"* *(əl-Buxari: 247; Müslim: 2710).*

**4 Uzanmamışdan öncə yatağı çırpmaq.**



Əbu Hureyra Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *"Sizdən biriniz yatağına uzanmaq istədikdə qoy izarının (paltarının) iç tərəfi ilə yatağını çırpsın. Çünki o, özündən sonra yatağına nəyin girdiyini bilmir..."* *(əl-Buxari: 6320; Müslim: 2714).*

Yatağı çırpma üç dəfə edilir, sonra da hədisdə deyilən zikr oxunur.

Əfzəl olan odur ki, çırpıb təmizləmə paltarın iç tərəfi ilə olsun. Həmçinin alimlər çırpmanın istənilən şeylə edilməsinə icazəli olduğunu deyiblər. Məqsəd sünnənin yerinə yetirilməsidir. Bu rəydə olan alimlərdən Abdulla ibn Cibrin / demişdir: ''*Çırpmanın paltarın ətəyi ilə edilməsi şərt deyildir. İstər bütün çarpayını silkələməklə, istərsə də əmmamə və buna bənzər şeylə çırpmaqla sünnə yerinə yetirilmiş sayılar*'' *(Bax: «Fətava», 2693).*

**5 Sağ böyrü üstə yatmaq.**

**6 Yatarkən sağ əli sağ yanağın altına qoymaq.**



Bəra ibn Azib Ê rəvayət edir ki, Peyğəmbər > belə buyurmuşdur: *"Yatmaq istədikdə namaz üçün dəstəmaz aldığın kimi dəstəmaz al, sonra sağ böyrün üstə uzan…"* *(əl-Buxari: 247; Müslim: 2710).*

Huzeyfə ibn Yəməndən Ê nəql edilir: *“Peyğəmbər > gecə yatağına uzanıb yatmaq istədikdə əlini yanağının altına qoyardı...”* *(əl-Buxari: 6314).*

## 7 Quran və Sünnədə gələn zikr və duaları oxumaq.

### 1 Quranda gələn zikr və dualar:

#### 1 *“Ayətul-Kursi”*ni oxumaq.

Bu ayəni oxuyan insan səhər açılana qədər şeytandan qorunar.



Əbu Hureyranın Ê zəkatdan oğurluq edəni yaxalaması qissəsində deyilir:

*“Səhəri gün Peyğəmbər > məndən soruşdu: “Dünən tutduğun əsir nə etdi?” Mən dedim: “Ya Rəsulallah! O, Allahın izni ilə mənə faydası olacaq sözlər öyrədəcəyini söylədi və mən də onu buraxdım.” Peyğəmbər: “Nədir o?” – deyə soruşdu. Mən dedim: «O mənə söylədi ki, yatağına uzananda Kürsü – **«Allahu lə ilə illə huvəl-həyyul qayyum»** (Allah, Ondan başqa ibadətə layiq məbud yoxdur, əbədi Yaşayandır, bütün yaratdıqlarının Qəyyumudur) – ayəsini əvvəldən sona kimi oxu. Əgər bunu etsən, səhər yuxudan oyananadək sənin yanında Allahın təyin etdiyi gözətçi (bir mələk) durar və şeytan sənə yaxınlaşmaz.*

*Səhabələr xeyirli işlərə ən çox can atan insanlar idi.*

*Peyğəmbər > dedi: “O sənə doğru söylədi, halbuki özü qatı yalançıdır. Sən üç gecədir kiminlə söhbət etdiyini bilirsənmi, ey Əbu Hureyra?” Mən: “Xeyr!” – deyə cavab verdikdə, Peyğəmbər > dedi: “Bu şeytan idi!”* *(əl-Buxari: 2311; ən-Nəsai, «əs-Sünən əl-Kubra»: 10795).*

### 2 *“əl-Bəqərə”* sürəsinin son iki ayəsini oxumaq.

Əbu Məsud əl-Ənsari Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *“Hər kim gecə “əl-Bəqərə” surəsinin son iki ayəsini oxuyarsa, bu ona kifayət edər”* *(əl-Buxari: 4008; Müslim: 807).*

“Əl-Bəqərə” surəsinin son iki ayəsi, ancaq yatanda deyil, ümumi olaraq gecə vaxtı oxunan zikrdir. Ona görə kim gecə vaxtı oxuya bilməsə və yatağa girdikdə xatırlasa, qoy o zaman oxusun.

*“...bu ona kifayət edər”* ifadəsinin anlamında alimlər fikir ayrılığına düşüblər.

Kimisi bunu şeytandan qorunma kimi, kimisi gecə namazını əvəz etmək kimi, kimisi də bəlalardan qorunmaq kimi anlamışlar.

İmam Nəvəvi / söyləmişdir: *“Bütün deyilənlər ehtimal olunur”* *(«Şərhun-Nəvəvi Li Muslim», hədis: 808, Fəsil: “əl-Fatihə” surəsinin və “əl-Bəqərə” surəsinin son ayələrinin fəziləti...)*

### 3 Ovuclara *“əl-İxlas”* *“əl-Fələq”* və *“ən-Nas”* surələrini oxuyub bədənə məsh etmək və bunu üç dəfə təkrarlamaq.

Rəvayət edilir ki, Aişə á demişdir: *“Peyğəmbər > hər gecə yatağına uzandıqda əllərini cütləşdirib onların içinə üfürər, sonra ora* ***«Qul huvəllahu əhəd», «Qul ə’uzu birabbil-fələq» və «Qul ə’uzu birabbin-nas»*** *surələrini oxuyar, daha sonra isə əllərini baş və üz nahiyəsindən başlayaraq bacardığı qədər bədənin hər yerinə sürtərdi. Beləcə o, bunu üç dəfə edərdi”* *(əl-Buxari: 5017).*

**Hədisdən çıxarılan fayda:** Hədisdə deyildiyi kimi Peyğəmbər > bu əməli hər gecə edərdi. Bu sünnəni yerinə yetirmək istəyən ovuclarını cütləşdirib onların içinə üfürməli, sonra hədisdə qeyd edilmiş surələri oxumalıdır. Beləcə bunu üç dəfə təkrarlamalıdır.

### 4 *“Əl-Kafirun”* surəsini oxumaq.

Urvə ibn Nofəl atasından rəvayət edir ki, bir gün Peyğəmbər > Nofələ dedi: “(Yatağa girdikdə): ***«Qul ya eyyuhəl-kafirun»*** *surəsini oxu və onu tamamladıqda yat. Həqiqətən də o, şirkdən qorunmadır”* *(Əhməd: 21934; Əbu Davud: 5055; ət-Tirmizi: 3403); əl-Albani hədisi “həsən” hesab etmişdir).*



## 2 Sünnədə gələn zikr və dualar:

1 بِاسْمِكَ اللَّهُمَّ أَمُوتُ وَأَحْيَا

***«Bismikə Allahummə əmutu və əhyə»*** *(Allahın adı ilə ölürük və dirilirik!)* (əl-Buxari: 6324).

2 اللَّهُمَّ خَلَقْتَ نَفْسِي وَأَنْتَ تَوَفَّاهَا، لَكَ مَمَاتُهَا وَمَحْيَاهَا، إِنْ أَحْيَيْتَهَا فَاحْفَظْهَا، وَإِنْ أَمَتَّهَا فَاغْفِرْ لَهَا، اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْعَافِيَةَ

***«Allahummə, xaləqtə nəfsi və əntə təvaffəhə, ləkə məmatuhə və ləkə məhyahə, in əhyəytəhə fəhfəzhə, və in əməttəhə fəğfir ləhə. Allahummə, inni əs'əlukəl-afiyətə»*** *(Allahım! Canımı Sən yaratdın, Sən də onu alacaqsan. Onu öldürmək də, diriltmək də sənə məxsusdur. Onu diriltsən, qoru, öldürsən, bağışla! Allahım! Səndən salamatlıq diləyirəm!)* (Muslim: 2712).

3 اللَّهُمَّ رَبَّ السَّمَاوَاتِ وَرَبَّ الأَرْضِ وَرَبَّ الْعَرْشِ الْعَظِيمِ ، رَبَّنَا وَرَبَّ كُلِّ شَيْءٍ، فَالِقَ الْحَبِّ وَالنَّوَى , وَمُنْزِلَ التَّوْرَاةِ وَالإِنْجِيلِ وَالْفُرْقَانِ ، أَعُوذُ بِكَ مِنْ شَرِّ كُلِّ شَيْءٍ أَنْتَ آخِذٌ بِنَاصِيَتِهِ اللَّهُمَّ أَنْتَ الأَوَّلُ فَلَيْسَ قَبْلَكَ شَيْءٌ ، وَأَنْتَ الآخِرُ فَلَيْسَ بَعْدَكَ شَيْءٌ , وَأَنْتَ الظَّاهِرُ فَلَيْسَ فَوْقَكَ شَيْءٌ ، وَأَنْتَ الْبَاطِنُ فَلَيْسَ دُونَكَ شَيْءٌ ، اقْضِ عَنَّا الدَّيْنَ وَأَغْنِنَا مِنَ الْفَقْرِ

***«Allahummə, rabbəs-səmavati və rabbəl-ard, və rabbəl-arşil-azim. Rabbənə və rabbə kulli şeyin, faliqal-həbbi vən-nəva, munzilət-təuraiti vəl-incili vəl-furqan. Ə'uzu bikə min şərri kulli şeyin əntə axizun binasiyətihi. Allahummə, əntəl-əvvəlu fəleysə qabləkə şeyun, və əntəl-axiru fəleysə bə'dəkə şeyun, və əntəz-zahiru fəleysə fəuqakə şeyun, və əntəl-batinu fəleysə dunəkə şeyun, iqdi annəd-deyn və əğninə minəl-fəqri»*** *(Allahım! Göylərin və yerin Rəbbi, əzəmətli Ərşin Rəbbi, bizim Rəbbimiz və hər bir şeyin Rəbbi! Toxumu və çəyirdəyi cücərdib çatladan, Tövratı, İncili və Furqanı nazil edən! Kəkilindən tutduğun (idarə etdiyin) hər bir şeyin şərindən Sənə sığınıram. Allahım! Sən Əvvəlsən, Səndən əvvəl heç nə yoxdur. Sən Axırsan, Səndən sonra heç nə yoxdur. Sən Zahirsən, Səndən üstə heç nə yoxdur. Sən Batinsən, Səndən iç üzdə heç nə yoxdur! Borcumuzu ödə, bizi yoxsulluqdan qurtar!)* (Müslim: 2713).

4 بِاسْمِكَ رَبِّ وَضَعْتُ جَنْبِي وَبِكَ أَرْفَعُهُ إِنْ أَمْسَكْتَ نَفْسِي فَارْحَمْهَا وَإِنْ أَرْسَلْتَهَا فَاحْفَظْهَا بِمَا تَحْفَظُ بِهِ عِبَادَكَ الصَّالِحِينَ

***«Bismikə rabbi vəda'tu cənbi və bikə ərfəuhu. Fəin əmsəktə nəfsi fərhəmhə və in ərsəltəhə fəhfəzhə bimə təhfəzu bihi ibədikəs-salihin»*** *(Ey Rəbbim! Sənin adınla böyrümü yerə qoydum, Sənin sayəndə də qaldıraram. Ruhumu tutub saxlasan, ona rəhm et! Onu buraxsan, əməlisaleh qullarını qoruduğun kimi onu da qoru!) (əl-Buxari: 6302; Müslim: 2714).*

5 الْحَمْدُ للهِ الَّذِي أَطْعَمَنَا وَسَقَانَا، وَكَفَانَا وَآوَانَا، فَكَمْ مِمَّنْ لاَ كَافِيَ لَهُ وَلاَ مُؤْوِي

Ənəs ibn Malikdən rəvayət edilir ki, Peyğəmbər yatağına uzandıqda bu zikri deyərdi: ***«Əlhəmdulilləhi-l-ləzi ət'amənə va səqanə va kəfənə va əvanə, fə kəm mi-m-mən lə kəfiyə ləhu va lə mu'viyə»*** *(Bizi yedirdən, içirdən, qoruyan və bizə sığınacaq verən Allaha həmd olsun! Neçə-neçə şəxslər vardır ki, onların nə bir qoruyanı, nə də bir sığınacaq verəni var!) (Müslim: 2715).*

6 اللَّهُمَّ قِنِي عَذَابَكَ يَوْمَ تَبْعَثُ عِبَادَكَ

***«Allahummə, qini a'zəbəkə yəumə təba'su ibadəkə»*** *(Allahım! Bəndələrini dirildəcəyin gün məni Öz əzabından qoru!) (Əhməd: 18660; əl-Albani hədisi ''səhih'' hesab etmişdir).*

7 33 dəfə ***«Subhanəllah»***, 33 dəfə ***«Əlhəmdulilləh»*** və 34 dəfə ***«Allahu Əkbər»*** demək.

Yatmazdan öncə bu zikrləri göstərilən sayda etmək sünnədir. Bu zikrləri oxumaq insana böyük fəzilət və bədənə gün ərzində qüvvət verər.

Rəvayət edilir ki, Əli ibn Əbu Talib Ê demişdir: *"Fatimə á əl dəyirmanının (onun əllərində) iz buraxdığından şikayət etdi. (Bir müddətdən sonra) Peyğəmbərə > bir neçə əsir gətirdilər. Fatimə (bu əsirlərlərdən birini özünə köməkçi götürmək məqsədilə) Peyğəmbərin > yanına getdi, lakin onu (evdə) tapa bilmədi, Aişəni görüb (nə istədiyini) ona bildirdi. Peyğəmbər > evə gəldikdə Aişə ona Fatimənin gəldiyini xəbər verdi. Bundan sonra Peyğəmbər > bizə gəldi. Həmin vaxt biz artıq yatağımıza uzanmışdıq. Mən (onu görəndə) ayağa qalxmaq istədim, lakin o: ''Qalxmayın'' – dedi və gəlib aramızda*

*oturdu. Mən hətta onun soyuq ayaqlarının sinəmə toxunduğunu hiss etdim. O dedi: ''Məndən istədiyinizdən daha xeyirlisini sizə öyrədimmi?! Yatağınıza uzandığınız zaman otuz dörd dəfə «Allahu Əkbər», otuz üç dəfə «Subhanəllah» və otuz üç dəfə «Əlhəmdulilləh» deyin. Bu sizin üçün xidmətçidən daha xeyirli olar" (əl-Buxari: 3705; Müslim: 2727).*

Digər rəvayətdə Əli ibn Əbu Talib Ê demişdir: *"(Həmin zikrləri) Peyğəmbərdən > eşitdiyim gündən bəri heç vaxt tərk etməmişəm". Ondan soruşdular: "Hətta Siffin gecəsi belə? O dedi: "Hətta Siffin gecəsi belə" (əl-Buxari: 5362; Müslim: 2727).*

8> **اللَّهُمَّ إِنِّي أَسْلَمْتُ وَجْهِي إِلَيْكَ ، وَفَوَّضْتُ أَمْرِي إِلَيْكَ ، وَأَلْجَأْتُ ظَهْرِي إِلَيْكَ ، رَغْبَةً وَرَهْبَةً إِلَيْكَ. لاَ مَلْجَأَ وَلاَ مَنْجَا مِنْكَ إِلاَّ إِلَيْكَ، آمَنْتُ بِكِتَابِكَ الَّذِي أَنْزَلْتَ، وَبِنَبِيِّكَ الَّذِي أَرْسَلْتَ**

***«Allahummə, əsləmtu vəchi ileykə, və fəvvadtu əmri ileykə, va əlcə'tu zahri ileykə, rağbətən va rahbətən ileykə. Lə məlcə'ə va lə məncəə minkə illə ileykə. Aməntu bi kitəbikə-l-ləzi ənzəltə va bi nəbiyyikə-l-ləzi ərsəltə»*** *(Allahım! Sənə ümid edərək və Səndən qorxaraq üzümü Sənə təslim etdim, işimi Sənə həvalə etdim, kürəyimi Sənə etibar etdim. Sığınacaq və Səndən (əzabından) xilas olmaq üçün nicat yeri yalnız Sənə yönəlməkdir. Sənin nazil etdiyin Kitaba və göndərdiyin Peyğəmbərə iman gətirdim!)*

Bu zikrin rəvayət edildiyi hədisin sonunda Peyğəmbər > belə buyurmuşdur: *"Bu (gün ərzində söylədiyin) son kəlmələr olsun. Əgər (bunları gecə deyib) ölsən, fitrət (iman) üzərə ölmüş olarsan. Əgər səhərə çıxsan, xeyir üzərə səhərə çıxmış olarsan" (əl-Buxari: 247; Müslim: 2710).*

Bu hədis, həmçinin başqa bir sünnə əməli özündə əks etdirir. İnsan bu sünnəyə riayət edərsə, o halda son dediyi sözlər həmin zikr olar və hədisdə deyildiyi kimi əgər onları deyib ölərsə fitrət üzərə ölmüş sayılar. Yəni İbrahimin *(Allahın salamı olsun ona)* milləti – hənif dini üzərə ölmüş sayılar. Yox əgər səhərə çıxarsa, onda da xeyir üzərə sabahlayar. Yəni ruzisində və əməllərində xeyirə nail olar.

Allah doğrusunu bilir, amma bu kəlmələr indiyə qədər qeyd etdiyimiz bütün xeyirləri özündə ehtiva etməkdədir.



◆ Zikr etmək müsəlmanı keçilməz qala kimi qoruyar və qəlbini daim diri saxlayar. Elə isə sən də zikr edənlərdən ol! Peyğəmbər > demişdir: *“Rəbbini zikr edənlə zikr etməyənin məsəli diri ilə ölünün məsəlinə bənzəyər”.*

اللَّهُمَّ أَنْتَ رَبِّي لَا إِلَهَ إِلَّا أَنْتَ خَلَقْتَنِي وَأَنَا عَبْدُكَ وَأَنَا عَلَى عَهْدِكَ وَوَعْدِكَ مَا اسْتَطَعْتُ أَعُوذُ بِكَ مِنْ شَرِّ مَا صَنَعْتُ أَبُوءُ لَكَ بِنِعْمَتِكَ عَلَيَّ وَأَبُوءُ لَكَ بِذَنْبِي فَاغْفِرْ لِي فَإِنَّهُ لَا يَغْفِرُ الذُّنُوبَ إِلَّا أَنْتَ

Bütün qeyd edilən zikrlərdən əlavə olaraq xüsusi diqqət yetirəcəyimiz zikri nəzərinizə çatdırmaq istərdim. Bu, Allahın nemət olaraq bizə bildirdiyi, *“Seyyidul-istiğfar“* (Ən fəzilətli bağışlanma diləmə) adı ilə tanınan əzəmətli və fəzilətli zikrdir. Şəddad ibn Ovs Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *“Ən üstün istiğfar belədir: **«Allahummə, əntə rabbi lə iləhə illə ənt, xaləqtəni və ənə abdukə, və ənə alə ahdikə və və’dikə məs-təta’tu, ə’uzu bikə min şərri mə sanə’tu. Əbu’u ləkə bini’mətikə aleyyə, və əbu’u bizənbi. Fəğfir li fə innəhu lə yəğfiruz-zunubə illə ənt»** (Allahım! Sən mənim Rəbbimsən. Səndən başqa haqq məbud yoxdur. Məni sən yaratdın və mən sənin qulunam. Gücüm çatan qədər Sənə verdiyim əhdə və vədə sadiqəm. Etdiklərimin şərindən Sənə sığınıram. Mənə verdiyin neməti etiraf edirəm və günahlarımı boynuma alıram. Məni bağışla! Şübhəsiz ki, günahları yalnız Sən bağışlayırsan!) Sonra Peyğəmbər > buyurdu: “Kim gündüz vaxtı bu duanı yəqinliklə deyər və həmin gün axşam düşməzdən əvvəl ölərsə Cənnət əhlindən olar. Habelə kim axşam ikən bunu yəqinliklə deyər və səhər açılmazdan əvvəl ölərsə Cənnət əhlindən olar”* *(əl-Buxari: 6306).*



## Yuxu ilə əlaqəli sünnə əməllər:

Əbu Hureyradan Ê rəvayət edilən hədisdə yuxu aşağıda sadalanan üç qismə bölünür:

1. Uca Allahdan müjdə olan saleh yuxu.
2. Şeytanın təlqin etdiyi kədərləndirici yuxu.
3. Yaddaşa həkk olunmuş hadisələrlə bağlı yuxular.

## Yuxu ilə əlaqəli sünnə əməllər aşağıdakı hədislərdə qeyd edilmişdir:

Rəvayət edilir ki, Əbu Sələmə Ê belə demişdir: *“Mən bir yuxu görmüşdüm və onun üzündən xəstələndim. Nəhayət Əbu Qatədənin Ê bunları söylədiyini eşitdim: “Peyğəmbər > belə demişdir: “Yaxşı yuxu Allahdandır. Sizdən biriniz yaxşı yuxu görərsə, o yuxunu yalnız sevdiyi adama danışsın. Xoşuna gəlməyən bir yuxu gördükdə isə, həmin yuxunun və şeytanın şərindən Allaha sığınsın, sonra da üç dəfə sol tərəfinə tüpürsün və yuxusunu heç kəsə danışmasın. Əgər belə edərsə bu yuxu ona zərər verməz”.*

Əbu Sələmə dedi: *“(Bu cür) yuxular görmək mənə dağdan da ağır gələrdi. Lakin bu hədisi eşitdikdən sonra artıq (mənə zərər gələcəyindən) narahat deyildim”* (əl-Buxari: 5747; Müslim: 2261).

Başqa bir hədisdə isə deyilir: *“Gözəl yuxu Allahdandır. Xoşagəlməz yuxu isə şeytandandır. Əgər biriniz xoşagəlməz yuxu görüb əndişəyə düşərsə, qoy sol tərəfinə yüngülcə tüpürsün və bu yuxunun şərindən Allaha sığınsın. Belə etsə, həqiqətən də, bu yuxunun ona heç bir zərəri dəyməz”* (əl-Buxari: 3292; Müslim: 2261).

Cabir ibn Abdullah Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *“Əgər biriniz xoşagəlməz bir yuxu görərsə, qoy üç dəfə şeytandan Allaha sığınsın və digər böyrü üstə çevrilsin”* (Müslim: 2262).

Əbu Səid əl-Xudri Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *“Sizdən biriniz xoşagələn bir yuxu görərsə, (bilsin ki,) bu ancaq Allahdandır. Belə olduğu təqdirdə Allaha həmd-səna etsin və onu (sevdiyi) adamlara danışsın”* (əl-Buxari: 7045).

## Nəticə:

1. **Yaxşı bir yuxu gördükdə aşağıdakı əməlləri etmək sünnədir:**

   Birinci: Allaha həmd-səna etmək. Çünki yaxşı yuxu pak və nöqsansız Allahdandır.

   İkinci: Yuxunu yalnız sevdiyin insanlara danışmaq.

2. **Xoşagəlməyən bir yuxu gördükdə aşağıdakı əməlləri etmək sünnədir:**

   Birinci: Üç dəfə sol tərəfə (dil ucu) tüpürmək.

   İkinci: Şeytandan və gördüyü yuxunun şərindən üç dəfə Allaha sığınmaq: ***«Ə'uzu billəhi minəş-şeytan və min şərrihə»*** *(Şeytandan və pis yuxudan Allaha sığınıram).*

   Üçüncü: Yuxunu heç kəsə danışmamaq. Yox əgər danışarsa yenə də ona zərər verməz.

   Dördüncü: Digər böyrü üstə çevrilmək. Məsələn, kürəyi üstə uzanılıbsa, çevrilərək böyrü üstə uzanmaq.

   Beşinci: Qalxıb iki rükət namaz qılmaq.

## Gecə yuxudan oyananın növbəti zikri oxuması sünnədir:

لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ ، الْحَمْدُ لِلَّهِ وَسُبْحَانَ اللَّهِ ، وَلَا إِلَهَ إِلَّا اللَّهُ ، وَاللَّهُ أَكْبَرُ ، وَلَا حَوْلَ وَلَا قُوَّةَ إِلَّا بِاللَّهِ

Ubadə ibn əs-Samit Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *"Kim gecə oyanarkən:* ***«Lə iləhə illəllahu vəhdəhu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir, əlhəmdulilləhi, və subhanəllahi, və lə iləhə illəllahu, vəllahu əkbər, və lə haulə və lə quvvətə illə billəh»*** *(Allahdan başqa ibadətə layiq məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Bütün varlıq və kamil həmd yalnız Ona məxsusdur! Onadır! O hər şeyə Qadirdir. Allah pak və nöqsansızdır. Kamil həmd Allaha məxsusdur. Allahdan başqa haqq məbud yoxdur. Allah hər şeydən böyükdür. Qüdrət və güc yalnız Allahdadır!) – deyə (zikr etdikdən) sonra:* ***«Allahummə-ğfir li»*** *(Allahım, məni bağışla!) – desə, və ya dua etsə, ona cavab verilər, qalxıb dəstəmaz alıb namaz qılsa, namazı qəbul olar"* (əl-Buxari: 1154).

İbn Əsir / demişdir: ''Kim gecə oyanarkən…» ifadəsi gecə yuxudan oyanıb qalxsa anlamındadır'' *(Bax: «ən-Nihayə fi ğaribil-əsər», səh.108).*

Deməli, yuxudan oyanıb hədisdə qeyd edilən zikri deyən üçün aşağıdakı iki əzəmətli müjdə vardır:

**Birinci:** Əgər ''Allahummə-ğfir li'' (Allahım, məni bağışla!) desə və ya umumən dua etsə duası qəbul olar.

**İkinci:** Qalxıb dəstəmaz alıb namaz qılsa namazı qəbul olar.

*Biz də öz növbəsində bəxş etdiyi bu cür nemətlərə görə Allaha həmd-səna edirik və Ondan bu əməllərimiz üçün müvəffəqiyyət diləyirik!*

Bununla da ***''Zamanla bağlı sünnə əməllər''*** bölümünü bitirib digər bölümə keçirik.







# Zamanla bağlı olmayan sünnə əməllər

Bu, *Gündəlik Sünnələr* qisminin ikinci bölümüdür. Bu qisim sünnələrin əməl dairəsi daha genişdir. Çünki onlar şəraitə, şəxsə, məkana və zamana görə dəyişir.

Beləliklə sizə gün ərzində gecə və gündüz edilən sünnə əmməlləri təqdim edirəm. Eyni zamanda da Allahdan diləyirəm ki, həmin sünnələri yerinə yetirməyi bizə nəsib etsin və səhvlərimizi düzəltsin!

## Birinci: Yeməyə vaxtı edilən sünnələr



### 1 Yeməyə başlayarkən *«Bismilləh» (Allahın adı ilə!)* demək.

Rəvayət edilir ki, Ömər ibn Əbu Sələmə Ê demişdir: *"Mən Peyğəmbərin > himayəsi altında böyüyən bir uşaq idim. Yemək yeyəndə mən əlimi qabın hər tərəfinə uzadardım. (Bir dəfə) Peyğəmbər > mənə belə dedi: "Balaca, «Bismilləh» de, özün də sağ əllə və öz qabağından ye!" O gündən bəri mən yeməyi ancaq bu qaydada yeyirəm"* (əl-Buxari: 5376; Müslim: 2022).

بسم الله أوله وآخره

Yeməyə başlayarkən ***«Bismilləh»*** deməyi unudan ***«Bismilləhi əvvələhu və axirahu»*** (Əvvəlində də, axırında da Allahın adı ilə) desin.

Aişədən á Peyğəmbərin > belə dediyi rəvayət edilir: *"Sizdən biriniz yeməyə başladıqda Allahın adı ilə (**«Bismilləh»** deyərək) başlasın! Əgər əvvəlində deməyi unutsa, o halda desin: **«Bismilləhi fi əvvəlihi və axirihi»** (Əvvəlində də, axırında da Allahın adı ilə!)"* (Əbu Davud: 3767; ət-Tirmizi: 1858; əl-Albani hədisi "səhih" hesab etmişdir).

İnsan yeməyi sağ əllə yeməlidir ki, şeytana bənzəməsin. Çünki şeytan sol əllə yeyər və içər. Həmçinin əgər müsəlman yeməyə başladıqda *«Bismilləh»* deməzsə, o halda da şeytan onun yeməyinə şərik olar.

Abdullah ibn Ömər Ê rəvayət edir ki, Peyğəmbər > buyurub: *"Sizdən heç kim sol əli ilə yeməsin və sol əli ilə içməsin! Çünki şeytan sol əli ilə yeyər və sol əli ilə içər." Nafi I həmin hədisə bunu da əlavə etmişdir: "Sol əli ilə almasın və sol əli ilə verməsin!"* (Müslim: 2020).

Həqiqətən də şeytan evələrə daxil olub orada gecələməyə, həmçinin oradakı yeməyə və içməyə şərik olmağa çox hərisdir. Rəvayət edilir ki, Cabir ibn Abdullah Ê Peyğəmbərin > belə dediyini eşitdi: *"Evinə girən adam içəri daxil olduqda və yeməyə başladıqda Allahı zikr edərsə, şeytanlar deyərlər: "Sizin nə gecələməyə yeriniz, nə də şam yeməyiniz var!" Yox əgər evə daxil olduqda və yeməyə başladıqda Allahın adını zikr etməsə, şeytanlar deyər: "Budur qalmağa yeriniz və budur yeməyə şam yeməyiniz"* (Müslim: 2018).

### 2 Yeməyi özünə yaxın olan hissədən yemək.



Az öncə qeyd etdiyimiz Ömər ibn Əbu Sələmənin Ê rəvayət etdiyi hədisdə deyilir: *"(Yeməyə başladıqda) «Bismilləh» de, özün də sağ əllə və öz qabağından ye!"*

### 3 Yemək yeyərkən yerə düşən tikəni götürüb təmizləmək və yemək.

Rəvayət edilir ki, Cabir ibn Abdullah Ê Peyğəmbərin > belə dediyini eşitdi: *"Həqiqətən şeytan insana hər bir işində yaxınlaşar. Hətta yemək yedikdə də gələr. Əgər (yemək yeyərkən) birinizin əlindən tikəsi yerə düşərsə, qoy onu təmizləyib yesin, şeytana buraxmasın! Yeməyini bitirdikdə isə barmaqlarını yalasın, çünki bərəkətin hansı loxmada olduğunu bilmir"* (Müslim: 2033).

Əgər hədisdə keçən *"Həqiqətən şeytan insana hər bir işində yaxınlaşar…"* ifadəsinə diqqət etsək görərik ki, şeytan hər bir cəhdlə insanı hər növ xeyir-bərəkətdən məhrum etməyə çalışır.

### 4 Yeməyi bitirdikdə barmaqları yalamaq.



Yeməyi bitirdikdə barmaqları (dəsmal, salfet və s. ilə) silməmişdən əvvəl dilin ucu ilə yalamaq və ya bunu öz zövcəsinə etdirmək sünnədir.

Bunun sübutu az öncə qeyd etdiyimiz Cabir ibn Abdullahın Ê rəvayət etdiyi hədisdir.

Həmçinin İbn Abbasdan Ê rəvayət edilir ki, Peyğəmbər > demişdir: *"Biriniz yemək yedikdə əlini yalamayınca və ya (əhli-əyalına) yalatdırmayınca onu (heç nəyə) silməsin"* *(əl-Buxari: 5456; Müslim: 2033).*

### 5 Yemək qabını siyirmək.



Yəni yemək yeyilən qabın dibini siyirmək. Məsələn, insan düyü yedikdə sünnədəndir ki, yemək qabını siyirib orda qalanı yesin. Çünki bərəkət son tikədə ola bilər.

Rəvayət edilir ki, Ənəs ibn Malik Ê demişdir: *"Peyğəmbər > yemək yediyimiz qabın dibini siyirməyi bizə əmr etdi"* *(Müslim: 2034).* Əbu Hureyradan Ê rəvayət olunan başqa bir hədisdə deyilir: *"Qablarınızda qalan yeməyi siyirin"* *(Müslim: 2035).*

İbn Useymin / demişdir: ''Təəssüflər olsun ki, insanların, hətta elm tələbələrinin də unutduğu sünnələrdən biri də qabda qalan yeməyin barmaqlarla siyirilib yeyilməsidir'' *(Bax: «Şərhu Riyadus-Salihin», 1/892).*

## 6 Üç barmaqla yemək.

Üç barmaqla yemək sünnədir. Buna misal olaraq xurmanı demək olar.



Rəvayət edilir ki, Kə’b ibn Malik Ê demişdir: *“Peyğəmbər > yeməyi üç barmaqla yeyər, bitirdikdə isə silməmişdən əvvəl onları yalayardı”* (Müslim: 2032).

## 7 Nəfəs alıb-verdikdə qabı özündən uzaqlaşdırmaq.

Suyu və ya digər içəcəkləri üç nəfəsə içmək sünnədir.



Ənəsdən Ê rəvayət edilir: *“Peyğəmbər > (su içərkən) üç dəfə nəfəs alardı və deyərdi: “Bu cür etmək daha faydalı, daha xoş və daha şəfalıdır”. Ənəs dedi: “Mən də (su) içərkən üç dəfə nəfəs alıram”* (əl-Buxari: 5631; Müslim: 2028).

Lakin bilmək lazımdır ki, nəfəs alarkən içiləcək qabı ağızdan uzaqlaşdırmaq lazımdır, çünki qaba nəfəs alıb-vermək məkruh əməldir. Əbu Qatədədən rəvayət edilir ki, Peyğəmbər > demişdir: *“Sizdən biriniz (su və s.) içərkən nəfəsini qaba alıb verməsin”* (əl-Buxari: 5630; Müslim: 267).

## 8 Yeməkdən sonra Allaha həmd etmək.

Ənəs ibn Malik Ê rəvayət edir ki, Peyğəmbər > buyurmuşdur: *“Allah yeməyini bitirdikdən sonra Ona həmd edən qulundan razı qalar. Həmçinin (su və s.) içdikdən sonra Ona həmd edən qulundan razı qalar”* (Müslim: 2743).



**Həmd etməyin bir neçə şəkli vardır. Onlardan bəzilərini sadalayaq:**

1. الْحَمْدُ لِلَّهِ كَثِيرًا طَيِّبًا مُبَارَكًا فِيهِ غَيْرَ مَكْفِيٍّ ، وَلَا مُوَدَّعٍ ، وَلَا مُسْتَغْنًى عَنْهُ رَبَّنَا
   ***«Əlhəmdulilləhi lilləhi həmdən kəsiran tayyibən mubarakən fihi ğayra məkfiyyun və lə muvəddəin və lə mustəğnən anhu Rabbənə»*** *(Rəbbimiz Allaha həmd olsun! (Özü də) çoxlu, xoş, mübarək, sonsuz, ardı-arası kəsilməyən, onsuz keçinmək mümkün olmayan həmd!) (əl-Buxari: 5458).*
2. الْحَمْدُ لِلَّهِ الَّذِي كَفَانَا وَأَرْوَانَا غَيْرَ مَكْفِيٍّ، وَلَا مَكْفُورٍ
   ***«Əlhəmdulilləhi-l-ləzi kəfanə və ərvanə ğayra məkfiyyun və lə məkfurin»*** *(Ehtiyacımızı ödəyən və susuzluğumuzu yatıran Allaha həmd olsun, (özü də) sonsuz və inkar olunmayan həmd!) (əl-Buxari: 5459).*

### 9 Yeməyi camaat halında yemək.



Yeməyi (şəraitə uyğun olaraq) camaat şəklində yemək sünnə əməllərdəndir.

Rəvayət edilir ki, Cabir ibn Abdullah È Peyğəmbərin > belə dediyini eşitdi: *"Bir nəfərin yeməyi iki nəfərə bəs edər, iki nəfərin yeməyi isə dörd nəfərə bəs edər, dörd nəfərin yeməyi də səkkiz nəfərə bəs edər" (Müslim: 2059).*

### 10 Yeməyi bəyəndikdə onu tərifləmək.

Cabir ibn Abdullahdan Ê rəvayət edilir: *"(Bir gün) Peyğəmbər > ev əhlindən yeməyə bir şey istədikdə ona dedilər: "Evdə (quru çöréklə) yemək üçün "əl-udumul-xəl" dən başqa heç nə yoxdur". O da ondan yeməyə başlayıb dedi: "Necə də gözəl təamdır "əl-udumul-xəl", necə də gözəl təamdır "əl-udumul-xəl" " (Müslim: 2052).*

*"Əl-udumul-xəl"*: O zamanlar quru çörəyi batırıb yemək üçün sirkəyə oxşar mət şirə.

Bu haqda şeyximiz İbn Useymin / belə söyləmişdir: *''Həmçinin Peyğəmbərin > etdiyi əməllərdən ki, yediyi təam xoşuna gəldikdə onu tərifləyərdi. Ona görə yediyi çörəyi bəyənən kimsə ''Necə*

*də gözəl çörəkdir!'' və ya buna oxşar ifadələr işlətsə, o zaman o, Peyğəmbərin > sünnəsinə riayət etmiş sayılır''* (Bax: «Şərhu Riyadus-Salihin», 2/1057).

Lakin diqqət yetirsək görərik ki, dövrümüzdəki bəzi insanlar, nəinki Peyğəmbərin > bu sünnəsinə əməl etmirlər, əksinə onun ziddinə gedərək yedikləri təamları pisləyirlər. Rəvayət edilir ki, Əbu Hureyra demişdir: *"Peyğəmbər > heç vaxt heç bir yeməyi pisləməzdi. Yemək xoşuna gəldikdə onu yeyər, əks halda onu tərk edərdi"* (əl-Buxari: 3563; Müslim: 2064).

## 11 Yemək verən üçün dua etmək.

اللَّهُمَّ بَارِكْ لَهُمْ فِي مَا رَزَقْتَهُمْ ، وَاغْفِرْ لَهُمْ ، وَارْحَمْهُمْ

Rəvayət edilir ki, Abdullah ibn Busr Ê demişdir: *"(Bir gün) Peyğəmbər > atamın evinə gəldi. Onun önünə yemək və ''vatbə'' (tərc. – qida növü) qoyduq, o da ondan yedi. Sonra ona xurma verildi, o da onu yeyərkən tumlarını iki barmağı – şəhadət və orta – arsında saxlayırdı. Daha sonra ona içəcək verildi, o da bir az içib qabı sağ tərəfində olan şəxsə ötürdü… (Gedəndə) atam onun miniyinin yedəyindən tutaraq dedi: ''Bizim üçün Allaha dua et''. O da (dua edib) dedi: «Allahummə barik ləhum fi mə razəqtəhum, vəğfir ləhum, vərhəmhum» (Allahım! Onlara verdiyin rüzini bərəkətli et, onları bağışla və onlara rəhm et!)"* (Müslim: 2042).

## 12 İçiləcək qabı soldan öncə sağ tərəfə ötürmək.

İçdikdən sonra həmin içki bardağının soldan öncə sağ tərəfdəki şəxsə verilməsi sünnədir.

Rəvayət edilir ki, Ənəs ibn Malik Ê demişdir: *"(Bir dəfə) Peyğəmbərə > içməyə süd verildi, o da ondan içdi. Həmin vaxt solunda Həzrəti Əbu Bəkr, önündə Həzrəti Ömər, sağında da bir bədəvi oturmuşdu. Peyğəmbər > süd bardağını ağzından çəkəndə Həzrəti Ömər Əbu Bəkri ona göstərərək dedi: ''Ya Rəsulullah, budur Əbu Bəkr''. (Lakin) Peyğəmbər süd bardağını Əbu Bəkr və Ömərdən öncə bədəvi ərəbə verib dedi: ''Öncə sağdakılar, öncə sağdakılar, öncə sağdakılar." Ənəs demişdir: "Sünnə olan budur, sünnə olan budur, sünnə olan"* (əl-Buxari: 2571; Müslim: 2029).

### 13 Camaata su verənin özünün sonda içməsi.



Camaata su paylayanın özünün axırda içməsi sünnə əməldir.

Əbu Qatədən Ê rəvayət edilən uzun hədisdə deyilir: *"...Peyğəmbər > camaata su süzüb paylayırdı. Orada olanlar hamı sudan içdi və içməyən yalnız mən və Allah Rəsulu qaldı. Sonra Peyğəmbər > bardağı bir daha doldurub (mənə uzadaraq) dedi: "Sən də iç!" Mən isə dedim: "Ya Rəsulallah, sən içməyincə mən içə bilmərəm" (Onda) Allah Rəsulu dedi: "Camaata su paylayan özü axırda içməlidir"* (Müslim: 681).

**Qeyd:** Süd içdikdən sonra yığılmış yağı təmizləmək üçün ağzı su ilə yaxalamaq sünnədir. İbn Abbas Ê rəvayət edir ki, Peyğəmbər > süd içdikdən sonra bir bardaq su istədi və onunla ağzını yaxalayıb dedi: *"Həqiqətən o, yağlıdır"* (əl-Buxari: 211; Müslim: 358).

### 14 Gecə düşdükdə Uca Allahın adını zikr edərək qabların ağzını örtmək.



Əvvəlki bölümlərdə qeyd etdik ki, gecə düşdükdə *«Bismilləh»* deyərək (örtülə bilən) qabların ağzını örtmək sünnədir.

Cabir ibn Abdullah rəvayət edir ki, Peyğəmbər > belə buyurmuşdur: *"Qab-qacağın üstünü örtün və su tuluqlarının ağzını bağlayın! Çünki ildə bir gecə vardır ki, həmin gecə vəba xəstəliyi yer üzünə enir, sonra da üstündən keçdiyi elə bir ağzı açıq tuluq və elə bir üstü açıq qab qalmır ki, onun içinə girməmiş olsun".* (Müslim: 2014)

Cabirdən Ê rəvayət olunan başqa bir hədisə deyilir: *"Yatağınıza girməzdən öncə Allahın adını zikr edərək su tuluqlarınızın ağzını bağlayın. Allahın adını zikr edərək qab-qacağınızın da ağzını, hətta üstünə bir şey qoymalı olsanız belə, örtün..."* (əl-Buxari: 5623).

## İkinci: Salamlaşma, görüş və məclis sünnələri



### 1 Salam vermək.

Əbu Hureyra Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *“Müsəlmanın müsəlman üzərində altı haqqı vardır. Soruşdular: “Nədir onlar?” Peyğəmbər > buyurdu: “Müsəlmanla rastlaşdığın zaman ona salam ver, səni dəvət etdikdə dəvətini qəbul et, nəsihət istədikdə ona nəsihət ver, asqırıb («Əlhəmdulilləh» deyərək) Allahı həmd etdikdə ona rəhmət dilə, xəstələndikdə onu ziyarət et və öldükdə dəfnində iştirak et”* *(Müslim: 2162).*

**Bilməliyik ki, salamı qaytarmaq vacibdir. Hətta bu xüsusda, Uca Allah buyurur:**

***“Sizə salam verildiyi zaman onu daha gözəl alın və ya (eynilə sahibinə) qaytarın! Şübhəsiz, Allah hər şeyi hesaba alandır ”*** **(ən-Nisa: 86).**

Gördüyümüz kimi ayədə salamı qaytarmaq əmr formasında gəlmişdir. Biz də bilirik ki, şəri dəlillərdə işlənən əmr ifadələri vacibliyə dəlalət etməkdədir. Buna görə də bir çox alimlər salamı almağın vacibliyi qənaətində həmfikir olublar. İbn Həzm, İbn Abdul-Bərr, Şeyx Təqiyuddin və sair alimləri buna misal çəkmək olar *(Bax: «əl-Ədəbul əş-Şəri’ə», 1/356).*

السلام عليكم ورحمة الله وبركاته

Salam verib-almağın ən əfzəl və kamil tərzi: ***«Əssələmu aleykum va rahmətullahi va bərakətuhu»*** *(Allahın salamı, rəhməti və bərəkəti sizin üzərinizə olsun!)* – deməkdir.

İbn Qayyim / söyləmişdir: *“Peyğəmbər > salamı «…va bərakatuhu» ifadəsi ilə bitirərdi” (Bax: «Zadul-Məad», 2/417).*

**Salamı yaymaq.**

Dinimizdə salamı yaymaq böyük fəziləti qazanmaq üçün ona təşviq edilmiş sünnə bir əməldir. Əbu Hureyradan rəvayət edilir ki, Peyğəmbər > demişdir: *“Canım Əlində olan (Allaha) and olsun ki, iman gətirmədikcə Cənnətə girə bilməzsiniz. Bir-birinizi sevmədikcə də həqiqi iman gətirmiş sayılmazsınıız. Elə isə sizi bir şeyə yönəldimmi ki, onun sayəsində bir-birinizi sevəsiniz?! Aranızda salamı yayın!” (Müslim: 54).*

## 2 Ehtiyac duyularsa salamı üç dəfə təkrarlamaq.

Əgər insan salam verdiyi şəxsin onun salamını eşitmədiyini zənn etsə, o halda bir daha salamını ikinci dəfə, onu da eşitməsə üçüncü dəfə təkrarlaması müstəhəbdir. Yaxud da bir məclisə daxil olan insan salam verdikdə salamını yalnız yaxında olan eşidərsə, həmçinin onun da salamını ikinci və ya üçüncü dəfə təkrarlamasına ehtiyac vardır.

Rəvayət edilir ki, Ənəs Ê demişdir: *“Peyğəmbər > bir şeyi anlatdıqda onu üç dəfə təkrar edərdi ki, onu yaxşı qavrasınlar. Həmçinin bir topluma salam verdikdə (onu eşitmədiyini hiss etdikdə) salamını üç dəfə təkrar edərdi” (əl-Buxari: 95).*

Hədisdən çıxan nəticə budur ki, əgər ehtiyac duyularsa deyilənləri iki və ya üç dəfə təkrar etmək sünnədir. Məsələn, insan bir şey anlatdıqda dinləyicilərin onu anlamadığını hiss edərsə, o halda dediklərini ikinci, yaxud da üçüncü dəfə təkrarlaması sünnədir.

### 3 Tanıdığına və tanımadığına salam vermək.

Abdullah ibn Amr È rəvayət edir ki, bir nəfər Peyğəmbərdən > soruşdu: *"Ya Rəsulullah, İslam (xislətlərindən) ən xeyirlisi hansıdır?" Peyğəmbər > buyurdu: "Yemək yedirtməyin, bir də ki, tanıdığına və tanımadığına salam verməyin" (əl-Buxari: 12; Müslim: 39).*

### 4 Salama sünnədə göstərilən şəxs öncə başlamalıdır.

Əbu Hureyra Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *"Minik üstə olan kəs piyadaya, piyada oturana və az sayda olan toplum çox sayda olanlara salam verməlidir"(əl-Buxari: 6233; Müslim: 2160).*

Digər rəvayətdə isə deyilir: *"Kiçik böyüyə, piyada oturana və az sayda olan toplum çox sayda olanlara salam verməlidir" (əl-Buxari: 6234).*

*Lakin elə anlaşılmamalıdır ki, bunun əksi, məsələn, böyüyün kiçiyə, oturanın piyadaya salam verməsi məkruhdur. Sadəcə olaraq sünnədə göstərilən daha üstün əməldir.*

### 5 Uşaqlara salam vermək.



Rəvayət edilir ki, (bir dəfə) Ənəs ibn Malik Ê bir dəstə uşağın yanından keçərkən onlara salam verdi və dedi: *"Peyğəmbər > belə edərdi" (əl-Buxari: 6247; Müslim: 2168).*

Uşaqlara salam verməyin hikməti insanın özündə təvazökarlığı tərbiyə etməsi və uşaqların salama vərdiş edilməsidir.

### 6 Evə daxil olduqda salam vermək.

Həmçinin evə girdikdə ev əhlini bildiyimiz salam forması ilə salamlamaq sünnədir. Habelə salamdan öncə misvakdan istifadə etmək müstəhəbdir (Bu da misvakın əvvəlki bölümlərdə qeyd etdiyimiz dördüncü istifadə yeridir). Aişə á demişdir: *"Peyğəmbər > evə daxil olduqda ilk əvvəl misvakla dişlərini təmizləyərdi" (Müslim:253).*



Bəzi alimlər hər hansı bir evə, hətta boş ev olsa da belə, ora daxil olduqda salam verməyin sünnə olduğunu bildiriblər və dəlil olaraq da növbəti ayəni gətiriblər: ***"Evlərə daxil olduğunuz zaman özünüzü (bir-birinizi, qohum-əqrabanızı, dostlarınızı və dindaşlarınızı) Allah dərgahından bərəkət və xoşluq diləyən bir salamla salamlayın. Allah ayələri sizə belə izah edir ki, düşünüb daşınasınız!"*** ***(ən-Nur: 61).***

İbn Həcər / söyləmişdir: *"Salamı yaymağa həmçinin, boş evə girdikdə salam vermək də salamı yaymaq qisminəndir. Uca Allah buyurur:* ***"Evlərə daxil olduğunuz zaman özünüzü Allah dərgahından bərəkət və xoşluq diləyən bir salamla salamlayın!.."*** ***(ən-Nur: 61)*** *(Bax: «Fəthul-Bari», Salamı yaymaq bölümü, hədis 6235).*

**Fayda:** Yuxarıda qeyd edilənlərdən çıxan nəticə budur ki, evə daxil olduqda edilən üç sünnə əməl vardır:

1. **Birinci:** Allahın adını zikr etmək, xüsusən də gecə düşdükdə.

   Rəvayət edilir ki, Cabir ibn Abdullah Peyğəmbərin belə dediyini eşitdi: *"Evinə girən adam içəri daxil olduqda və yeməyə başladıqda Allahı zikr edərsə, şeytanlar deyərlər: "Sizin nə gecələməyə yeriniz, nə də şam yeməyiniz var!" Yox əgər evə daxil olduqda və yeməyə başladıqda Allahın adını zikr etməyərsə, şeytanlar deyər: "Budur qalmağa yeriniz və budur yeməyə şam yeməyiniz"* *(Müslim: 2018).*

2. **İkinci:** Misvakdan istifadə etmək.

3. **Üçüncü:** Ev əhlinə salam vermək.

## 7 Yatan adamlar olan yerə gəldikdə salamı alçaq səslə vermək.

Rəvayət edilir ki, Miqdad ibn Əsvəd Ê demişdir: *"Peyğəmbər > gecə vaxtı gəlib salam verərkən səsini qaldırıb yatanları oyatmaz, lakin asta səslə onu oyaq qalanlara eşitdirərdi"* *(Müslim: 2055).*

## 8 Salamı çatdırmaq.

Bir şəxsin salamını digərinə çatdırmaq sünnədir.

Aişə á rəvayət edir ki, (bir zaman) Peyğəmbər > ona demişdir: *"Ey Aişə! Cəbrail sənə salam söyləyir." Aişə də cavabında demişdir: "Ona salam olsun, Allahın rəhməti və bərəkəti ona yetişsin!" (əl-Buxari: 3117; Müslim: 2447).*

Həmçinin bu hədisdən aydın olur ki, salamı çatdırmaqla yanaşı, kiməsə salam göndərmək də sünnə əməldir.

### 9 Məclisə gəldikdə və oradan ayrıldıqda salam vermək.

Əbu Hureyra Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *"Sizdən hər biriniz məclisə gəldiyi zaman salam versin. Məclisdən durub getdikdə də salam versin. Bilsin ki, onun əvvəlki salamı sonuncu salamdan heç də üstün deyildir" (Əhməd: 9664; Əbu Davud: 5208; ət-Tirmizi: 2706; əl-Albani hədisi səhih hesab etmişdir (bax: «Sahihul-Cami», 1\132).*

### 10 Salam verərkən əllə görüşmək



Qatədə Ê rəvayət edir ki, (bir gün) Ənəsdən soruşdum: *"Peyğəmbərin > sahabələri salam verəndə əllə görüşərdilərmi? (Ənəs) dedi: "Bəli" (əl-Buxari: 6263).*

### 11 Salam verərkən gülərüz olub təbəssüm etmək.



Əbu Zərr Ê rəvayət edir ki, Peyğəmbər > ona belə demişdir: *"(Dində) heç bir yaxşı işə səhlənkar yanaşma, hətta (müsəlman) qardaşını gülərüzlə qarşılamağı belə!" (Müslim: 2626).* Başqa hədisdə isə deyilir: *"(Sənin) müsəlman qardaşına təbəssüm etmən sədəqədir" (ət-Tirmizi: 1956; əl-Albani hədisi "səhih" hesab etmişdir: «əs-Sahiha», 572).*

## 12 Gözəl söz sədəqədir.

İstər görüş anında, istər məclisdə, istərsə də hər hansı bir yerdə bir gözəl sözün deyilməsi sünnə əməldir.

Əbu Hureyra Ê Peyğəmbərin > belə dediyini rəvayət edir: *"Gözəl söz sədəqədir" (əl-Buxari: 2989; Müslim: 1009).*

Bilmək lazımdır ki, müsəlmanların əksər danışıqları gözəl və ya xoş sözlərdən ibarətdir. Əgər bunu hesablamaq istəsələr, nə qədər böyük savab əldə etdiklərini görərlər.

İbn Useymin / söyləmişdir: *''Necəsən?'', ''Kefin necədir?'', ''Qardaşların necədir?'' ,''Ailən necədir?''* və bu kimi ifadələr də gözəl (və ya xoş) söz qismindəndir. Çünki bu kəlmələr insana xoş təsir bağışlayır. Bununla da müsəlman dediyi hər bir xoş sözə görə Allah dərgahında savab və əcr qazanır» *(Bax: «Şərhu Riyadus-Salihin», 2/996).*

## 13 Məclisdə Allahı zikr etmək.

Zikr məclislərinin fəziləti və onlara təşviq barədə bir çox hədislər vardır. Onlardan birində Əbu Hureyra Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *"Allahın yollarda dolaşıb Onu zikr edən insanları axtaran mələkləri vardır. Onlar Allahı yad edən camaat gördükləri zaman bir-birilərini çağırıb: ''Axtardığınızın yanına gəlin!'' – deyirlər. Sonra da onlar bu camaatı öz qanadları ilə dünya səmasınadək əhatəyə alırlar..." (əl-Buxari: 6408; Müslim: 2689).*

## 14 Məclisin sonunda *"Kəffarətul-məclis"* (Məclisin kəffarəsi) zikrini oxumaq.

سُبْحَانَكَ اللّهُمَّ وَبِحَمْدِكَ أَشْهَدُ أن لاَ إلَهَ إلاّ أنْتَ، أَسْتَغْفِرُكَ وَأَتُوبُ إلَيْكَ

Əbu Hureyra Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *"Kim bir məclisdə oturub orada çoxlu boş söhbətlər edərsə, məclisdən qalxmamışdan öncə: **«Subhanakə Allahummə və bihəmdik, əşhədu ən lə iləhə illə ənt, əstəğfirukə və ətubu ileyk»** (Allahım Sən pak və müqəddəssən! Sənə kamil həmd olsun! Şahidlik edirəm ki, Səndən başqa haqq məbud yoxdur. Səndən bağışlanma diləyir və Sənə tövbə edirəm!) – deyərsə, məclisdə olan günahları bağışlanar" (ət-Tirmizi: 3433; əl-Albani hədisi ''səhih'' hesab etmişdir: «Sahihul-Cami», 2/1065).*

## Üçüncü: Geyim və zinət sünnələri



### 1 Ayaqqabı geyinərkən sağ taydan başlamaq.



Ayaqqabı geyinərkən sağ taydan, soyunarkən isə sol taydan başlamaq sünnədir.

Əbu Hureyra Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *"Sizdən biriniz ayqqabısını geyindikdə sağ tayından, çıxartdıqda isə sol tayından başlasın. Qoy əvvəl geyindiyi və son çıxardığı sağ tayı olsun"* *(əl-Buxari: 5856; Müslim: 2095).*

Başqa rəvayətdə isə deyilir: *"Sizdən biriniz ayaqqabısının ancaq bir tayın geyib gəzməsin. Ya ikisini də çıxarsın, ya da ikisini də geyinsin"* *(əl-Buxari: 5855).*

**Bu qeyd etdiyimiz iki hədisdə 3 sünnə əməl vardır:**

1. Ayaqqabı geyinməyi sağ tayla başlamaq;
2. Ayaqqabı çıxarmağı sol taydan başlamaq;
3. Ayaqqabının ancaq bir tayı ilə gəzməmək; ya hər ikisini çıxarmaq, ya da hər ikisini geyinmək.

## 2 Ağ libas geyinmək.



Abdullah ibn Abbasdan Ê rəvayət edilir ki, Peyğəmbər > buyurmuşdur: *"Ağ libaslarınızı geyinin, çünki o, sizin ən xeyirli libasınızdır. Həmçinin ölülərinizi də onda dəfn edin"* *(Əhməd: 2219; Əbu Davud: 3878; ət-Tirmizi: 994; əl-Albani hədisi "səhih" hesab etmişdir: «Sahihul-Cami», 1/267).*

Şeyximiz İbn Useymin / söyləmişdir: *"Ağ libas geyinməyin əfzəlliyi bütün növ paltarlara: köynək, üst və alt geyimlərə və s. aiddir. Həmçinin, qadınlara xas olan rənglərdən başqa müxtəlif rənglərdə paltarlar geyinmək də icazəlidir"* *(Bax: «Şərhu Riyadus-Salihin», 2/108).*

## 3 Ətir istifadə etmək.



Ənəs Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *"Bu dünyada mənə qadın və ətir sevdirildi. Namaz isə gözümün nuru qılındı"* *(Əhməd: 12293; ən-Nəsai: 3940; əl-Albani hədisə "həsən səhih" demişdir).*

Rəvayət edilir ki, Aişə á demişdir: *"Peyğəmbər > ondan pis qoxu gəlməsini xoşlamazdı"* *(əl-Buxari: 6972).*

## 4 Həmçinin bilmək lazımdır ki, ətirdən imtina etmək bəyənilmir.

Ənəs Ê rəvayət edir ki, *"Peyğəmbər > heç vaxt ətirdən imtina etməzdi"* *(əl-Buxari: 2582).*

## 5 Saç daramağa sağdan başlamaq.

Saç daradıqda əvvəlcə sağ tərəfdən başlamaq, sonra isə sola keçmək sünnədir.



Rəvayət edilir ki, Aişə á demişdir: *"Peyğəmbər > ayaqqablarını geyindikdə, saçını daradıqda, yuyunduqda və beləcə bütün işlərində sağdan başlamağı sevərdi"* *(əl-Buxari: 168; Müslim: 268).*

## Dördüncü: Asqırdıqda və əsnədikdə edilən sünnələr



### Asqırdıqda edilən sünnə əməllər:

**1 Asqırdıqda *"Əlhəmdulilləh"* demək.**

الْحَمْدُ لِلَّهِ / يَرْحَمُكَ اللَّهُ / يَهْدِيكُمُ اللَّهُ ، وَيُصْلِحُ بَالَكُمْ

Əbu Hureyra Ê rəvayət edir ki, Peyğəmbər > *demişdir: "Qoy, sizdən biri asqırdıqda* ***«Əlhəmdulilləh»*** *(Allaha həmd olsun!) desin. Onu eşidən (din) qardaşı və ya dostu isə ona* ***«Yərhəmukəllah»*** *(Allah sizə rəhm etsin!) desin. O da «Yərhəmukəllah» deyənə* ***«Yəhdikumullahu və yuslihu bələkum»*** *(Allah sizi doğru yola yönəltsin və işlərinizi avand etsin!) desin"* *(əl-Buxari: 6224).*

الحَمدُ لله عَلَى كلِّ حَال

Həmçinin hərdən asqırdıqda ***«Əlhəmdulilləh alə kulli hal»*** deмək sünnədir. Başqa rəvayətdə deyilir: "Qoy, sizdən biri asqırdıqda ***«Əlhəmdulilləh alə kulli hal»*** *(Hər bir halda Allaha həmd olsun!) desin" (Əbu Davud: 5031; İbn Qayyim hədisin isnadına "səhih" demişdir: «Zədul-Mead», 2/436).*

### 2 Asqırıb Allaha həmd etməyənə rəhmət diləməmək.

Əgər bir kəs asqırıb Allaha həmd etməzsə (***«Əlhəmdulilləh»*** deməzsə), o halda ona rəhmət diləməmək (***«Yərhəmukəllah»*** deməmək) sünnədir. Ənəs Ê rəvayət edir: *"İki nəfər Peyğəmbərin > yanında asqırdı. Peyğəmbər onlardan birinə rəhmət dilədi, digərinə isə rəhmət diləmədi. (Rəhmət dilədiyi adam) dedi: "Nəyə görə ona rəhmət dilədin, mənə isə diləmədin?" Peyğəmbər > dedi: "O, Allaha həmd etdi, sən isə Ona həmd etmədin"* (əl-Buxari: 6225). *Başqa bir hədisdə isə Peyğəmbər > belə demişdir: "Sizdən biriniz asqırıb Allaha həmd etsə ona rəhmət diləyin. Yox əgər Allaha həmd etməsə, o halda ona rəhmət diləməyin"* (Müslim: 2992).

Lakin atanın oğluna, müəllimin tələbələrinə və buna oxşar hallarda təlim məqsədilə bu zikrləri bilməyən insanlara xatırlatması daha gözəldir.

Əgər insan təkrar-təkrar asqırdıqda onun üçün yalnız üç dəfə rəhmət dilənir və bundan artıq asdqırdıqda isə artıq ona rəhmət dilənmir.

Əbu Hureyradan Ê hədisdə deyilir: *"(Din) qardaşın (asqırdıqda) üç kərə ona rəhmət dilə! Bundan artıq asqırarsa (bil ki,) artıq onu zökəm tutub"* (Əbu Davud: 5034; əl-Albani hədisə "həsən moquf və mərfu" demişdir: «Sahihu Əbi Davud», 4/308).

Sələmə ibn Əkva Ê rəvayət edir: *"(Bir dəfə) Peyğəmbərin > yanında ikən bir nəfər asqırdı və Peyğəmbər > ona: **«Yərhəmukəllah»** – dedi: Adam bir də asqırdıqda Peyğəmbər > dedi: "Bu adamı zökəm tutub"* (Müslim: 2993).

**Nəticə budur ki, iki halda insana asqırdıqda rəhmət dilənmir:**

1. Asqırıb Allahı həmd etmədikdə;
2. Üç kərədən artıq asqırdıqda.

### Əsnədikdə edilən sünnə əməllər:

### Əsnədikdə onu boğmaq və ya qarşısını almaq.

Əbu Hureyra Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *"Allah (Öz qullarının) asqırmağını sevir, əsnəməklərini isə xoşlamır. Sizdən biriniz asqırdıqdan sonra Allaha həmd edərsə (**«Əlhəmdulilləh»** deyərsə), ona rəhmət diləmək (**«Yərhəmukəllah»** demək), bunu*

*eşidən hər bir müsəlmana vacibdir. Əsnəməyə gəlincə, heç şübhəsiz ki, bu, şeytandandır (şeytan əsnəməyi xoşlayar). Odur ki, qoy, sizdən biri əsnəmək istədikdə bacardığı qədər onun qarşısını alsın. Çünki o əsnəyib ''Haaah'' dedikdə şeytan ona gülür"* (əl-Buxari: 2663).

Başqa hədisdə Əbu Səid Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *"Qoy, sizdən biri əsnədiyi zaman əlini ağzına tutsun. Yoxsa şeytan onun ağzına girə bilər"* (Müslim: 2995).

Bundan da aydın olur ki, əsnəməyin qarşısı aşağıdakı yollarla alınır:

- əsnədikdə ağıza hakim olub onu açmamalı;
- ya əsnəməyi boğub saxlamalı;
- ya da əsnədikdə əl ilə ağız örtülməlidir.

Həmçinin də əsnədikdə səsi qaldırıb ''Haaah'', ''Aaahh'' və buna oxşar səslər çıxarmamalıdır. Çünki bu cür etmək şeytanın ona gülməsinə səbəbdir.

Əbu Hureyra Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *"Əsnəmək şeytandandır (yəni, şeytana xoş gələr). Odur ki, sizdən birini əsnəmək tutsa, qoy bacardığı qədər onun qarşısını alsın. Çünki o (əsnəyib): ''Haaah'' – etdikdə şeytan ona gülür"* (əl-Buxari: 3289; Müslim: 2994).



**Qeyd:** Bəzi insanlar əsnədikdən sonra şeytandan Allaha sığınırlar. Lakin bilmək lazımdır ki, buna heç bir dəlil yoxdur və bu, Peyğəmbərin > sünnəsinə müxalifdir. Çünki Peyğəmbərdən > bizə əsnəməkdən sonra hər hansı bir zikr dediyi varid olmamışdır.

## Beşinci: Digər gündəlik sünnələr



### Ayaqyoluna girdikdə və oradan çıxdıqda edilən zikrlər:



Ayaqyoluna girərkən oxunan zikr:

اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الْخُبْثِ وَالْخَبَائِثِ

Ənəsdən Ê rəvayət edilir: *“Peyğəmbər > ayaqyoluna daxil olduğu zaman belə deyərdi: «**Allahummə inni ə’uzu bikə minəl-xubsi (və ya xubusi) vəl-xabais**» (Allahım, pislikdən və pis əməllərdən (erkək və dişi cinlərdən) Sənə sığınıram!)* *(əl-Buxari: 6322; Müslim: 375).*

Ayaqyolundan çıxarkən oxunan zikr:

غُفْرَانَكَ

Aişə á rəvayət etmişdir: *"Peyğəmbər > ayaqyolundan çıxdıqda belə deyərdi: «**Ğufranəkə**» (Məni bağışla!)* *(Əhməd: 25220; Əbu Davud: 30; ət-Tirmizi: 7; əl-Albani hədisi "səhih" hesab etmişdir: «Təhqiqu Muşkətil-Məsabih», 1/116).*

## Vəsiyyət yazmaq.



Sağlam və ya xəstə olan hər bir müsəlman üçün vəsiyyət yazmaq sünnədir. Rəvayət edilir ki, Peyğəmbər > belə demişdir: *"Nə isə vəsiyyət etmək istəyən müsəlmanın, iki gün keçməmiş vəsiyyətinin yazılıb hazır olmaması ona yaraşmaz"* *(əl-Buxari: 2783; Müslim: 1626).* Hədisdə keçən "iki gün keçməmiş" ifadəsi qısa zaman müddətinə dəlalət etməkdədir. Çünki insanın nə zaman dünyasını dəyişəcəyi ona məlum deyildir.

Lakin zəkat, həcc, kəffarə kimi Allahın haqqı olan vəsiyyət növü, habelə, borc, əmanətin qaytarılması kimi insanların haqqı olan vəsiyyət növləri sünnə deyil, vacibdir.

## Alış-verişdə mülayim və alicənab olmaq.



Hər bir satıcı və müştəri alış-veriş etdikdə mülayimlik və alicənablıq keyfiyyətlərini özündən əskik etməməlidir. Habelə qiymət danışığında sərtlik göstərməməli və mübahisəyə yol verməməlidir.

Cabir ibn Abdullah Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *"Satanda, alanda və haqqını tələb edəndə mülayim olan kimsəyə Allah mərhəmət etsin!"* *(əl-Buxari: 2076).*

Həmçinin haqqını tələb edən kəs də bunu mülayim və alicənablıqla etməlidir.

## Hər dəfə dəstəmaz aldıqdan sonra iki rükət namaz qılmaq.



Gündəlik sünnələrdən olan bu əməl sahibi Cənnətə daxil olmaq kimi böyük fəzilətə sahibdir. Əbu Hureyra Ê rəvayət edir ki, Peyğəmbər > sübh namazından sonra Bilala Ê dedi: *"Ey Bilal, İslamda (könüllü etdiyin) ən gözəl əməl haqqında mənə xəbər ver. Çünki mən sənin səndəllərinin taqqıltısını Cənnətdə eşitdim." Bilal dedi: "Mənim (könüllü) etdiyim əməl odur ki, istər gecə, istərsə də gündüz vaxtı hər dəfə dəstəmaz aldıqdan sonra həmin dəstəmazla qədərimə yazılan sayda namaz qılıram" (əl-Buxari: 1149; Müslim: 2458).*

## Namazı gözləmək.



Əbu Hureyra Ê rəvayət edir ki, Peyğəmbər > dedi: *"Namaz sizdən birinizi evdəkilərinin yanına dönməkdən saxladığı müddətdə, o, namazda olmuş kimi sayılır" (əl-Buxari: 659; Müslim: 649).*

Əbu Hureyra Ê rəvayət edir ki, Peyğəmbər > dedi: *"Sizdən biriniz namaz qılıb növbəti namazı gözləyərsə, dəstəmazı pozulmadığı müddətcə mələklər onun üçün dua edib deyərlər: "Allahım, onu bağışla! Allahım, ona rəhm et! Namaz sizdən birinizi evdəkilərinin yanına dönməkdən saxladığı müddətdə, o, namazda olmuş kimi sayılır" (əl-Buxari: 659; Müslim: 649).*

Müslimin rəvayətində isə deyilir: *"...(kiməsə) əziyyət vermədikcə, dəstəmazı pozulmadıqca..." (Müslim: 649).* Yəni bu savaba nail olmağın şərti olduğun məkanda kiməsə əziyyət verməmək və dəstəmazlı halda qalmaqdır.

### Misvakdan istifadə etmək.



Misvakdan istifadə hər bir zaman edilən sünnə əməllərdəndir. Hətta Peyğəmbər > bu əmələ tez-tez təşviq edərək demişdir: *"Mən misvaka dair sizə dəfələrlə nəsihət etmişəm"* (əl-Buxari: 888). Ənəsdən Ê rəvayət olunan başqa bir hədisdə isə deyilir: *"Misvak ağzın təmizliyi, Rəbbin razılığıdır"* (Əhməd: 7; ən-Nəsai: 5; əl-Albani hədisi "səhih" hesab etmişdir: «əl-İrva», 1/105).

### Hər namaz üçün dəstəmaz almaq.



Pozulmasa belə hər namaz üçün dəstəmazı təzələmək sünnə əməllərdəndir. Məsələn, bir kəs dəstəmaz alıb məğrib namazını qılarsa, sonra işa namazının vaxtı girdikdə yenidən dəstəmaz alması sünnədir.

Ənəsdən Ê rəvayət edilən hədisdə deyilir: *"Peyğəmbər > hər namazdan əvvəl dəstəmaz alardı"* (əl-Buxari: 214).

Habelə müsəlmanın gün ərzində daim dəstəmazlı olması da sünnədir. Əbu Hureyra Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *"Yalnız mömin kəs daim dəstəmazlı olar"* (Əhməd: 22434; İbn Macə: 277; əd-Darimi: 655; əl-Albani hədisi "səhih" hesab etmişdir: «Sahihul-Cami», 1/225).

### Dua etmək.

Bu məqamda duanın bəzi sünnələrini qeyd etməyimiz yerinə düşər:

#### 1 Dəstəmazlı olmaq.

Əbu Musanın Ê rəvayət etdyi uzun hədisdə deyilir: *"Peyğəmbər > Huneyn döyüşünü başa çatdırdıqdan sonra Əbu Amirin Ê başçılığı altında Əvtasa qoşun göndərdi. (Döyüşdə) Cuşəmi (deyilən birisi) oxla Əbu Amiri dizindən yaraladı və ox onun dizində ilişib qaldı. Mən oxu dartıb çıxaranda yaradan qanlı çirk axdı. O dedi: "Qardaşoğlu, mənim salamımı Peyğəmbərə > çatdırarsan və deyərsən ki, mənim*

*üçün bağışlanma diləsin." Sonra Əbu Amir məni camaata başçı təyin etdi və az müddət keçdikdən sonra vəfat etdi. Mən geri qayıtdıqda gəlib həm bizim, həm də Əbu Amirin başına gələnləri Peyğəmbərə > danışdım. Onda o, su gətizdirib dəstəmaz aldı, sonra əllərini (göyə) qaldırıb dedi: "Allahım, qulun Əbu Amiri bağışla!" (O, əllərini elə qaldırdı ki,) hətta mən onun qoltuğunun ağlığını gördüm. O davam edib dedi: "Allahım, Qiyamət günü onu yaratdığın insanların bir çoxundan üstün et!"* (əl-Buxari: 4323; Müslim: 2498).

### 2 Qibləyə yönəlmək.

Abdullah ibn Abbas Ê rəvayət edir ki, Ömər ibn əl-Xəttab Ê ona demişdir: *"Bədr döyüşü günü Peyğəmbər > nəzər saldı. Onların sayı minə, sahabələrin sayı isə üç yüz on doqquza çatırdı. Sonra Peyğəmbər > qibləyə tərəf döndü, əllərini açdı və Rəbbini çağıraraq dedi: "Allahım, mənə verdiyin vədi yerinə yetir! Allahım, məni verdiyin vədə yetişdir! Allahım, əgər bu İslam zümrəsini həlak etsən, yer üzündə (Sənə) ibadət edən qalmaz!" O, əllərini açmış, qibləyə yönəlmiş vəziyyətdə Rəbbini çağırmağa (dua etməyə) davam edirdi. (Duanın şiddətindən) üst libası çiyinlərindən yerə düşdü. (Bunu görən) Əbu Bəkr yaxınlaşıb libası yerdən götürdü və onun çiyninə atdı, sonra arxadan ona sarılıb dedi: "Ey Allahın elçisi, kifayətdir Rəbbinə dua etdin. Şübhəsiz O, sənə vəd etdiyini verəcək…"* (Müslim: 1763).

### 3 Əlləri qaldırmaq.



Buna sübut olaraq çox sayda hədis varid olmuşdur. Onlardan biri də yuxarıda qeyd etdiyimiz İbn Abbasdan Ê rəvayət etdiyi hədisdir: *"O, əllərini açmış, qibləyə yönəlmiş vəziyyətdə Rəbbini çağırmağa (dua etməyə) davam edirdi."* (Müslim: 1763).

### 4 Duaya Allaha həmd-səna etmək və Peyğəmbərə salavat deməklə başlamaq.

Rəvayət edilir ki, Fədalə ibn Ubeyd Ê demişdir: *"(Bir gün) Peyğəmbər > aramızda oturmuşdu. Bu an bir kişi daxil olub namaz qıldı və dua etdi: "Allahım, məni bağışla! Allahım mənə rəhm et!" (Bunu görən) Peyğəmbər > ona dedi: "Ey namaz qılan, tələsdin!*

*Namaz qıldıqdan sonra (dua etməyə başladıqda) Allaha layiqincə həmd et, mənə salavat de, sonra isə dua et!" (ət-Tirmizi: 3476; əl-Albani hədisi "səhih" hesab etmişdir: «Sahihul-Cami», 1/172).*

### 5 Uca Allahın gözəl adları ilə dua etmək.

Dua edərkən Uca Allahın gözəl adlarından duaya müvafiq olanı seçilir. Məsələn: Ruzi istədikdə ***«Ya Rəzzaq»*** *(Ey ruzi verən!)*, Rəhmət dilədikdə ***«Ya Rahmən! Ya Rahim!»*** *(Ey Rəhmli! Ey Mərhəmətli!)*, izzət istədikdə ***«Ya Aziz!»*** *(Ey izzət sahibi!)*, bağışlanma dilədikdə ***«Ya Ğafur!»*** (Ey Bağışlayan!), şəfa dilədikdə ***«Ya Şafi!»*** *(Ey şəfa verən!)* – deyərək dua edilir.

Bu barədə Uca Allah buyurur: ***"Ən gözəl adlar Allahındır. Onu bu adlarla çağırıb dua edin!" (əl-Əraf: 180).***

### 6 Duanı təkrarlamaq və onda israrlı olmaq.

Az öncə qeyd etdiyimiz İbn Abbasın Ê rəvayət etdiyi hədisdə deyilir: *"Sonra Peyğəmbər > qibləyə tərəf döndü, əllərini açdı və Rəbbini çağıraraq dedi: "Allahım, mənə verdiyin vədi yerinə yetir! Allahım, məni verdiyin vədə yetişdir! Allahım, əgər bu İslam zümrəsini həlak etsən, yer üzündə (Sənə) ibadət edən qalmaz!" O, əllərini açmış, qibləyə yönəlik vəziyyətdə Rəbbini çağırmağa (dua etməyə) davam edirdi. (Duanın şiddətindən) üst libası çiyinlərindən yerə düşdü. (Bunu görən) Əbu Bəkr yaxınlaşıb libası yerdən götürdü və onun çiyninə atdı, sonra arxadan ona sarılıb dedi: "Ey Allahın elçisi, kifayətdir Rəbbinə dua etdin. Şübhəsiz O, sənə vəd etdiyini verəcək…" (Müslim: 1763).*

Əbu Hureyra Ê rəvayət edir ki, Peyğəmbər > Dövs qəbiləsi üçün dua edib dedi: *"Allahım, Dövs qəbiləsini doğru yola yönəlt və onları (İslam dininə) gətir! Allahım, Dövs qəbiləsini doğru yola yönəlt və onları (İslam dininə) gətir!" (əl-Buxari: 2937; Müslim: 2524).*

Başqa bir hədisdə isə Peyğəmbər > demişdir: *"Saçı-saqqalı bir-birinə qarışmış, üst-başı toza bulaşmış, uzun müddət səfərdə olan bir kəs əllərini göyə qaldırıb dua edər: "Ey Rəbim! Ey Rəbbim!" (Müslim: 1015).*

Həmçinin duanı üç dəfə təkrarlamaq sünnədir. İbn Məsuddan Ê rəvayət edilən hədisdə deyilir: *"Peyğəmbər > dua etdikdə və (Allahdan) nəsə istədikdə onu üç dəfə təkrarlayardı. Sonra üç dəfə dedi: "Allahım, Qureyşin cəzasın ver!" (əl-Buxari: 240; Müslim: 1794).*

### 7 Gizlin dua etmək.

Uca Allah buyurur: ***"Rəbbinizə yalvara-yalvara gizlicə dua edin!"*** ***(əl-Əraf: 55).*** Çünki gizlin halda dua etmək ixlasa daha yaxındır. Buna görə də izzət və cəlal sahibi Allah Öz kitabında Zəkiriyyə peyğəmbəri mədh edərək buyurmuşdur: ***"(Zəkəriyyə) Rəbbinə gizlicə dua edib yalvardığı zaman..."*** ***(Məryəm: 3).***

### Sual: Hansı duaları etmək daha yaxşıdır?

**Cavab:** Dünya və axirət üçün xeyirli olan istənilən duanı etmək olar. Həmçinin Quran və Sünnədə varid olan qısa, lakin çox məna kəsb edən kəlmələrlə dua etmək daha gözəldir. Çünki bu cür dualar dünya və axirət xeyirini özündə cəmləşdirməkdədir.



Əbu Malik Əşcai atasının È belə dediyini rəvayət edir: *"(Bir gün) bir nəfər Peyğəmbərin > yanına gəlib dedi: "Ey Allahın elçisi, Rəbbimə onunla dua edəcəyim kəlmələri öyrət?" Peyğəmbər > dedi: "De: «**Allahumməğfir li, vərhəmni, və a'fini, vərzuqni**» (Allahım! Məni bağışla, mənə rəhm et, məni doğru yola yönəlt, mənə salamatlıq və ruzi ver). Sonra (bu dörd kəlməyə işarə edərək) baş barmağından başqa digər barmaqların birşədirib dedi: "Bunlar sənin üçün dünyanı və axirətini cəm edər"* (Müslim: 2697).

اللَّهُمَّ اغْفِرْ لِي ، وَارْحَمْنِي ، وَعَافِنِي ، وَارْزُقْنِي

Başqa rəvayətdə isə deyilir: *"Bir kimsə İslamı qəbul etdikdə Peyğəmbər > ona namaz qılmağı öyrədər, sonra əmr edərdi ki, bu kəlmələrlə (Allaha) dua etsin: «**Allahumməğfir li, vərhəmni, və a'fini, vərzuqni**» (Allahım! Məni bağışla, mənə rəhm et, məni doğru yola yönəlt, mənə salamatlıq və ruzi ver!)"* (Müslim: 2697).

**Fayda:** Adamın yanında olmayan mömin qardaşı üçün dua etməsi böyük fəzilətə malik sünnə əməllərdəndir. Həmçinin həmin dua Allahın izni ilə qəbul olan duadır. Əbud-Dərda Ê Peyğəmbərin > belə dediyini rəvayət etmişdir: *"Müsəlman bəndənin yanında olmayan qardaşı üçün etdiyi dua qəbuldur. Dua edən adamın başı üzərində təyin olunmuş bir mələk vardır. Adam hər dəfə qardaşı üçün dua edib xeyir dilədikdə mələk də deyər: "Amin, sənə də onun on misli qədər yetişsin!"* (Müslim: 2733).



◆ İnsanı məşğul edən və qəflətə aparan şeylərin çox olduğu bir *zamanda müsəlmanın* öz nəfsi ilə baş-başa qalıb onu hesaba çəkməsi və Rəbbini daha çox xatırlaması (zikr etməsi) məqsədə uyğundur.

### Gündəlik sünnələrdən də biri Allahı zikr etməkdir.

Ən əzəmətli zikr Uca Allahın kitabını oxumaqdır. Bilməliyik ki, bu ibadət növü sələflərimizi gecələr yataqlarında rahat buraxmayıb yuxudan etmişdir. Uca Allah bu haqda buyurur: ***"Onlar gecələr (ibadətlə məşğul olub) az yatardılar. Sübh çağında isə Allahdan bağışlanma dilərdilər"*** ***(əz-Zariyyat: 17-18).***

Həmçinin sələflərimiz gecələrini Allahın kitabını və Peyğəmbərdən > varid olan zikrləri oxumaqla keçirərdilər. Gecələr bu sünnəni yaşadan zümrə necə də gözəl, gecə və gündüzünü faydasız keçirib etinasız yanaşan zümrə isə necə də pisdir! Allahın rəhm etdiyi kəslərdən başqa gecələrini nəinki itaətsiz, hətta günahla keçirən müsəlmanlar da vardır. Allah bizləri qorusun!

Həmmad ibn Zeyd Əta ibn əs-Səibdən rəvayət edir ki, Əbu Əbdurrəhman demişdir: *"Quranı elə bir qövmdən öyrənmişik ki, onlar Quran öyrənərkən on ayə öyrənərdilər, tam mənasını başa düşərdilər, sonra ona əməl etməyincə yeni on ayəyə keçməzdilər. Biz də həmçinin, Quranı və ona əməl etməyi eyni zamanda öyrənərdik. Lakin bizdən sonra elə bir qövm Qurana sahib çıxacaq ki, Quranı su kimi içəcəklər, lakin o, onların boğazlarından aşağı keçməyəcək"* *(«Ə`ləmul-Nubələ», 4/269).*

### Zikr etmək qəlblərə yeni həyat verər.



Əbu Musa Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *"Rəbbini zikr edənlə Onu zikr etməyənin misalı, diri ilə ölünün misalı kimidir."* *(əl-Buxari: 6407; Müslim: 779).*

Müslimin rəvayətində isə deyilir: *"Allah zikr olunan evlə O zikr olunmayan evin misalı diri ilə ölünün misalı kimidir."* *(əl-Buxari: 6407; Müslim: 779).*

**İzzət və cəlal sahibi Allah Quranda bir çox yerlərdə Onu zikr etməyə təşviq edir.**

Onlardan bəzilərini oxucuların nəzərinizə çatdıraq:

1. Uca Allah bəndələrini zikri çoxaltmasına çağırır: ***"Ey iman gətirənlər! Allahı çox zikr edin! Onu səhər-axşam təqdis edib şəninə təriflər deyin!"* (əl-Əhzab: 41-42).**
2. Uca Allah Onu zikr edən kişi və qadınları böyük savab və əcrlə, həmçinin, məğfirətlə müjdələyir: ***"Allahı çox zikr edən kişilər və qadınlar üçün Allah bağışlanma və böyük mükafat hazırlamışdır "* (əl-Əhzab: 35).**
3. Uca Allah bizi münafiqlərin sifətlərindən çəkindirir. Çünki onlar Allahı az zikr edərlər: ***"Münafiqlər Allahı aldatmağa çalışırlar. Halbuki Allah onları aldadır. Onlar namaza durarkən (yerlərindən) könülsüz qalxar, özlərini camaata göstərər və Allahı olduqca az yad edərlər"* (ən-Nisa: 142).**
4. Həmçinin, Allah Təalə bəndələrini mal-dövlətin və övladların Onun zikrindən yayındırmasından çəkindirib. ***"Ey iman gətirənlər! Nə mal-dövlətiniz, nə də oğul-uşağınız sizi Allahın zikrindən yayındırmasın! Bunu edənlər ziyana uğrayanlardır"* (əl-Munafiun: 9).**
5. Əbu Hureyra Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *"Uca Allah buyurur: "Mən qulumun barəmdəki zənni yanındayam, Məni yad etdikcə onunlayam. O məni öz-özlüyündə yad etsə, Mən də onu Öz-Özlüyümdə yad edərəm. O məni camaatın yanında yad edərsə, Mən onu onlardan daha xeyirli bir toplumun (mələklərin) yanında yad edərəm." (əl-Buxari: 7405; Müslim: 2675).*

**Peyğəmbərdən > varid olan bəzi zikrlər:**

1. لاَ إِلهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ

Əbu Hureyra Ê rəvayət edir ki, Peyğəmbər > buyurmuşdur: *"Kim bir gündə yüz dəfə **"Lə iləhə illəllahu vəhdəhu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu və huva alə kulli şeyin qadir"** (Allahdan başqa haqq məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Bütün varlıq və kamil həmd yalnız Ona*

*məxsusdur! O hər şeyə Qadirdir!) deyərsə, bu onun üçün on qulu azad etməyə bərabər olar, ona yüz savab yazılar, onun yüz günahı silinər, həmin günü axşamadək şeytandan qorunmuş olar və (Qiyamət günü) heç kəs onun gətirdiyindən əfzəl heç bir şey gətirə bilməz. Yalnız o şəxsdən başqa ki, o bunu ondan çox etmişdir. Kim də bir gündə yüz dəfə «**Subhanəllahi və bihəmdihi**» (Allah pak və müqəddəsdir! Allaha həmd olsun!) deyərsə, onun günahları hətta dəniz köpüyü qədər olsa belə yenə də bağışlanar"* (əl-Buxari: 3293; Müslim: 2691).

2 لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ

Əbu Eyyub Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *"Kim on dəfə: «**Lə iləhə illəllahu vəhdəhu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu və huva alə kulli şeyin qadir**» (Allahdan başqa haqq məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Bütün varlıq və kamil həmd yalnız Ona məxsusdur! O hər şeyə Qadirdir!) – deyərsə, bu onun üçün İsmail övladlarından dörd qulu azad etməyə bərabər olar"* (əl-Buxari: 6404; Müslim: 2693).

3 Rəvayət edirlir ki, Səid ibn Əbu Vəqqas Ê demişdir: *"(Bir gün) Peyğəmbərin > yanında olanda o, bizdən soruşdu: "Sizlərdən hər gün min savab qazanmaqdan aciz qalan varmı? Yanında oturanlardan biri soruşdu: "Bizlərdən biri min savabı necə qazana bilər?" O dedi: "Yüz dəfə təsbih etsə («**Subhanəllah**» desə), ona min savab yazılar, yaxud min günahı silinər"* (Müslim: 2698).

4 سُبْحَانَ اللهِ وَبِحَمْدِهِ

Əbu Hureyra Ê rəvayət edir ki, Peyğəmbər > buyurmuşdur: *"Kim də bir gündə yüz dəfə: «**Subhanəllahi və bihəmdihi**» (Allah pak və müqəddəsdir! Kamil həmd yalnız Allaha məxsusdur!) – deyərsə, onun günahları hətta dəniz köpüyü qədər olsa belə yenə də bağışlanar"* (əl-Buxari: 6405; Müslim: 2692).

لاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللهِ

Əbu Musa əl-Əş`ari Ê demişdir: *"(Xeybər günü) Peyğəmbər > mənə belə buyurdu: "Cənnət xəzinələrindən birini sənə deyimmi?" Dedim: "Bəli, (ya Rəsulallah!)" O > , dedi: "Lə həulə və lə quvvətə illə billəh!" (Qüdrət və güc yalnız Allahındır!)* (əl-Buxari: 4202; Müslim: 2704).

سُبْحَانَ اللهِ , وَالْحَمْدُ للهِ , وَلاَ إِلَهَ إِلاَّ اللهُ , وَاللهُ أَكْبَرُ

Əbu Hureyra Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *"**«Subhanəllahi vəlhəmdulilləhi, və lə iləhə illəllahu, vəllahu əkbər»** (Allah pak və müqəddəsdir! Kamil həmd yalnız Allaha məxsusdur! Allahdan başqa haqq məbud yoxdur! Allah hər şeydən Böyükdür!) deməyim, mənə üzərində günəş doğan hər bir şeydən əzizdir"* (Müslim: 2695).

Həmçinin *"İstiğfar" (Bağışlanma diləmək)* zikrin növlərindən hesab olunur. Əl-Əğarru əl-Muzəni Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *"Həqiqətən mənim də qəlbimin tutulduğu (zikrdən uzaq qaldığı) anlar olur. (Ona görə də) mən gündə yüz dəfə Allahdan bağışlanma diləyirəm!"* (Müslim: 2702).

Əl-Əğarru əl-Muzəni Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *"Ey insanlar! Allaha tövbə edin! Mən Ona gündə yüz dəfə tövbə edirəm!"* (Müslim: 2702).

Əbu Hureyra Ê rəvayət edir ki, Peyğəmbər > demişdir: *"Allaha and olsun ki, mən hər gün yetmiş dəfədən çox Ondan bağışlanma diləyir və Ona tövbə edirəm"* (əl-Buxari: 6307).

سُبْحَانَ اللهِ وَبِحَمْدِهِ, سُبْحَانَ اللهِ الْعَظِيم

Kitabı Əbu Hureyranın Ê əzəmətli bir zikri rəvayət etdiyi hədisi ilə bitirirəm. Peyğəmbər > buyurmuşdur: *"Dilə yüngül gələn, çəkidə ağır gələn, Ər-Rahmənə əziz olan iki kəlmə vardır: **«Subhanəllahi və bihəmdihi, subhanəllahi-azım»** (Allah pak və müqəddəsdir! Allaha həmd olsun! Böyük Allah pak və müqəddəsdir!)"* (əl-Buxari: 4202; Müslim: 2704).

***Öz lütfü ilə bütün saleh əməlləri tamamlayan Allaha kamil həmd-səna olsun!***

AZERBAIJANIAN


Müqəddimə


Fəcrdən əvvəlki sünnələr


Fəcr vaxtı edilən sünnələr


Duha vaxtı edilən sünnələr


Zöhr və Əsr vaxtı edilən sünnələr


Məğrib vaxtı edilən sünnələr


İşa vaxtı edilən sünnələr


Yemək sünnələri


Salamlaşma, görüş və məclis sünnələri


Geyim və zinət sünnələri


Asqırma və əsnəmə sünnələri


Digər sünnələr

# Peyğəmbərin ﷺ gündəlik sünnə əməlləri və zikrləri

اللغة الأذرية
AZERBAIJANIAN LANGUAGE

جميع لغات المشروع
ALL LANGUAGES